# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# VI SESSİYASI İCLASININ

# PROTOKOLU № 72

*Milli Məclisin iclas salonu.*
*12 may 2026-cı il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 118 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 114 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Seyfulla Əzimov**, Azərbaycan Respublikası daxili işlər nazirinin birinci müavini.
**Fazil Quliyev**, Azərbaycan Respublikası daxili işlər nazirinin müavini.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun 2025-ci ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı.
2. Quba rayonunun bəzi ərazi vahidlərinin adlarının dəyişdirilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.
3. "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).
4. "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).
5. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
6. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).
7. Maliyyə icarəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

8. Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində, “Müflisləşmə və iflas haqqında”, “Taxıl haqqında”, “Beynəlxalq xüsusi hüquq haqqında”, “Tütün və tütün məmulatı haqqında”, “Dövlət rüsumu haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “Banklar haqqında”, “Daşınmaz əmlakın dövlət reyestri haqqında”, “Çayçılıq haqqında”, “Ailə kəndli təsərrüfatı haqqında”, “Atçılıq haqqında”, “Bank olmayan kredit təşkilatları haqqında”, “Pambıqçılıq haqqında”, “İcbari sığortalar haqqında”, “Lisenziyalar və icazələr haqqında”, “Kənd təsərrüfatı kooperasiyası haqqında”, “Elm haqqında”, “Kredit büroları haqqında”, “Nağdsız hesablaşmalar haqqında”, “Daşınar əmlakın yüklülüyü haqqında”, “Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında” və “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tural Gəncəliyev, Vüqar Bayramov, Nizami Səfərov, Fəzail İbrahimli, Şahin İsmayılov, Mahir Süleymanlı, Zahid Oruc, Hikmət Məmmədov, Bəhruz Məhərrəmov, Rizvan Nəbiyev

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.13 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 113 |

Nəticə: Qəbul edildi

**1. İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun 2025-ci ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Seyfulla Əzimov, Zahid Oruc, Əli Hüseynli, Fazil Mustafa, Bəhruz Məhərrəmov, Vüqar Bayramov, Razi Nurullayev, Azər Allahverənov

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**2. Quba rayonunun bəzi ərazi vahidlərinin adlarının dəyişdirilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Siyavuş Novruzov, Əlibala Məhərrəmzadə

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

**3. “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Sadiq Qurbanov, Qüdrət Həsənquliyev, Bəhruz Məhərrəmov, Bəxtiyar Əliyev, Azər Badamov, Asif Əsgərov, Əziz Ələkbərov, Erkin Qədirli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

**4. “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Səməd Seyidov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.44 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**5. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.47 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.48 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.48 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.49 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**6. “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Vüqar Bayramov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.50 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.55 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4-cü və 5-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.55 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.56 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**7. Maliyyə icarəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.00 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihənin adı, preambulası, 1–4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.01 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 5–11-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.02 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 12–14-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.02 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Təklif:** 15–21-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.02 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 22–25-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.03 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.03 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**8. Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində, "Müflisləşmə və iflas haqqında", "Taxıl haqqında", "Beynəlxalq xüsusi hüquq haqqında", "Tütün və tütün məmulatı haqqında", "Dövlət rüsumu haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Çayçılıq haqqında", "Ailə kəndli təsərrüfatı haqqında", "Atçılıq haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Pambıqçılıq haqqında", "İcbari sığortalar haqqında", "Lisenziyalar və icazələr haqqında", "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Elm haqqında", "Kredit büroları haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Tahir Rzayev, Fariz İsmayılzadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.01 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1–5-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.04 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 6–10-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.04 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 11–15-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.04 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 16–26-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.05 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.05 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

***MİLLİ MƏCLİSİN İCLASI***

*12 may 2026-cı il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*

***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük.

Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 114 |
| Yetərsay | 83 |

Yetərsay var, biz iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, iki gün öncə xalqımız Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103 illiyini böyük qürurla, hörmət və ehtiramla qeyd etdi. Mayın 10-da ölkə ictimaiyyətinin nümayəndələri, ictimai-siyasi və dövlət xadimləri ilə yanaşı, Milli Məclisin deputatları Fəxri Xiyabanı ziyarət edərək Ümummilli Liderin əziz xatirəsini yad etdilər. Milli Məclisin bugünkü iclası da bizə Azərbaycan dövlətinin memarı və qurucusu olan Heydər Əliyevin xidmətləri qarşısında bir daha minnətdarlığımızı ifadə etmək imkanı yaradır.

Hörmətli deputatlar, milli tariximizin ən böyük şəxsiyyətlərindən biri olan Heydər Əliyevin keçdiyi ömür yolu doğma torpağa və xalqa məhəbbət və sədaqət meyarına çevrilmişdir. 1969–1982-ci illərdə Azərbaycana ilk rəhbərliyi dövründə Heydər Əliyevin dahiyanə idarəçilik qabiliyyəti, strateji təfəkkürü və irəlini görmək məharəti sayəsində ölkəmiz böyük bir inkişaf yolu keçmişdir. Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi yaşaya

bilməsinə imkan verən zəngin iqtisadi potensial yaradıldı. Bu illər tariximizə həm də mədəni intibah dövrü kimi daxil oldu.

Hörmətli deputatlar, 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan mürəkkəb problemlər qarşısında qalmışdı. Dövlət idarəçiliyində yol verilən kobud səhvlər, həyatın bütün sahələrini bürüyən dərin böhran, Ermənistan silahlı qüvvələri tərəfindən torpaqlarımızın işğal edilməsi, milli həmrəyliyin pozulması, separatizm meyillərinin güclənməsi, vətəndaş müharibəsi təhlükəsinin yaranması müstəqil dövlətin varlığını  ciddi təhlükə altına almışdı.

Məhz belə bir ağır şəraitdə xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin ali dövlət hakimiyyətinə qayıtması, Ali Sovetin sədri və 4 ay sonra xalqın yekdil iradəsi ilə Prezident seçilməsi destruktiv proseslərin və hadisələrin qarşısını almağa, ölkədə vəziyyəti sabitləşdirməyə imkan verdi.

Tariximizin ən mürəkkəb və taleyüklü dövründə məhz Ulu Öndərin siyasi müdrikliyi, qətiyyəti və fədakarlığı sayəsində dövlət müstəqilliyimizi qoruyub saxlamaq mümkün oldu.

Hörmətli həmkarlar, Heydər Əliyevin rəhbərliyi ilə müasir milli dövlətçilik konsepsiyası formalaşdırılmış və həyata keçirilmişdir. Müstəqil dövlətimizin Konstitusiyası hazırlanıb qəbul olunmuş, xalqımızın maraqlarına cavab verən daxili və xarici siyasətin strateji istiqamətləri müəyyən edilmişdir. Ölkəmizin uzunmüddətli və dayanıqlı inkişaf modeli yaradılmışdır. Azərbaycan beynəlxalq birliyin nüfuzlu üzvünə çevrilmişdir.

Hörmətli deputatlar, Ümummilli Liderin başladığı möhtəşəm işlər Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Son iyirmi üç il Azərbaycanın dövlətçilik

tarixinə dinamik və hərtərəfli inkişaf dövrü kimi daxil olmuşdur. Ölkə həyatının bütün sahələrində böyük və qürurverici uğurlar əldə edilmişdir. Azərbaycanın zəngin iqtisadi, siyasi və hərbi potensialı yaradılmışdır. Bu isə xalqımızın və dövlətimizin müqəddəratı ilə bağlı olan ən mühüm problemi həll etməyə imkan vermişdir.

Müzəffər Ali Baş Komandanın sərkərdəlik məharəti və Azərbaycan Silahlı Qüvvələrinin döyüş əzmi və rəşadəti 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında tarixi qələbələri təmin etdi. Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyuldu, dövlətimizin ərazi bütövlüyü və suverenliyi, tarixi ədalət bərpa olundu. Ümummilli Lider Heydər Əliyev tərəfindən bu sahədə başladılmış tarixi missiya şərəflə başa çatdırıldı.

Hörmətli həmkarlar, ötən ilin avqustunda əldə edilmiş Vaşinqton razılaşmaları möhtərəm cənab Prezidentin sülh diplomatiyasının təntənəsinə çevrilmiş, onun irəli sürdüyü sülh gündəliyinin həyata keçirilməsi yolunda həlledici addım olmuşdur. Bu hadisə bizim ölkəmiz və bütün Cənubi Qafqaz regionu qarşısında sülh, sabitlik və əməkdaşlığı təcəssüm etdirən yeni üfüqlər açmışdır.

Hörmətli deputatlar, biz bir məqamı həmişə qürurla vurğulayırıq ki, 1993-cü ilin iyununda Heydər Əliyev böyük siyasətə qayıdışa Azərbaycan parlamentinin sədri vəzifəsində başlamışdır. Ulu Öndərin fəaliyyəti sayəsində yeni inkişaf səviyyəsinə yüksəlmiş parlamentarizm ənənələri bu gün dövlət başçısının qayğısı ilə, Milli Məclis deputatlarının birgə səyləri ilə daha da inkişaf etdirilir.

Hörmətli deputatlar, Ulu Öndər Heydər Əliyevin fəaliyyəti dünya siyasət sənəti xəzinəsinə daxil olmuşdur. Onun ideyaları xalqımızın bugünkü və gələcək nəsillərinin əməllərində yaşayır və daim yaşayacaqdır. *(Alqışlar.)*

Hörmətli həmkarlar, bildiyiniz kimi, mayın 9-da faşizm üzərində qələbənin 81 illiyi qeyd olundu. Qələbənin əldə edilməsinə Azərbaycan xalqı böyük töhfələr vermişdir. Müharibə dövründə Azərbaycandan 700 minə yaxın adam cəbhəyə çağırılmışdır. Azərbaycanlılardan ibarət 5 milli diviziya yaradılmışdır. 320 minə qədər həmvətənimiz döyüş meydanlarından geriyə qayıtmamışdır.

Əsgər və zabitlərimiz döyüş meydanlarında misilsiz qəhrəmanlıq və şücaət göstərmişlər. Həmvətənlərimiz 400 mindən çox döyüş ordenləri və medalları ilə təltif edilmiş, 130 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

Müharibə illərində Azərbaycanın bütün iqtisadiyyatı ordunun ehtiyaclarına uyğunlaşdırılmışdı. Bakıdan cəbhəyə 75 milyon ton neft və 22 milyon ton benzin göndərilmişdir. Azərbaycan yanacağı qələbənin əldə edilməsində əvəzsiz rol oynamışdır.

Hörmətli deputatlar, İkinci Dünya müharibəsinin veteranları dövlət tərəfindən hərtərəfli qayğı ilə əhatə olunmuşlar. Biz onlara möhkəm can sağlığı arzulayırıq. Müharibə dövründə həlak olmuş həmvətənlərimizin əziz xatirəsini ehtiramla yad edirik.

Hörmətli həmkarlar, o müharibədən 75 il sonra Azərbaycan xalqının övladları qəhrəmanlıq ənənələrini İkinci Qarabağ müharibəsi günlərində də nümayiş etdirmişlər. Nəsillər arasında əlaqə, milli-mənəvi dəyərlərə sədaqət və öz torpağı uğrunda fədakarlıq xalqımızın yenilməz ruhunun rəmzinə çevrilmişdir.

Hörmətli deputatlar, indi isə mən sizə qısa bir hesabat, yəni may ayının 6-dan 8-dək Monteneqroya işgüzar səfərim haqqında məlumat vermək istərdim.

Səfərdə məqsəd həmin ölkənin Budva şəhərində keçirilən Aralıq Dənizi Parlament Assambleyasının üzvü və tərəfdaşı olan parlamentlərin sədrlərinin 1-ci Sammitində və Assambleyanın 20-ci plenar sessiyasında iştirak etmək idi.

Qeyd edim ki, bu nüfuzlu beynəlxalq parlament məclisi Avropa-Aralıq dənizi və Körfəz ölkələrinin 34 parlamentini birləşdirir. Təşkilatın fəaliyyəti təhlükəsizlik, iqtisadi inteqrasiya, dinlərarası dialoq və digər məsələlərin həllinə kömək göstərməyə yönəlmişdir. Xüsusi vurğulamaq istərdim ki, son bir ildə Azərbaycan Respublikasının Milli Məclisi ilə bu təşkilat arasında əlaqələr sürətlə inkişaf etmiş, müxtəlif qarşılıqlı səfərlər və görüşlər də həyata keçirilmişdir.

Bu ilin yanvar ayında Aralıq Dənizi Parlament Assambleyası Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalamağı və Milli Məclisə müşahidəçi statusu verməyi təklif etmişdir. Xüsusi qeyd etmək istərdim ki, bu məqam Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılmış və hazırda Milli Məclisin sədrlik etdiyi Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin beynəlxalq səviyyədə artan nüfuzunun göstəricisidir. Digər tərəfdən, Azərbaycan Respublikası Milli Məclisinin parlament diplomatiyasında fəal rolunu, beynəlxalq parlament təşkilatları ilə səmərəli əməkdaşlığını bariz şəkildə əks etdirir.

Qeyd edim ki, tədbir çərçivəsində təşkil olunmuş mərasim zamanı Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Aralıq Dənizi Parlament

Assambleyası arasında Anlaşma Memorandumu imzalandı. Memorandumu Parlament Şəbəkəsinin sədri kimi mən və Aralıq Dənizi Parlament Assambleyasının prezidenti cənab Culio Çentemero imzaladıq. Eyni zamanda, Azərbaycan Respublikasının Milli Məclisinə Aralıq Dənizi Parlament Assambleyasında müşahidəçi statusu verildi.

Hörmətli həmkarlar, parlament sədrlərinin 1-ci sammitində parlament diplomatiyası ilə bağlı məsələlər müzakirə olundu. Etdiyim çıxışda qeyd etdim ki, parlament diplomatiyası etibarlı, inklüziv olmalı və beynəlxalq hüquqa, demokratik prinsiplərə, eləcə də qarşılıqlı anlaşmaya əsaslanmalıdır. Bildirdim ki, Azərbaycan Milli Məclisi çoxtərəfli parlament platformaları çərçivəsində iş birliyinə xüsusi önəm verir. Biz parlamentlərarası əməkdaşlığı ortaq çağırışların həlli üçün mühüm vasitə hesab edirik. Xatırlatdım ki, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Azərbaycanın təşəbbüsü ilə yaranması və təşkilatın fəaliyyəti də ölkəmizin qlobal səviyyədə parlament əməkdaşlığının gücləndirilməsinə sadiqliyini əks etdirir.

Hörmətli həmkarlar, səfər çərçivəsində mənim Monteneqro parlamentinin sədri Andrija Mandiç ilə görüşüm oldu. Görüşdə Azərbaycan–Monteneqro münasibətlərinin inkişafında parlamentlərarası təmasların mühüm rolu qeyd olundu. Qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər haqqında biz fikir mübadiləsi apardıq.

Hörmətli həmkarlar, hesab edirəm ki, Monteneqroya işgüzar səfər uğurlu oldu. Diqqətinizə görə çox sağ olun.

İndi isə xahiş edirəm, gündəliyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.13 dəq.) |
|---|---|
| Lehinə | 111 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul olundu, çox sağ olun.

Bizim 30 dəqiqəmiz var. Kim gündəliklə, ya da gündəmdə olan məsələlərlə bağlı çıxış etmək istəyirsə, buyursun, yazılsın. 10 nəfərin siyahısı qalsın. 3 dəqiqəlik reqlament yadınızdan çıxmasın.

Tural Gəncəliyev.

**Tural Gəncəliyev**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Ümummilli Lider Heydər Əliyevlə bağlı, hörmətli Sahibə xanım, Sizin dediyiniz bütün fikirləri bölüşürük. Milli Liderin Azərbaycan xalqının taleyində, müasir dövlətçilik ənənəsində oynadığı rol, uğurlu hekayə, müvəffəqiyyət hekayəsi əbədi olaraq xalqımızın tarixinə qızıl hərflərlə həkk olunacaqdır.

Hörmətli həmkarlar, Prezident İlham Əliyevin Zəngilanda etdiyi çıxış, sadəcə, bir nitq deyil, köhnə beynəlxalq diplomatiya sisteminə verilmiş siyasi hökm idi. Ümummilli Lider Heydər Əliyevin doğum günündə xalqa müraciət edən dövlət başçısı açıq şəkildə göstərdi ki, Azərbaycan artıq öz təhlükəsizliyinin və regional gələcəyinin şərtlərini özü müəyyən edən mərhələyə keçmişdir.

Təxminən 30 il ərzində ATƏT-in Minsk qrupu diplomatik uğursuzluğun və ikiüzlülüyün simvoluna çevrilmişdir. Bu strukturun artıq rəsmi şəkildə ləğv olunaraq de-yure fəaliyyətini dayandırdığı bir vaxtda açıq demək olar ki, onun məqsədi heç vaxt münaqişəni həll etmək olmamışdı. Həmsədrlər yalnız vəziyyəti dondurmağa və işğalı legitimləşdirməyə çalışır, xalqımıza

isə guya “bu münaqişənin hərbi həlli yoxdur” fikrini təlqin edirdilər. Bu, psixoloji təzyiq forması idi. 30 il davam edən diplomatik turizm dövründə vasitəçilər bölgəmizdən işğalçı qüvvələrin bir nəfər belə əsgərini çıxarmadılar. Şəhərlərimiz yer üzündən silinərkən, məscidlərimiz xarabalığa çevrilərkən onlar susurdular.

Prezidentin bəyanatına xüsusi kəskinlik verən məqam isə budur ki, Minsk qrupu həmsədrləri olan ABŞ, Fransa və Rusiya nüvə dövlətləri və BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Dünyada böyük gücə malik olmalarına baxmayaraq, onlar 30 il ərzində öz qəbul etdikləri qətnamələri belə görməzdən gəldilər.

Biz beynəlxalq hüquqa münasibətdə açıq selektiv yanaşma ilə üz-üzə qaldıq. Böyük dövlətlər yalnız öz geosiyasi maraqlarına uyğun gələn qərarların icrasını təmin edirlər.

2020-ci ildə Azərbaycan dünya miqyasında yeni bir presedent yaratdı. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını güc və siyasi iradə hesabına təkbaşına təmin etdik. Məhz buna görə də bu gün AŞPA, Avropa Parlamenti kimi institutlar absurd qətnamələr qəbul edərək Azərbaycana qarşı təzyiq etməyə çalışırlar, cəhd göstərirlər.

Bu gün Zəngilanda xarabalıqların yerində yeni geoiqtisadi qovşaq qurulur. Prezidentimiz bu rayonun beynəlxalq nəqliyyat habına çevriləcəyini bəyan etdi. Bu yeni memarlığın əsas elementi isə Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirəcək və Orta Dəhlizin bir hissəsinə çevriləcək Zəngəzur dəhlizi olacaq. Azərbaycan sübut etdi ki, ədaləti sözlə deyil, əməli ilə də bərpa edə bilir.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Fərid müəllim, fotoqraf artıq başa düşdü, çıxdı. Mən Ulu Öndər haqqında, Prezident haqqında burada nə isə deyəndə bu zalda fotoqraf olmasın, nə mənim, nə də burada olan deputatların şəklini çəksin. Burada sükut olmalıdır. Xahiş edirəm, bunu təmin edin.

Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hörmətli xanım sədr, Sizi və nümayəndə heyətini çox faydalı və eyni zamanda, əhəmiyyətli səfər münasibəti ilə təbrik edirəm. Cənab Prezident tərəfindən müəyyənləşdirilmiş strategiyaya uyğun olaraq, Sizin rəhbərliyinizlə parlament diplomatiyası inkişaf edir və ölkəmizin inkişafına töhfə verir.

Azərbaycan tarixi günlərini yaşayır. 2 gün öncə Ümummilli Liderin anadan olmasının 103-cü ildönümündə cənab Prezident Şərqi Zəngəzurda uzun fasilədən sonra öz ata-baba yurdlarına qayıdanlarla görüşdü. Ermənistanın işğalından sonra Qarabağ və Şərqi Zəngəzur bərpa olunur, yenidən qurulur və keçmiş məcburi köçkünlər öz ata-baba yurdlarına qayıdırlar.

Cənab Prezidentin sosial media hesablarında paylaşımında qeyd etdiyi kimi, Ümummilli Lider Heydər Əliyev bugünkü Azərbaycanı görsə idi şad olardı. Bugünkü Azərbaycan yeni dünya düzəninin formalaşması mərhələsində, regionda müşahidə edilən siyasi təhdidlər fonunda cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində geosiyasi mövqeyini daha da gücləndirən və regionda orta gücə çevrilən dövlətdir. Azərbaycan MDB-də münaqişəyə məruz qalan ölkələr arasında ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən ilk dövlətdir. Bugünkü Azərbaycan 88 milyard dollardan çox valyuta ehtiyatları və öz ehtiyatlarının

ÜDM-dəki nisbəti ilə dünyada ən yaxşı göstəricilərə malik olan ölkələrdən biridir. Eyni zamanda, bugünkü Azərbaycan xarici borcun ÜDM-də 6,5 faizlik nisbəti ilə dünyada ən yaxşı onluğa daxil olan dövlətdir. Azərbaycan, eyni zamanda, 76 milyard dollara yaxın ümumi daxili məhsulu ilə Cənubi Qafqaz iqtisadiyyatında drayverə çevrilmiş dövlətdir.

Azərbaycan Zəfərdən keçən qısa müddət ərzində yalnız dövlət büdcəsindən Qarabağ və Şərqi Zəngəzurun bərpasına 23 milyard manatdan artıq vəsait ayırıb. Artıq 85 minə yaxın vətəndaşımız işğaldan azad olunmuş ərazilərimizdə məskunlaşıb, işləyir və təhsil alırlar.

Eyni zamanda, bugünkü Azərbaycan son 4 ildə yalnız Avropaya 55 milyard kubmetrdən artıq təbii qaz nəql edən və 16 ölkənin enerji təhlükəsizliyinə töhfə verən dövlətdir. Son 30 ildə Azərbaycan iqtisadiyyatına 300 milyard dollardan artıq xarici sərmayənin cəlb edilməsi, eyni zamanda, yalnız son 6 ildə 3 milyondan artıq vətəndaşımızı əhatə edən 5 sosial paketin reallaşması da ondan xəbər verir ki, müasir Azərbaycan, bir tərəfdən, iqtisadi inkişafın dəstəklənməsi, digər tərəfdən isə, sosial təminatın daha da gücləndirilməsi siyasətini davam etdirir.

Bugünkü Azərbaycan cənab Prezidentin rəhbərliyi ilə yalnız regional məsələlərdə deyil, eyni zamanda, bir sıra qlobal məsələlərdə söz sahibi olan dövlətdir. Nəhayət, ən əsası bugünkü Azərbaycan Ümummilli Liderin memarı olduğu dövlətdir.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Nizami Səfərov. Buyurun.

**Nizami Səfərov.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Azərbaycan Respublikası Prezidentinin irəli sürdüyü sülh gündəliyinin əsasında Cənubi

Qafqaz regionunda davamlı sabitliyin və yeni təhlükəsizliyin arxitekturasının formalaşmasında bəzi dövlətlərin yüksək ranqlı rəsmilərinin, siyasi və hüquqi riyakarlıq nümayiş etdirən ayrı-ayrı beynəlxalq qurumların qətiyyən maraqlı olmamaları nümayiş etdirilir.

30 ilə yaxın bir müddətdən sonra Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsinin paraflanmasını, iki dövlət arasında nəqliyyat kommunikasiyalarının açılmasını, sərhədlərin delimitasiya və demarkasiyası üzrə işlərin ardıcıl formada həyata keçirilməsini dəstəkləməkdənsə, anti-Azərbaycan mövqeyi sərgiləyən qüvvələr yalnız nifrət toxumları səpməyə, yenidən vəziyyəti gərginləşdirməyə çalışırlar. 2026-cı il mayın 6-da Fransanın Avropa və xarici işlər naziri Jan Noel Barro parlamentin yuxarı palatası Senatda deputat Etyen Blankın ermənilərin dini və mədəni irsi ilə bağlı sualına cavab verərkən regionumuzda baş vermiş hadisələri tamamilə təhrif olunmuş formada təqdim etmişdir.

İlk növbədə qeyd etmək istərdim ki, siyasi, hüquqi və diplomatik müstəvidə Azərbaycan tərəfi dəfələrlə beynəlxalq birliyə çatdırmışdır ki, ölkə ərazisində “Dağlıq Qarabağ” deyilən bölgə mövcud deyil və Azərbaycanın suveren ərazisi olan Qarabağ iqtisadi rayonunun öncə qeyd etdiyim terminlə təsvir olunması qəbuledilməzdir.

Barro çıxışında guya 2021-ci ildən başlayaraq 40-a yaxın erməni mədəni irsinə aid obyektin itirilməsinə istinad etmişdir. Sual olunur, 30 il davam etmiş işğal dövründə sistematik və irimiqyaslı formada Qarabağda ermənilər tərəfindən törədilən və müharibə cinayətləri kimi tövsif edilən Azərbaycan mədəni irsinin məhv edilməsi, dağıdılması, oğurlanmasına göz yuman Qərb dairələri nəyə görə öz narahatlıqlarını bildirmirdilər?

1954-cü il tarixli "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyası və onun iki Əlavə Protokolu kobud formada pozularaq Qarabağda 400-dən çox abidə məhv edilmiş, 67 məsciddən 63-ü yerlə-yeksan olunmuş və təhqirlərə məruz qalmışdır. 100 min tarixi artefakta malik olan 22 muzey dağıdılmışdır. Hələ bunlar mədəni irsimizə qarşı elan edilən amansız müharibənin qısa bir statistikasıdır.

Digər məsələlərdə olduğu kimi, mədəni irsə aid olan problemlərə münasibətdə yenə də ikili standartlar və selektiv yanaşma müşahidə olunur.

Bir daha xatırlatmaq istərdim ki, Azərbaycan ərazilərində yerləşən bütün tarixi və dini abidələrimiz milli-mədəni irsimizə aiddir və mənşəyindən, dünyəvi və ya dini mənsubiyyətindən asılı olmayaraq, onlar etibarlı formada qorunur və heç bir xarici qüvvə dövlətimizin suveren səlahiyyətlərinə aid olan məsələlərinə müdaxilə edə bilməz.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Nizami müəllim, yaxşı olardı ki, elə Siz bu barədə bir müsahibə, açıqlama verəsiniz və təkcə Azərbaycan dilində deyil. Xarici dilləri bilirsiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xarici mediaya müsahibə verin. Bunlar hər yerdə səslənməlidir. Sağ olun.

Fəzail İbrahimli. Fəzail müəllim, buyurun.

**Fəzail İbrahimli.** Hörmətli Sahibə xanım, əziz həmkarlarım, dəyərli mətbuat nümayəndələri. Mən fikrimi 2 gün bundan əvvəl bütün respublikada qeyd edilən Ulu Öndərin doğum gününün 103 illiyi ilə əlaqədar müstəvidə bölüşmək istərdim.

Böyük Plutarx yazırdı: “Azadlıq bərabərdir xalq üstəgəl şəxsiyyət. Şəxsiyyətsiz azadlıq yoxdur”. Tarix Plutarxın bu fikrini təsdiqləyib.

Türkiyə deyiləndə biz ancaq Mustafa Kamal Atatürkü gözümüzün qabağına gətiririk. Xalqın xilaskarı olub. Amerika Birləşmiş Ştatlarının xilaskarı Corc Vaşinqton. Avropaya gəldikdə, Fransada De Qoll, Almaniyada Bismark, Asiyaya keçdikdə, Hindistanda Qandi və Çində Mao Tszedun bu xalqın azadlığını təmin etmişdir. Azərbaycanda isə bu böyük tarixi missiyanı  Ulu Öndər Heydər Əliyev yerinə yetirib.

Müqayisə edək. Dünyanın böyük dövlətlərinin liderləri, ərazisi kiçik, əhalisi az olan bir Azərbaycan. Demək, buradan çıxan nəticə budur ki, milləti, dövləti dünyada tanıdan  nə onun əhalisinin sayı, nə yeraltı, yerüstü sərvətləri, nə də böyük ərazisi deyil. Milləti tarixin bütün keşməkeşlərindən keçirib özünə, bütövlüyünə, varlığına, müstəqilliyinə qovuşduran şəxslər tarixi şəxsiyyətlərdir. Ulu Öndər məhz belə tarixi şəxsiyyətlərdən olub.

Vaxtın verdiyi imkanlar daxilində bir məqamı da deyim. Qeyd etdiyim kimi, böyük dövlətlərin nə problemi var idi, o daxili problemlərin həlli müstəvisində bütün tarixi şəxsiyyətlərə keçirdi. Türkiyə bölünürdü, Atatürk imkan vermədi. Amma Azərbaycana nəzər salaq. Azərbaycanın geosiyasi vəziyyəti, böyük dövlətlərin Azərbaycana marağı, bu maraqlar altındakı məkrli  niyyətlər və bu niyyətlər qarşısında güclü olmaq, məhz bu tarixi şəxsiyyət Heydər Əliyev oldu. Şimaldan, Cənubdan, Şərqdən, Qərbdən uzanan iti caynaqlar, bu caynaqlar qarşısında dayanmaq, bunun qarşısında dayanan Heydər Əliyev oldu. Sonda o mənhus baxışları  rədd edib, bu gün Azərbaycanı dünyada tanıdan bu saydığım liderlər səviyyəsində məhz Ulu Öndərdir.

**Sədrlik edən.** Sağ olun, Fəzail müəllim.

Şahin İsmayılov. Buyurun.

**Şahin İsmayılov.** Çox sağ olun. Hörmətli xanım sədr, əziz həmkarlar. Mən də Ulu Öndər Heydər Əliyevin 103 illiyi ilə bağlı bir neçə fikrimi səsləndirmək istərdim.

Hörmətli xanım sədr, gənclər və idman siyasəti Ulu Öndər Heydər Əliyevin hər zaman diqqətində olmuşdur. Məhz xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra elə bu zalda Ulu Öndər Heydər Əliyev 1993-cü il sentyabrın 22-də gənclərlə görüşmüş və "Azərbaycanın bugünkü gələcəyi, bütövlükdə, sağlam düşüncəli gənclərdir" deyə fikirlər səsləndirmişdir. Əslində, həmin görüşün böyük əhəmiyyəti vardır. Belə ki, çox çətin bir dövrdə yaşayan Azərbaycan gənclərinin, – müstəqilliyimizin ilk illərindən söhbət gedir, – demək olar ki, faktiki olaraq, sabaha inamı yox idi. Məhz Ulu Öndər Heydər Əliyevin gənclərlə görüşü və onlara verdiyi mesajlar Azərbaycan gəncliyində güclü inam və ən əsası sabaha inam yaratmışdır.

Ulu Öndər Heydər Əliyev 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyini yaratmaqla, bütövlükdə, dövlətin gənclər və idman sahəsində sistemli siyasətinin əsasını qoymuşdur. Bundan sonra 1995-ci il martın 5-də Bakı İdman Sarayında Avropa və dünya çempionatının mükafatçıları ilə görüşən Ulu Öndər Heydər Əliyev elə həmin tarixdə Gənclər Fondunun əsasını qoymuşdur.

Bundan sonrakı dövrlərdə, 1996-cı il fevralın 2-də ilk dəfə keçirilən Gənclər Forumunda, bütövlükdə, bütün gəncləri dinləyən Ulu Öndər Heydər Əliyev ondan 1 il sonra Gənclər Forumunun ildönümündə Azərbaycanda gənclər gününün əsasını qoymuşdur.

Xüsusi qeyd etmək istəyirəm ki, Azərbaycanda gənclər günü BMT-nin təsis etdiyi gündən bir neçə il qabaq yaranmışdır ki, bu da Ulu Öndər Heydər Əliyevin Azərbaycan gənclərinə olan diqqətinin göstəricisi idi. Hər zaman Ulu Öndər Heydər Əliyev gənclərlə, şagirdlərlə görüşür və vətənə inam, güclü Azərbaycanla bağlı fikirlər səsləndirirdi. Məhz bunun nəticəsi idi ki, 44 günlük şanlı müharibəmizdə, Vətən müharibəmizdə Heydər Əliyev məktəbinin yetirməsi olan Azərbaycan gəncliyi müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında dəmir yumruq şəklində birləşdi və Azərbaycan torpaqlarını 30 illik işğaldan azad etdi. Bu gün Azərbaycan gəncliyi və idmançıları Ulu Öndər Heydər Əliyevin xatirəsini hörmətlə anır, ona hörmətlə yanaşır. Çünki Azərbaycan gəncliyi müasirdir, düşüncəlidir, bütün prosesləri yaxşı təhlil edə bilir. Azərbaycan gəncliyi Heydər Əliyevin Azərbaycan tarixindəki misilsiz rolunu, o cümlədən İlham Əliyevin Azərbaycanın gələcəyi ilə bağlı planlarını aydın şəkildə bilir, dərk edir və bu səbəbdən də İlham Əliyevin ətrafında sıx birləşmişdir. Azərbaycan gəncləri, idmançıları hər zaman Heydər Əliyevin xatirəsini yaşadacaq və gələcək nəsillərə ötürəcəklər.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Mahir Süleymanlı. Buyurun.

**Mahir Süleymanlı**. Təşəkkür edirəm. Çox hörmətli xanım sədr, hörmətli həmkarlar və media nümayəndələri. Müasir dövlətçilik tariximizin memarı Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini hər zaman olduğu kimi, bu günlərdə də böyük ehtiram və dərin minnətdarlıq hissi ilə qeyd edirik.

1969-cu ildə Heydər Əliyevin ilk dəfə siyasi hakimiyyətə gəlişi ilə Azərbaycanda genişmiqyaslı inkişaf mərhələsinin əsası qoyulmuşdur.

Sənayenin modernləşdirilməsi, kənd təsərrüfatının inkişafı, milli kadr potensialının formalaşdırılması dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir.

Ümummilli Liderimiz fəaliyyət göstərdiyi bütün dövrlərdə Azərbaycan xalqının milli maraqlarını daim üstün tutmuş, ölkəmizin taleyini müəyyən edən mürəkkəb mərhələlərdə mühüm və uzaqgörən qərarlar qəbul etmişdir. Bu baxımdan onun zəngin siyasi irsi illər keçdikcə yaşayacaq.

1990-cı illərin əvvəllərində ölkəmizin üzləşdiyi ağır sınaqlar və mürəkkəb siyasi proseslər fonunda Azərbaycan xalqı Ulu Öndərimizin xilaskarlıq missiyasının mahiyyətini daha dərindən anladı.

AXC–Müsavat cütlüyünün səriştəsizliyi, özbaşınalığı nəticəsində yaranmış xaos, dərinləşən iqtisadi tənəzzül, vətəndaş qarşıdurması və parçalanma təhlükəsi şəraitində cəmiyyət öz nicat yolunu yenidən Heydər Əliyevin qətiyyətli liderliyində gördü. 1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan Ulu Öndər qısa müddət ərzində ölkədə ictimai-siyasi sabitliyi təmin etdi, dövlətçiliyimizin məhv olmaq təhlükəsinin qarşısını aldı və Azərbaycanın gələcək inkişafı üçün möhkəm təməl formalaşdırdı.

1994-cü ildə “Əsrin müqaviləsi” ölkənin iqtisadi müstəqilliyinin təmin olunmasında mühüm dönüş nöqtəsinə çevrilməklə yanaşı, dövlətimizin beynəlxalq arenadakı mövqeyini və nüfuzunu gücləndirdi.

Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1995-ci il noyabrın 12-si Azərbaycanın dövlətçilik tarixində mühüm dönüş nöqtəsi kimi yadda qaldı və Azərbaycan Respublikasının ilk müstəqil Konstitusiyası ümumxalq səsverməsi ilə qəbul edildi. Eyni zamanda, parlamentə ilk seçkilər keçirildi və I çağırış Milli Məclis fəaliyyətə başladı. Bu tarixi qərarlar

hüquqi, demokratik dövlət quruculuğunun möhkəmlənməsinə mühüm töhfə verdi.

Bu gün böyük bir qürur hissi ilə vurğulayırıq ki, dahi şəxsiyyət Heydər Əliyevin müəyyən etdiyi strateji siyasi kurs möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən çox uğurla davam etdirilir. Ulu Öndərin də dediyi kimi, “vaxt gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq” kəlamı artıq reallığa çevrilmişdir. Bu gün Azərbaycan regionun aparıcı güc mərkəzi və qlobal miqyasda söz sahibi olan nüfuzlu bir dövlətdir. Bu da cənab Prezidentimiz İlham Əliyevin apardığı uğurlu siyasətin nəticəsidir.

Ümummilli Liderimizin xatirəsini ehtiramla yad edir, onun müqəddəs ideyalarına sadiq qalmağı hər birimiz üçün ən ali vəzifə hesab edirik.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Hörmətli sədr, iyunun 7-də Ermənistanda keçiriləcək parlament seçkilərinin Avropa Birliyi və Rusiya arasında geosiyasi rəqabət meydanına çevrilməsi bölgəmiz üçün yeni risklər yaradır.

Təəssüflər olsun ki, aparılan təbliğat kampaniyasının hədəflərindən birini Azərbaycana qarşı “Qarabağ hərəkatı”, separatçılıq şüarları, 44 günlük müharibənin nəticələri, “itirilmiş torpaqlar” narrativi və sülh müqaviləsinin şərtlərinin istismarı təşkil edir.

Bəli, İrəvanda “üçbaşlı müharibə partiyası”na ən azı 3 dövlət dəstək verir. Əlbəttə, Ağrıdağı simvola çevirən və bayraq yandıranların seçkilərdə şansları yoxdur. Lakin Avropa və qonşu ölkələrin siyasi rəhbərliyində “Zəngəzur açılarsa, Gülüstan və Türkmənçay müqaviləsinin üzərindən xətt çəkilir və Azərbaycan bütövləşir” deməlәri səbəbsiz deyil. Əsrlər boyu türk

və azərbaycanlı xofunu ermənilərin şüuraltına yeridən və ərazisində ordu saxlayanlar indi azərbaycanlı və erməni liderlərinin vasitəçisiz danışıqlarını, əməkdaşlığını və Qarabağ məsələsinin gündəlikdən çıxmasını görüb ənənəvi qorxu siyasətini sata bilmədiklərindən qəzəblənirlər. "Qarabağı Azərbaycanın tərkibində kim birinci tanıyıb" mübahisəsi düz 4 ildir ki, gedir. Halbuki qələbəmizin legitimliyinin beynəlxalq səviyyədə qəbulu xarici dövlətlərin xalqımıza lütfü deyil, apardığımız müharibənin hüquqi və ədalətli nəticəsidir.

Paşinyan qarşıdakı seçkilərdə uğur qazanmasa belə, onun alternativlərinin heç biri Zəfərimizə və sülh müqaviləsinə zərbə vura bilməz. Əksinə, yaxın 20 ildə Ermənistanın Azərbaycana bərabər hərbi gücü yarana bilməyəcəyi üçün müharibə partiyasının seçkilərdə qələbəsi erməni hakimiyyət təmsilçilərinin dediyi kimi, İrəvan üçün problemlər yaradacaq. Sülhün əleyhinə olanlar ya Paşinyana, ya da Azərbaycana məğlub olacaqlar. Qarabağ məsələsini gündəliyə qaytaranlar erməni xalqını köləlikdə saxlamaq istəyənlərdir. Soyqırımı dövlət siyasətindən çıxaran, böyük deyil, real Ermənistanda yaşamaq istəyənlər ölkələrinin karta, geosiyasi alətə və silaha çevrilməsinin tarixi nəticələrini ağır şəkildə ödəyiblər.

İlham Əliyevin Qarabağ Zəfəri onu imperiya maraqları üçün istismar edən dövlətlərin Azərbaycan və Ermənistan üzərində qurduqları çoxəsrlik əsarətə də son qoyub. Deməli, biz təkcə torpaqlarımızı deyil, siyasi azadlığımızı da qazanmışıq. Qarabağ Azərbaycanın milli azadlığının tam və bütövləşmiş simvoludur. İndi ölkəmizin ərazisindən Ermənistana neft məhsulları daşınır, xarici yükdaşımaların tranziti bərpa olunur. İqtisadi əlaqələrin başlanması sülh tərəfdarlarının mövqeyini gücləndirir və

Qarabağ üzərindən xarici təzyiqlərə də son qoyur. Ona görə də Bakıdan çox, İrəvanın düşmənlərinin namizədləri 1990-cı illərdəki babalarının aqibətindən dərs çıxarsınlar. Düşmənçiliyin ideoloqu Zori Balayana 91 illik ömür mükafatdan çox cəza kimi verildi. O, Azərbaycanın qələbəsini və öz ideologiyasının iflasını gördü, erməni xalqının soyuq biganəliyi şəraitində dünyadan köçdü.

İndi Cənubi Qafqazda yalnız bir qüvvə – İlham Əliyevin sülh partiyası bütün xalqların...

**Sədrlik edən.** Fikrinizi bitirin.

**Zahid Oruc.** Çox təşəkkür edirəm, hörmətli sədr. İndi Cənubi Qafqazda yalnız bir qüvvə – İlham Əliyevin sülh partiyası bütün xalqların rifahına, təhlükəsizliyinə zəmanət verdiyi üçün regionun gələcəyini Azərbaycan müəyyən edəcək.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Bu gün Azərbaycanda və onun hüdudlarından kənarda böyük dövlət xadimi Ulu Öndər Heydər Əliyevin xatirəsini anırıq və bu anım günlərində biz özümüzə bir növ milli hesabat verərkən gözümüzün qarşısına Ulu Öndərin yaratdığı böyük miras gəlir. Bu miras, əlbəttə ki, siyasi, ideoloji, iqtisadi mirasdır, amma həm də mənəvi mirasdır. Əgər biz bu komponentləri cəmləsək görəcəyik ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına böyük bir dövlətçilik mirası yadigar qoyub gedibdir. Sevindirici haldır ki, bu mirasa həm Azərbaycan xalqı sahib çıxır, həm də Azərbaycan hakimiyyəti sahib çıxır. Beləliklə, Ulu Öndərin bizə əmanət etdiyi dövlət daha da

güclənir, daha da qüdrətlənir və regionda hər gün bir qədər daha çox söz sahibinə çevrilir.

Əlbəttə, dövlətçilik irsinin mənəvi komponentləri, şübhəsiz ki, daha əhəmiyyətlidir. Çünki ictimai birliyi, milli həmrəyliyi təyin edir və cəmiyyətin, dövlətin və millətin həmrəyliyi üçün bir növ sosial sement funksiyasını yerinə yetirir.

Hələ Azərbaycan xalqının böyük oğlu Mirzə Ələkbər Sabir yazırdı ki, “Babam sünni, nənəm şiə, dürək mən. Nə farsam mən, nə hindəm mən, türək mən. Muğanda müğbeçə, məsciddə Əkbər, Təfavütü yox, həqiqətdə zirək mən”. Əgər biz diqqət etsək görəcəyik, böyük Sabirin yazdığı bu alt komponentlər, mənəvi komponentlər, dini komponentlər həm də Ulu Öndərin yaratdığı azərbaycançılıq ideologiyasının əsas komponentləridir.

Hörmətli xanım sədr, bu günlərdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə biz Naxçıvanda bir səfərdə olduq. Naxçıvanda Ulu Öndərin xatirəsinə həsr olunmuş böyük bir konfrans keçirildi. Gürcüstan, Türkiyə və Azərbaycan möminlərinin məzhəbindən, dinə münasibətindən asılı olmayaraq nümayəndələri iştirak etdilər. Biz özümüzü Ulu Öndərdən bizə miras qalan o mənəvi komponentlərlə silahlandıraraq Naxçıvanda tikilmiş möhtəşəm Heydər məscidində üç ölkədən gələn bütün məzhəblərdən olan möminlərimizin iştirakı ilə orada namaz qıldıq və Ulu Öndərin əziz xatirəsini yad etdik. Düşünürəm ki, bu həmrəylik, – Mirzə Ələkbər Sabirin 4 misrasında gizlənən bizim dini, mənəvi kodlarımız ki onların artıq 5 min ildən artıq yaşı var, – bir daha Ulu Öndərin adına olan məsciddə təcəlli etdi və milli birliyimizi, milli gücümüzü daha da artırdı. Sabirin də dediyi kimi, həqiqət və ədalət varsa, orada güc var. Bu, elə bir

universal modeldir ki, hamı bunu qəbul edir. Necə ki, Azərbaycan Prezidenti məhz bu modeli müharibədə də təqdim...

**Sədrlik edən.** Çox sağ olun, Hikmət müəllim.

Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Çox sağ olun. Hörmətli sədr, əziz həmkarlar. XIII Ümumdünya Şəhərsalma Forumuna sayılı günlər qaldığı bir məqamda biz istər COP29 ərəfəsində, istərsə də ölkəmizin Qoşulmama Hərəkatına rəhbərliyi dönəmində müşahidə olunmuş anti-Azərbaycan ssenariyə təkrar şahidlik etməkdəyik. Eyni mənfur metodlar, eyni siyasi təlxəklər və eyni qurbanlar. Təəccüblənmirik, çünki nə vaxt ki, Azərbaycan qlobal uğura imza atır, nə vaxt ki, Bakı dünyanın siyasi, humanitar mərkəzinə çevrilir, irqçiliyin mərkəzi olan Fransanın, Azərbaycanafobiyanın poliqonu olan Avropa Parlamenti və AŞPA-nın timsalında eyni "qara mərkəzlər" hərəkətə keçir.

İndi də eyni qaydada "siyasi məhbus" və "hərbi əsir" şousu yenidən vizyona qoşulub. Bilirsiniz, bu, sadəcə, hüquqi nihilizm deyil, bu, Azərbaycanın suverenliyinə, artan nüfuzuna qarşı siyasi müharibə və birbaşa diversiyadır. Məqsədi insanların rifahı olan bir qlobal tədbiri dinc şəhərləri bombalayan, uzunmüddətli urbisid törədən, tarixi abidələrə qarşı XXI əsrin ən böyük vandalizmini həyata keçirən terrorçular üçün müdafiə platformasına çevirmək cəhdləri hansı hüquqi, siyasi əxlaqa sığır? Yaxud terrora çağırış edən, milli maraqlar əleyhinə xarici kəşfiyyatla əməkdaşlıq edən, qanunsuz yollarla ölkəyə vəsait sızdırıb sabitliyi pozmaq istəyən bir ünsür necə siyasi məhbus adlandırıla bilər?

Azərbaycan hüquqi dövlətdir və hər kəsin cinayət təqibi zamanı prosessual hüquqlarına tam təminat verilib. Yaxşı, bunlar başqa hansı

hüququ arzu edirlər? Hansısa ünsürün AXCP üzvü olması, yaxud jurnalist vəsiqəsi daşıması onu sıradan bir azərbaycanlıdan daha üstünmü edir? Əsla. Cinayət törədən şəxs bu ölkədə "siyasi fəal" libasına bürünüb məsuliyyətdən qaçacağını düşünürsə, yanılır.

Bizim üçün o qondarma "hərbi əsir", yaxud "siyasi məhbus" siyahıları hüquqi sənəd deyil, sadəcə, xəyanət şəbəkəsinin "inventar"siyahısıdır.

Hər kəs əmin olsun ki, Azərbaycanda cinayətkarları qəhrəmanlaşdırmaqla hüquqi məsələlərin siyasiləşdirilməsinə imkan verilməyəcək və heç bir beynəlxalq cəhd Azərbaycanda qanunun və milli iradənin qarşısında dayana bilməz. Bu mənada BMT-nin ikinci ən böyük qlobal platforması olan Ümumdünya Şəhərsalma Forumunun ucuz niyyətlərə alət edilməsinə imkan verilməyəcək. Əksinə, XIII forum ən məhsuldar tədbir kimi yadda qalacaq.

Cənab İlham Əliyevin yalnız yaxın 3 günlük iş qrafikinə baxsaq, Zəngilan və Şükürbəylidə sakinlərə 30 illik həsrətdən sonra mənzillərin açarlarının təqdim olunmasından dünyanın 40-dan çox ölkəsindən daha böyük bir coğrafiyada – Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən quruculuq və bərpanın gedişinə qədər titanik fəaliyyətini təhlil etsək, bir daha əminliklə deyə bilərik ki, bizim 178 ölkədən 30 mindən çox insanın qarşısında danışacaq sözümüz, qlobal töhfəyə çevrilə biləcək önəmli mövzularımız var.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Sonuncu çıxış. Rizvan Nəbiyev. Buyurun.

**Rizvan Nəbiyev.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Prezident İlham Əliyevin Zəngilan çıxışı Azərbaycanın formalaşdırdığı yeni geosiyasi

reallıqların və xarici siyasət kursunun, ümumilikdə, Ulu Öndər Heydər Əliyevin idarəçilik dönəmindən başlanan dövlətçilik mübarizəmizin strateji manifesti kimi də qiymətləndirilə bilər. Prezidentin verdiyi mesajlar məkan və zaman nöqteyi-nəzərindən olduqca əhəmiyyətlidir.

Zəngilan işğaldan azad edilmiş Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşir. Deməli, Zəngəzurun qərbi hissəsi də var və bu məkanın 1920-ci il noyabrın 30-da Ermənistana verilməsi tarixi faktdır. Başqa sözlə, erməni məsələsindən müxtəlif güclərin Azərbaycana qarşı təzyiq aləti kimi istifadə etməsinin uzun tarixi var.

İkincisi, 7 iyun parlament seçkilərinə sayılı günlər qaldığından Prezidentin Zəngilandan verdiyi mesajlar xarici qüvvələrlə yanaşı, Ermənistanın bütün siyasi dairələrinə, əələlxüsus revanşistlərə xəbərdarlıqdır. Çünki faşist Qarabağ hərəkatı tərəfdarlarının regionda təhlükəsizliyin pozulması üçün yenidən kimlərinsə siyasətində vasitəyə çevrilmək təhlükəsi qalır.

Prezidentin mesajı dövlətimizin real hərbi gücündən, praqmatik siyasətindən qaynaqlanır və birmənalıdır. “Biz istəsəydik, istənilən hərbi əməliyyatı istənilən yerdə keçirə bilərdik. Bunu Ermənistan rəhbərliyi də bilir, onun arxasında duranlar da bilirlər. Biz istəməsəydik, sülh olmayacaqdı”.

Sülhü əldə etməyin Azərbaycan formulası Prezidentin strateji baxışları əsasında belə formalaşdırıldı – Azərbaycan beynəlxalq hüquq əsasında ona məxsus olanı əldə etdi, dayandı və Prezident İlham Əliyev sülh və münasibətlərin normallaşdırılması təşəbbüsü ilə çıxış etdi.

Azərbaycan regionda sabitləşdirici rol ilə çıxış edir, təhdidləri neytrallaşdıran sülh gündəliyi təklif edir. Yeni status-kvo üzərindən təklif

edilən əməkdaşlıq çoxsaylı tərəfdaş dövlətlər tərəfindən dəyərləndirilir. Təkcə bu ilin 4 ayında Prezidentlə dialoq üçün Azərbaycana edilən çoxsaylı yüksək səviyyəli səfərlər bunu sübut edir.

Amma Afrika və Yaxın Şərqdə təsir imkanlarını itirən Fransa, daxildə ciddi nüfuz itkisi ilə üzləşən rəhbərliyi yeni geosiyasi aktivlik zonaları axtarışındadır. Ermənistan hökuməti isə ölkənin uzun müddət oynadığı forpost funksiyasını indi də Fransanın neokolonializm platforması ilə əvəzləmək siyasəti yürüdür. Paris Ermənistanı müxtəlif güc mərkəzləri arasında qarşıdurmanın ön xəttinə yaxınlaşdırır.

Taleyüklü səhvlərə yola aça biləcək bu siyasətə Ermənistan parlamentinin sədri Simonyanın "Deutsche Welle"yə verdiyi müsahibədə yer alan məqamlarla cavab vermək olar. Simonyanın "7 iyunda seçim sülh və müharibə, amorf Ermənistan və real Ermənistan arasında olacaq" fikirləri Ermənistanın yeni geosiyasi kursunun ziddiyyətli mahiyyətini aydın göstərir. O, etiraf edir ki, Ermənistan uzun illər dövlət strategiyasını keçmişin mifoloji narrativləri üzərində qurub və səhvlərə yol verib. O, etiraf edir ki, Ermənistan xəritədən silinə, quberniyaya çevrilə bilər. Amma gec deyil, hələ ki, şans var. Tarixdən dərs çıxarmaq, himayəçi axtarışını dayandırmaq və Azərbaycanın təklif etdiyi reallığa uyğun siyasət yürütmək lazımdır.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, mən hamıya təşəkkür edirəm. Gündəliyin məsələlərinə keçirik. Bizim 1-ci məsələmiz İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun 2025-ci ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatıdır. Məsələ ilə əlaqədar

Azərbaycan Respublikası daxili işlər nazirinin birinci müavini hörmətli Seyfulla müəllim Əzimov və daxili işlər nazirinin müavini hörmətli Fazil müəllim Quliyev bizim iclasımızda iştirak edirlər. Mən qonaqlarımıza bir daha "xoş gəlmisiniz" deyirəm. İllik məlumatı təqdim etmək üçün daxili işlər nazirinin birinci müavini Seyfulla Əzimova söz verirəm. Seyfulla müəllim, buyurun kürsüyə.

**Seyfulla Əzimov,** *Azərbaycan Respublikası daxili işlər nazirinin birinci müavini.*

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Beynəlxalq təşkilatların təqdim etdiyi hesabatlar və onlardan irəli gələn təmayüllər onu deməyə əsas verir ki, insan alveri təkcə hüquq mühafizə problemi deyil, eyni zamanda, insan hüquqlarının müdafiəsi sahəsində ciddi sınaq, informasiya təhlükəsizliyi çağırışı və miqrasiya proseslərinin tərkib hissəsidir.

Məhz belə bir şəraitdə Azərbaycan Respublikası tərəfindən həyata keçirilən siyasət qabaqlayıcı, sistemli və çoxsəviyyəli yanaşmaya əsaslanmaqla qlobal trendlər davamlı surətdə izlənilmiş, risklər təhlil edilmiş, cinayətkar şəbəkələrin fəaliyyət istiqamətləri öyrənilmiş, qabaqlayıcı tədbirlər məqsədyönlü və sistemli şəkildə davam etdirilmişdir.

İnsan alverinə qarşı mübarizədə fəaliyyətin effektivliyinin əsas şərtlərindən birinin güclü hüquqi və institusional bazanın olması baxımından hesabat ilində hüquqi mexanizmlərin təkmilləşdirilməsi daim diqqətdə saxlanılmışdır.

Bu istiqamətdə tədbirlər çərçivəsində 1 qanunda, Azərbaycan Respublikası Prezidentinin 3 fərmanında və Nazirlər Kabinetinin 3 qərarında müvafiq dəyişikliklər edilmişdir. Eyni zamanda, gələcək dövr üçün strateji planlaşdırma diqqətdə saxlanılmış və müvafiq dövlət

qurumlarının təklifləri nəzərə alınmaqla hazırlanmış 2026–2030-cu illər üçün Milli Fəaliyyət Planı 34 dövlət qurumu ilə razılaşdırılaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Həmin konseptual sənəddə preventiv tədbirlərin genişləndirilməsi, qurbanların müdafiəsinin gücləndirilməsi, cinayət təqibinin effektivliyinin artırılması, dövlət qurumları arasında koordinasiyanın dərinləşdirilməsi əsas prioritet istiqamətlər kimi müəyyən edilmişdir.

Maarifləndirmə və preventiv fəaliyyət də başlıca vəzifələrdən olaraq bu istiqamətdə görülən işlər kompleks xarakter daşımış, coğrafi əhatə baxımından genişləndirilmiş, hədəf qrupları üzrə diferensial yanaşma tətbiq edilmişdir. Müvafiq tədbirlərin icrası çərçivəsində Baş Prokurorluq, Daxili İşlər, Ədliyyə, Səhiyyə, Mədəniyyət, Əmək və Əhalinin Sosial Müdafiəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat, Elm və Təhsil nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dövlət Miqrasiya Xidməti, Ombudsman Aparatı, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Dövlət Reklam, Dövlət Turizm, Medianın İnkişafı və Dövlət Məşğulluq agentlikləri, TƏBİB tərəfindən böyük iş həcmi yerinə yetirilmişdir.

Belə ki, adları çəkilən qurumlar maarifləndirmə, ölkəyə turist kimi gələn şəxslərin qanuni mənafelərinin qorunması, medianın monitorinqi, erkən nikahların qarşısının alınması, baxımsız qalan, təhsildən yayınan, övladlığa götürülmüş, qəyyumluğa, yaxud himayəyə verilmiş uşaqların ailələrinə nəzarət, dövlət uşaq müəssisələrinin məzunlarına sosial-hüquqi və sosial-psixoloji xidmətlərin göstərilməsi, treninqlərin və təlimlərin keçirilməsi və sair işlərin icrasını təmin etmişlər.

Xarici ölkələrə əmək fəaliyyəti məqsədi ilə getmək istəyən şəxslərin, ölkəyə gələn və ölkənin ərazisindən tranzit istifadə edən əcnəbilərin məlumatlandırılmasını, insan alverinin risklərini, təhlükəsiz miqrasiya qaydalarını, hüquqi müdafiə mexanizmləri barədə məlumatları əhatə edən 3400 maarifləndirici material hazırlanaraq aidiyyəti qurumlara göndərilmişdir.

İnsan alveri, məcburi əmək, hüquqi məsuliyyət, şəxsi təhlükəsizlik mövzularında 71 orta ixtisas təhsili müəssisəsində seminarlar təşkil edilmiş və bu tədbirlərin əsas məqsədi gənclərdə riskləri tanımaq və onlardan yayınmaq bacarığı formalaşdırmaq olmuşdur.

Ümumən, maarifləndirmə fəaliyyətinin effektivliyi onun çoxsektorlu xarakter daşımasından irəli gəlməklə həmin tədbirlərə hüquq mühafizə orqanlarının, medianın, qeyri-hökumət təşkilatlarının, yerli icra hakimiyyətlərinin, təhsil, səhiyyə, məşğulluq strukturlarının nümayəndələri və sahibkarlar cəlb edilmişdir. Keçirilmiş 61 maarifləndirici görüşdə isə 2500-dən çox vətəndaş birbaşa məlumatlandırılmışdır.

Müvafiq fəaliyyət insan alveri risklərinin azaldılmasına xidmət etməklə, əsasən, insan hüquqları, gender bərabərliyi, erkən nikah, məişət zorakılığı mövzularını əhatə etmiş, “ASAN xidmət” mərkəzləri tərəfindən 10 inzibati ərazidə 17 tədbir, Gənclər və İdman Nazirliyi tərəfindən 16 təlim və seminar təşkil edilmişdir. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin hazırladığı maarifləndirici videoçarxlar il boyu Bakı Beynəlxalq Avtovağzal Kompleksində yayımlanmış, Dövlət Turizm Agentliyi və Səhiyyə Nazirliyi tərəfindən isə 14000 müvafiq vəsait paylanılmışdır.

Bundan əlavə, 16 poster yayımlanmış, 14 videoçarx, 3 uğur hekayəsi, 1 press-reliz hazırlanmış, əhali arasında 1500 flayer paylanılmış, DOST TV platformasında 13-dən çox ekspert çıxışı təşkil edilmişdir.

Görülən işlərdə medianın rolu da əhəmiyyətli olmaqla ölkənin aparıcı televiziya kanallarının 12 proqramı çərçivəsində insan alveri mövzusu işıqlandırılmış, 56 media subyektində 184 material dərc edilmiş, 67 məktəbdə inklüziv siniflər yaradılmış və bu yanaşma sosial risklərin azaldılmasına yönəlmiş preventiv mexanizm kimi çıxış etmişdir. Analoji iş müasir dövrün tələblərinə uyğun rəqəmsal platformalarda da aparılmışdır.

Hesabat ilində təhsildən yayınma halları üzrə monitorinqlər də aparılaraq risk qrupları üzrə siyahılar və metodiki təlimatlar hazırlanmışdır.

Hörmətli millət vəkilləri, məktəblərdə sosial risklərin erkən aşkarlanması, fərdi sosial-psixoloji dəstəyin göstərilməsi, ailələrlə işin sistemləşdirilməsi və uşaqların təhsil mühitində saxlanılması baxımından mühüm institusional potensial olan 1342 sosial pedaqoq işə qəbul edilərək ölkə üzrə 1020 ümumi təhsil müəssisəsinə təhkim olunmuşdur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Azərbaycan vətəndaşlarının övladlığa götürdüyü uşaqların həyat şəraiti ilə bağlı 1183, əcnəbilərin övladlığa götürdüyü azərbaycanlı uşaqların həyat şəraitinin öyrənilməsi üçün 26, himayədar ailələrə verilmiş uşaqların ailədəki sosial-psixoloji vəziyyətinin yoxlanılması məqsədi ilə 516 monitorinq aparılmış və hər hansı neqativ hal aşkar edilməmişdir.

Digər tərəfdən, 21 sosial xidmət müəssisəsi vasitəsi ilə həssas əhali qruplarından olan 3 mindən çox şəxsə xidmət göstərilmiş, əlilliyi olan 2 mindən  artıq şəxsə birdəfəlik maddi yardım verilmiş, həssas təbəqədən olan ailələrə 400 mənzil təqdim olunmuşdur. Sosial sifarişlər çərçivəsində

uşaqlar üçün 30 günərzi qayğı mərkəzi yaradılmış, “Təhsildə sosial iş” layihəsi çərçivəsində 1140 ümumi təhsil müəssisəsində ilkin və təkrar monitorinqlər aparılmışdır.

Uşaqlar arasında risk faktorlarının aşkarlanması məqsədi ilə onlardan 1392 nəfəri böhran vəziyyətinin qiymətləndirilməsinə cəlb edilmişdir. Şəxsiyyət vəsiqəsi olmayan uşaqların sənədləşdirilməsi və doğum qeydiyyatının təmin olunması istiqamətində kompleks profilaktik və hüquqi tədbirlər də davam etdirilərək 9 uşağın doğum faktının müəyyən edilməsi təmin olunmuşdur. Məhkəmə qərarları əsasında onlara doğum haqqında şəhadətnamələr verilərək müvafiq məlumatlar Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinə daxil edilmiş və hər bir uşaq fərdi identifikasiya nömrəsi ilə təmin olunmuşdur.

Hesabat dövründə insan alverinə qarşı mübarizə sahəsində həyata keçirilmiş təlim-tədris proqramları və ixtisasartırma tədbirləri də sistemli xarakter daşımaqla hüquq mühafizə, miqrasiya, ədliyyə, səhiyyə, turizm, diplomatik xidmət və digər sahələri əhatə etmiş, ümumilikdə, 2000-dən artıq iştirakçının peşə hazırlığının artırılmasına yönəlmişdir.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasında 100-dən çox kursant, 20 şəhər və rayon polis orqanının rəhbər vəzifəli şəxsləri, həmçinin 84 polis orqanının 1800-ə yaxın əməkdaşı insan alveri və məcburi əmək cinayətləri, onların transmilli mütəşəkkil cinayətkarlıqla əlaqəsi, bu cinayətlərin digər hüquq pozuntularından fərqləndirilməsi və qurbanların müəyyən edilməsi mövzularında ixtisaslaşdırılmış təlimlərə cəlb olunmuşdur.

Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən “Miqrasiya məktəbi-7” layihəsi çərçivəsində 38 nəfərə insan alveri riskinin müəyyən

edilməsi və miqrasiya proseslərində profilaktik yanaşmalar üzrə təlim keçirilmişdir.

Səhiyyə sektorunda isə 200-dən artıq tibbi və qeyri-tibbi heyət, 612 terapevt, 10 həkim-psixiatr və psixoloqlar üçün insan alveri qurbanlarının aşkarlanması, psixososial dəstək və müdafiə mexanizmləri üzrə təlimlər təşkil olunmuş, habelə TƏBİB-in və Daxili İşlər Nazirliyinin təşəbbüsü ilə 3 iri tibb müəssisəsində sahəvi təlimlər baş tutmuşdur.

Ədliyyə Akademiyası tərəfindən keçirilən ixtisasartırma kurslarında 303 nəfər iştirak etmiş, Baş Prokurorluğun Elm-Tədris Mərkəzində qulluğa yeni qəbul olunmuş 107 əməkdaş, habelə namizədlər üçün insan hüquqlarının müdafiəsi və insan alveri cinayətlərinin ictimai təhlükəliliyi mövzularında icbari hazırlıq kursu təşkil edilmişdir.

Həmçinin turizm sahəsində aidiyyəti dövlət qurumunun 50-dən çox təmsilçisi insan alverinə qarşı mübarizə, preventiv tədbirlər və beynəlxalq əməkdaşlıq mexanizmləri üzrə maarifləndirici təlimlərə cəlb olunmuşdur. Bu mövzuda təlimlərdə Qeyri-Hökumət Təşkilatları Koalisiyasının 19 və peşə təhsili müəssisələrinin 200-ə yaxın nümayəndəsi də iştirak etmişdir.

İnsan Alverinə Qarşı Mübarizə üzrə Qeyri-Hökumət Təşkilatları Koalisiyasının üzvü olan “Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyi isə müvafiq sahədə fəaliyyətin daha səmərəli təşkilinə, bilik və bacarıqların artırılmasına xidmət edən bir sıra metodiki vəsaitlər hazırlamışdır ki, bu sırada “İnsan alverinə qarşı mübarizədə rəqəmsal monitorinq üçün təlimat”, “İnsan alverinə qarşı mübarizə üzrə milli təlim modulu” və “İnsan alveri ilə mübarizədə monitorinq meyarları” mövzularında nəşrlər xüsusi vurğulanmalıdır. İnsan alverinə qarşı mübarizədə görülmüş işlərin ictimaiyyətə çatdırılması da qarşıda duran vəzifələrdən olmaqla müvafiq

fəaliyyətə dair 31 məlumat İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin internet səhifəsinə yerləşdirilmişdir.

Təbliğat işində, o cümlədən insan alverinin potensial qurbanlarının maarifləndirilməsində, sosial reabilitasiyasında, onlara hüquqi yardımın göstərilməsində, qurbanlar üçün xüsusi müəssisələrin fəaliyyətinin təşkilində qeyri-hökumət təşkilatlarının təqdim etdikləri və ümumi dəyəri 159 min manat olan 10 layihə maliyyələşdirilmiş, insan alveri cinayətlərinin qurbanı olmuş şəxslərin sosial reabilitasiyasına, sığınacaqda saxlanılmasına və onlara birdəfəlik müavinətlərin verilməsinə isə 70 min 487 manat vəsait ayrılmışdır.

İnsan alverinə qarşı mübarizədə hüquqi və institusional mexanizmlərin təkmilləşdirilməsi, rəqəmsal platformalar üzərindən törədilən cinayətlərin qarşısının alınması, məlumat mübadiləsinin gücləndirilməsi, regional və qlobal təşəbbüslərdə iştirak, eləcə də ölkəmizin mövqeyinin beynəlxalq təşkilatların hesabatlarında və beynəlxalq reytinqlərdə öncül sıralarda qərarlaşması da daim diqqətdə saxlanılmışdır. Belə ki, ixtisaslaşmış beynəlxalq qurumların və xarici ölkələrin Azərbaycandakı səfirliklərinin nümayəndələri ilə informasiya və təcrübə mübadiləsi aparılmış, insan alverinə qarşı mübarizədə dövlətin ortaya qoyduğu siyasi iradə, bu sahədə əldə edilən tərəqqi və inkişaf tərəfdaşlara çatdırılmış, habelə keçirilən görüşlər zamanı əməkdaşlığın perspektivləri müzakirə olunmuşdur.

Digər ölkələrin insan alverinə qarşı mübarizədə mütərəqqi təcrübəsi də öyrənilərək qanunvericilik, cinayət təqibi, qurbanların müdafiəsi və reabilitasiyası sahələri üzrə fəaliyyətdə nəzərə alınmışdır.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İnsan Resursları və Əmirlikləşmə

Nazirliyi arasında İnsan alveri hallarının qarşısını almaq məqsədi ilə özəl işədüzəltmə şirkətlərinin fəaliyyətinə nəzarət edilməsi ilə bağlı tərəflərin səylərinin gücləndirilməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır.

Amerika Birləşmiş Ştatlarının Dövlət, Ədliyyə və Əmək departamentlərinin, Avropa Şurasının İnsan alverinə qarşı mübarizə üzrə Ekspertlər Qrupunun – GRETA, “Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında” Avropa Şurası Konvensiyası Katibliyinin ölkəmizlə bağlı hesabatlarına əsaslandırılmış şərhlər verilmiş, sorğuları cavablandırılmışdır.

Xüsusi polis qurumunun əməkdaşları müxtəlif xarici təşkilatların həyata keçirdikləri layihələr çərçivəsində Fransa, İspaniya, Malta, Macarıstan, Avstriya, Moldova respublikalarına ezam olunaraq təcrübə mübadiləsi aparmışlar.

Hörmətli millət vəkilləri, Beynəlxalq Əmək, Beynəlxalq Miqrasiya və “Walk Free” təşkilatlarının birgə hazırladığı Modern köləliyin qlobal qiymətləndirilməsinə dair 2022-ci ilin son hesabatında müasir köləlik vəziyyətində yaşayan təxminən 50 milyon insandan 27,6 milyonunun məcburi əməyə cəlb olunduğu və son illərlə müqayisədə məcburi əməyin miqyasının əhəmiyyətli dərəcədə artaraq qurbanlarının sayının 10 milyon nəfərə yüksəldiyi vurğulanmışdır.

Bu baxımdan ötən il imzalanmış və məcburi əməyin qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edən “Azərbaycan Respublikası ilə Beynəlxalq Əmək Təşkilatı arasında 2025–2029-cu illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı”nın əsas məqsədi ölkədə məşğulluq imkanlarının

genişləndirilməsi, əmək münasibətlərinin təkmilləşdirilməsi və sosial müdafiə sisteminin gücləndirilməsi olmuşdur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyi tərəfindən 189 min nəfərin işlə təmin olunması, işsiz kimi qeydiyyata alınmış 10800 şəxsə sığorta ödənişinin təyin edilməsi, 6964 nəfərin haqqı ödənilən ictimai işlərə, 1763 nəfərin əməkhaqqının birgə maliyyələşdirilməsi proqramına, 16827 nəfərin özünüməşğulluq proqramına cəlb edilməsi və digər tədbirlər şəxslərin məcburi əməyin qurbanına çevrilmə riskinin profilaktikasında əhəmiyyətliyini təsdiqləmişdir. İşaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə 18368 nəfər Dövlət Məşğulluq Agentliyi tərəfindən əmək bazarının tələblərinə cavab verən peşə və ixtisaslar üzrə hazırlıq kurslarına cəlb olunmuşdur.

Müvafiq sahədə hüquq pozuntularının qarşısının alınması üçün Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi tərəfindən tikinti obyektlərində keçirilmiş 39 səyyar yoxlama zamanı 1047 işçidən 75-nin əmək münasibətlərinin müəyyən edilmiş qaydada rəsmiləşdirilmədən fəaliyyətə cəlb olunduğu aşkarlanmışdır. Nəticədə bir işəgötürən fiziki şəxs barəsində toplanmış materiallar Baş Prokurorluğa göndərilmiş, daha 18-i haqqında, ümumilikdə, 92200 manat məbləğində inzibati cərimə tətbiq edilmişdir.

Dövlət Əmək Müfəttişliyi Xidməti aidiyyəti qurumlardan daxil olmuş materialların araşdırılması zamanı işəgötürən tərəfindən 15 yaşına çatmamış şəxsin işə cəlb edilməsi ilə bağlı 6 fakt aşkarlayaraq aidiyyəti vəzifəli şəxslərə 6000 manat, həmçinin uşaqların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb edilməsi ilə

əlaqədar 1 fakta görə 3300 manat məbləğində inzibati cərimə tətbiq etmişdir.

Bundan əlavə, ixtisaslaşmış xüsusi polis qurumu tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 1 məcburi əmək faktı müəyyən edilərək cinayət işi başlanılmış və aparılmış prosessual araşdırmalarla zərərçəkmiş şəxsin Monteneqroda tikinti sektorunda istismara məruz qaldığı məlum olmuşdur.

Uşaq əməyinin istismarının qarşısının alınması üzrə həyata keçirilən reydlər zamanı isə ailə mühitindən, pedaqoji və ictimai təsir vasitələrindən kənarda qalan 936 uşaq və buna şərait yaradan 511 valideyn aşkarlanaraq yerli icra hakimiyyətləri yanında komissiyalara, qəyyumluq və himayə orqanlarına 510 material göndərilmiş, 32 valideyn inzibati məsuliyyətə cəlb edilərək polis nəzarətinə götürülmüşdür. Həmin tədbirlər zamanı uşaqların kənar şəxslər tərəfindən dilənçiliyə cəlb edilməsi faktı müəyyən edilməmişdir.

Hörmətli millət vəkilləri, insan alveri cinayətlərinin aşkarlanması və təqsirkar şəxslərin məsuliyyətə cəlb olunması sahəsində keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə 198, o cümlədən 152 insan alveri, həmçinin insan alveri məqsədi ilə sənədlərlə qanunsuz hərəkətlərə görə 45 cinayət müəyyən edilmişdir.

İnsan alveri cinayətlərinin 97 faizi açılmış, 6 şəxs ətrafında keçirilmiş əməliyyat tədbirləri ilə 2 cinayətkar qrup zərərsizləşdirilmişdir. Həmin hüquqazidd əməllərlə əlaqədar 10 cinayət işi başlanılmış, 8 cinayət işi üzrə 10 şəxs təqsirləndirilən qismində cəlb olunmuş, 12 nəfər məhkəmə məsuliyyətinə verilmişdir.

Məhkəmələr tərəfindən 14 insan alverçisi azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir. İnsan alveri, seksual xarakterli hərəkətlərə məcbur etmə, uşaq pornoqrafiyasının dövriyyəsi, pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma, fahişəliyə cəlb etmə və əxlaqsızlıq yuvaları saxlamaya görə yerli axtarışda olan 31 təqsirləndirilən şəxsdən 15-i, o cümlədən 3 insan alverçisi tutulmuşdur. Hazırda insan alveri cinayəti törətməkdə təqsirləndirilən 10 şəxsin İnterpol kanalları ilə beynəlxalq axtarışı davam etdirilir.

Hesabat ilində müəyyən edilmiş 46 insan alveri qurbanının hamısı Azərbaycan Respublikasının vətəndaşı olmaqla 33-ü Türkiyə Respublikasında, 10-u Birləşmiş Ərəb Əmirliklərində, 3-ü Pakistan İslam Respublikasında cinsi istismara məruz qalmışdır. Qurbanlardan 4-ü 18–25 yaş arası, 28-i 25–35 yaş arası, 14-ü 35 yaşdan yuxarı yaş həddində olmuşdur. Zərərçəkmişlərin reabilitasiyası və reinteqrasiyası üçün zəruri tədbirlərin görülməsi də diqqətdə saxlanılmış, hər birinə 700 manat məbləğində birdəfəlik müavinət ödənilmişdir.

Onların hamısı Daxili İşlər Nazirliyinin müvafiq sığınacağına yerləşdirilərək tibbi, sosial, psixoloji, hüquqi yardımlarla və zəruri geyimlə təmin olunmuşdur. Daha 16 qurban peşə kurslarına yönəldilmiş, 9 qurbanın işlə, 6-nın şəxsiyyət vəsiqəsi ilə təmin edilməsində, 1 qurbanın tibb müəssisəsində müalicə, 11 qurbanın ünvanlı sosial yardım almasında və 23 qurbanın ailələrinə qayıtmasında köməklik edilmişdir. Qeyri-hökumət təşkilatlarına istiqamətləndirilmiş 45 insan alveri qurbanından 12 nəfərinə “Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin, 8-nə “Təmas” Regional İnkişaf İctimai Birliyinin sığınacaqlarında, 8-nə “Ailə Dünyası” Ailələrə Hüquqi Yardım İctimai Birliyində, 10-na “XXI Əsrin Qadınları” İctimai

Birliyində, 7-nə “Qadın Təşəbbüsü və Sosial Problemlərin Həllinə Yardım” İctimai Birliyində lazımi sosial xidmətlər göstərilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İnsan Alveri Qurbanlarına Yardım Mərkəzinə istiqamətləndirilmiş 41 qurbandan 22-si psixoloji, 5-i hüquqi yardım almış, 2 nəfər işlə təmin olunması və 5 nəfər peşə kursuna cəlb edilməsi üçün Dövlət Məşğulluq Agentliyinə yönləndirilmişdir. Qurbanların uşaqları da diqqətdə saxlanılaraq 11 nəfəri tədris ləvazimatları ilə təmin edilmiş, 5-i məktəbəqədər təhsil proqramına cəlb olunmuş, 11-nə doğum haqqında şəhadətnamə və şəxsiyyət vəsiqəsi alınmasında, 8 uşağın isə alimentlə təmin olunmasında köməklik göstərilmişdir.

Vəkillər Kollegiyasının üzvü olan müdafiəçilər tərəfindən 69 insan alveri qurbanının məhkəmə baxışında və 24 qurbanın istintaq prosesində hüquqları qorunmuş, habelə Daxili İşlər Nazirliyinin müvafiq Kömək fondunun hesabına insan alverindən zərər çəkmiş 40 və insan alverindən zərər çəkməsi ehtimal olunan 5 şəxsə 3350 manat məbləğində maddi yardım edilmişdir. “İnsan alverinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 14-1.1-ci maddəsinə əsasən 7 insan alveri qurbanına öz vəziyyətini bərpa etmək, cinayətkarların təsirindən yayınmaq və cinayət təqibi orqanları ilə əməkdaşlıq etmək barədə düşünülmüş qərar qəbul etmək üçün 30 gün bərpa və fikirləşmə müddəti verilmişdir.

Qurbanların vaxtında müəyyən edilməsi, hüquqlarının və məxfiliyinin qorunması, təhlükəsiz mühitdə yerləşdirilməsi, tibbi, psixoloji və hüquqi yardımlar alması, cəmiyyətə reinteqrasiyası prosesinin planlı və məqsədyönlü həyata keçirilməsi, potensial qurbanların və ya şahidlərin

anonimliyinin qorunması, risk qrupuna aid şəxslərin müdafiəsi də təmin edilmişdir.

Ötən il “152” qaynar xəttinə xarici ölkələrdə əmək fəaliyyəti, təhsil, əcnəbilərlə nikah, məişət zorakılığı, miqrantların müvəqqəti qeydiyyatı, övladlığa götürmə və digər məsələlərlə bağlı daxil olmuş 10490 müraciət araşdırılaraq təşəbbüskarlara zəruri izahlar verilmişdir.

Təhlil və araşdırmalar göstərir ki, insan alveri, əsasən, yoxsulluq və işsizliyin, təhsil və məlumat azlığının, korrupsiya və gender bərabərsizliyinin, silahlı münaqişələrin və dərin sosial-iqtisadi problemlərin mövcud olduğu regionlarda formalaşır. Ucuz işçi qüvvəsinə tələbat olan, kommersiya məqsədli cinsi xidmətlər qanuni fəaliyyət kimi qəbul edilən ölkələrdə isə istismar mərhələsində davam edir.

Lakin Azərbaycanda milli və mənəvi dəyərlərin hər zaman üstün tutulması, ailə institutunun möhkəmliyi, ictimai məsuliyyət, dövlət tərəfindən hüquqi, iqtisadi, sosial, təhsil və təhlükəsizlik sahələrində həyata keçirilən kompleks tədbirlər insan alverinə qarşı mübarizədə mühüm sosial dayaq rolunu oynayır və təsadüfi deyil ki, insan alveri cinayəti ölkəmizdə qeydə alınan cinayətlərin heç bir faizini belə təşkil etmir, 0,6 faiz.

Qeyd edilənlər onu deməyə əsas verir ki, insan alveri Azərbaycan üçün xarakterik hüquqazidd əməl deyil. Bununla belə, insan alverinə qarşı mübarizədə normativ hüquqi bazanın və institusional mexanizmlərin davamlı surətdə təkmilləşdirilməsi, müvafiq sahədə preventiv tədbirlərin, habelə həmin cinayətlərdən zərər çəkmiş, zərər çəkməsi ehtimal olunan və ya potensial qurban hesab edilən uşaqların müdafiəsinin gücləndirilməsi, effektiv cinayət təqibinin təmin edilməsi, qurbanların sosial reabilitasiyası, hüquqlarının müdafiəsi və cəmiyyətə reinteqrasiyası, aidiyyəti dövlət

qurumları arasında qarşılıqlı fəaliyyətin və əməkdaşlığın inkişaf etdirilməsi, aidiyyəti dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının təmsilçiləri üçün ixtisaslaşmış peşə hazırlığının təşkili, maarifləndirmə işlərinin genişləndirilməsi və mövcud resursların səmərəli əlaqələndirilməsi qarşıda duran vəzifələr olmaqla növbəti milli fəaliyyət planı çərçivəsində aidiyyəti dövlət qurumları ilə koordinasiyalı şəkildə yerinə yetiriləcəkdir.

Hazırda qabaqlayıcı və dayanıqlı yanaşma əsasında gələcək risklərin minimallaşdırılması və əldə olunmuş müsbət nəticələrin davamlılığının təmin edilməsi üçün bütün zəruri tədbirlər görülür.

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Çıxışımın sonunda bu mühüm sahədə dövlət siyasətinin həyata keçirilməsində yaxından dəstəyinizə görə sizə, həmçinin səmərəli əməkdaşlıq münasibətlərinə görə dövlət orqanlarının, vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinə və media işçilərinə dərin minnətdarlığımızı bildirirəm.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Seyfulla müəllim.

Hörmətli həmkarlar, Milli Koordinatorun illik məlumatına parlamentin 2 komitəsində baxılıb – İnsan hüquqları komitəsində və Hüquq siyasəti və dövlət quruculuğu komitəsində. İndi İnsan hüquqları komitəsinin rəyini bildirmək üçün mən sözü komitə sədri hörmətli Zahid Oruca verirəm. Buyurun, Zahid müəllim.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli Milli Koordinator və millət vəkilləri. Hörmətli sədr, Sizin qeyd etdiyiniz kimi, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünün ölkəmizdə böyük ehtiramla qeyd olunduğu, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə

qazanılan tarixi Zəfərin 6-cı ildönümündə işğaldan azad edilən Cəbrayıl, Zəngilan və digər azad torpaqlara 34 ildən sonra vətəndaşlarımızın təhlükəsiz, ləyaqətli və dayanıqlı qayıdışının reallaşdığı vaxtda Milli Məclis İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun sayca 21-ci illik məlumatını müzakirə edir. Qürurla vurğulayaq ki, məlumat ərazi bütövlüyü və dövlət suverenliyimizin tam bərpasından sonrakı dövrdə artıq sayca üçüncüdür.

Hər bir parlament üzvü fərqindədir ki, ötən 10 illərlə müqayisədə ölkəmizdə təhlükəsizlik şəraiti və kriminogen sabitlik daha da möhkəmlənib. Çünki işğal və təmas xətti adlandırılan ərazilərdə dövlət hakimiyyəti tam bərpa olunub, bu zonalar aradan qaldırılıb, qanunsuz miqrasiya, narkotik maddələrin qanunsuz dövriyyəsi və transmilli mütəşəkkil cinayətkarlığa zəmin yaradan separatizm ləğv edilib.

Bildiyiniz kimi, insan alveri müasir dövrün ən təhlükəli transmilli cinayətlərindən biri olaraq yalnız hüquq mühafizə orqanlarının problemi deyil, beynəlxalq terror qədər çoxşaxəli fenomendir. 2025-ci il üzrə beynəlxalq hesabat və qiymətləndirmələrdə xüsusi vurğulanır ki, müharibələr, silahlı münaqişələr, iqtisadi və beynəlxalq təhlükəsizlik böhranları insan alverinin yayılmasına birbaşa təsir göstərir.

BMT-nin 2025-ci ildə yayımladığı Ukrayna üzrə xüsusi araşdırmada qeyd olunur ki, müharibə nəticəsində milyonlarca insanın məcburi köçkün vəziyyətinə düşməsi insan alveri riskini artırıb. Beynəlxalq statistikaya görə 2024-cü ildə Avropa İttifaqı ölkələrində 9 mindən çox, ATƏT coğrafiyasında isə 30 min insan alveri qurbanı müəyyən olunub.

Azərbaycanda insan alverinə qarşı mübarizə dövlət siyasətinin mühüm istiqamətlərindən biri olaraq qalır. İlk növbədə, – hörmətli Seyfulla müəllim

burada qeyd etdi, – institusional mexanizmlər gücləndirilib, qanunvericilik bazası təkmilləşdirilib, 2026–2030-cu illəri əhatə edən sayca 5-ci yeni milli fəaliyyət planı hazırlanıb və aidiyyəti qurumlarla razılaşdırılıb.

Xüsusi vurğulanmalıdır ki, ölkəmizdə insan alveri cinayətləri, onun formaları, ümumilikdə, bütün cinayətlərin 1 faizini təşkil etmir. Hesabatın təhlili göstərir ki, son 20 ildə cinayətlərin dinamikasında ümumi azalma tendensiyası müşahidə olunur. Konkret təhlillər aparıldıqda insan alveri cinayətlərinin strukturunda cinsi istismarın üstünlük təşkil etdiyi aydın görünür. Belə ki, 2025-ci ildə faktların 76 faizini məhz cinsi istismar halları təşkil edir. Məcburi əmək cəmi 0,5 faiz, digər 22 faiz insan alveri məqsədi ilə sənədlərdə qanunsuz hərəkətlərlə bağlı olub.

Eyni zamanda, uzunmüddətli statistik dinamika da diqqətəlayiqdir. 2005–2010-cu illərdə insan alveri cinayətlərinin sayı 200-dən yuxarı olduğu halda, sonrakı illərdə mərhələli azalma müşahidə olunub. Qurbanların sayında da oxşar tendensiyadır. Artıq bunların üzərində dayanmayacağıq.

Bundan əlavə, 2005–2025-ci illər üzrə ümumi statistikaya nəzər yetirdikdə insan alveri qurbanlarının mütləq əksəriyyətinin qadınlar olduğu müşahidə olunur. Belə ki, hesabat dövründə müəyyən edilən 1487 qurbanın təxminən 1400-ü qadın, cəmi 77-si kişi olub. Cinayətkarların strukturu da maraqlıdır. Son 21 ildə məsuliyyətə cəlb edilən 660 insan alverçisinin 561-i qadın, 99-u isə kişi olub. Faktlar göstərir ki, insan alveri cinayətlərində qadınlar təkcə qurban kimi deyil, təəssüflər, cinayətkar kimi də sayları çoxdur və təhlükəli fenomenin sosial-psixoloji aspektlərinin araşdırılmasına ehtiyac duyulur.

2025-ci ildə insan alveri qurbanlarının coğrafiyasına nəzər saldıqda onların 72 faizinin Türkiyədə, 22 faizinin Birləşmiş Ərəb Əmirliklərində, 6

faizinin isə Pakistanda istismara məruz qaldığı müəyyən olunub. Göstəricilər cinayətlərin coğrafiyasını və transmilli xarakterini bir daha sübut edir.

Daxili İşlər Nazirliyinin qaynar xəttinə il ərzində 2,5–3 milyona qədər zəng, sorğu və müraciətlərin olması, bir tərəfdən, onların üzərinə düşən işin miqyasını göstərir, digər tərəfdən, operativ axtarış və istintaq fəaliyyətinin uğurlu təşkilini təsdiq edir.

Uzun müddət İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator kimi uğurla çalışan nazir Vilayət Eyvazovun beynəlxalq tərəfdaşlarla peşəkar əməkdaşlığı, həmin o təcrübə, hesabatların vaxtında və xüsusi tələblərə uyğun təqdimatı, konstruktiv və nəticəyönümlü fəaliyyəti indi də müsbət nəticə verir. Digər tərəfdən, Daxili İşlər Nazirliyi və Milli Məclis arasında formalaşan açıq dialoq və əməkdaşlıq mühiti bütün digər hakimiyyət institutları arasında qarşılıqlı etimad və koordinasiyanın nümunəsidir.

Xüsusi vurğulayaq ki, dövlətçiliyimizin və ictimai təhlükəsizliyin qorunmasında mühüm rola malik olan daxili işlər və təhlükəsizlik orqanlarına xarici hibrid hücumlar, terror mediasının fasiləsiz ləkələmə kampaniyaları xalqımıza, dövlətimizə, qələbəmizə qarşı sistemli qəsdlərin tərkib hissəsidir.

Azərbaycanda insan alverinə qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər beynəlxalq təşkilatlar tərəfindən, ümumilikdə, müsbət qiymətləndirilsə də, həm GRETA, həm ABŞ Dövlət Departamenti tərəfindən müəyyən istiqamətlər üzrə əlavə tədbirlərə dair tövsiyələr irəli sürülüb. GRETA tikinti, kənd təsərrüfatı, xidmət və qeyri-formal məşğulluq, doğum qeydiyyatı olmayan uşaqların sənədlərlə təmini, təhsildən yayınma halları ilə bağlı məsələyə xüsusi diqqət tövsiyə edir.

Dövlət Departamentinin hesabatında isə Azərbaycan tərəfindən insan alverinə qarşı mübarizə istiqamətində qanunvericilik və institusional tədbirlərin davam etdirildiyi, hökumətin əvvəlki hesabat dövrü ilə müqayisədə artan səylərinə görə Azərbaycan 2-ci (Tier 2) səviyyədə saxlanılıb. Lakin departamentin hesabatında bizim razılaşmadığımız məqamlar da var. Məsələn, insan alveri cinayətlərini ciddi şəkildə araşdırın, məhkəməyə verin, həmçinin cinayətkar məmurlar da daxil olmaqla insan alveri ilə məşğul olan məhkumlar üçün adekvat cəzalar tələb edən kimi imperativ göstəriş, tələb dünya üçün etalon sənədlərdə yer almamalıdır. İnsan alverinə qarşı mübarizə ölkəmizdə məmurlara qarşı və ya özəl sektor bölgüsü qoyulmadan aparılır.

Departamentin sənədlərində xüsusi yer alan məsələ dünyada cinayətkar şəbəkələrin fəaliyyətlərinin rəqəmsal mühitə sürətlə adaptasiyası, sosial media, onlayn iş elanları və müxtəlif rəqəmsal kommunikasiya vasitələrinin insan alverçiləri üçün yeni cəlbetmə alətlərinə çevrilməsi, xidmət sektoru ilə bağlı təkliflər adı altında şəxslərin aldadılaraq istismara məruz qalması, gizli iqtisadiyyat daxilində, yəni xidmət və ev təsərrüfatlarında istismar hallarının da artdığı qeyd olunur. Hər iki hesabatda canlı yayım istismarının bütün ölkələrdə geniş yayıldığı bildirilir.

Yekunda illik məlumatı ümumiləşdirərək qarşıda yeni və daha mürəkkəb çağırışların olduğunu söyləyə bilərik. İki komitənin birgə müzakirəsində irəli sürülən təkliflər sırasında normativ hüquqi bazanın davamlı təkmilləşdirilməsi, rəqəmsal mühitdə süni intellekt əsaslı nəzarət mexanizmlərinin gücləndirilməsi, təhqiqat əsaslı data bazaların yaradılması, qiymətləndirici indikatorların genişləndirilməsi, vətəndaş cəmiyyətinə və sığınacaqlara maliyyə yardımlarının göstərilməsi,

beynəlxalq tərəfdaşlarla əlaqələrin intensivləşdirilməsi nəticəsində əldə olunan nailiyyətlərin daha da möhkəmlənəcəyinə inam ifadə olunub. Əminik ki, parlament üzvləri də sənədi elə yüksək qiymətləndirəcəklər.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, dediyim kimi, ikinci komitə Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir. İndi komitənin sədri hörmətli Əli Hüseynliyə söz vermək istəyirəm. Əli müəllim, buyurun, komitənin rəyini bildirin.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun məlumatı həyata keçirilmiş kompleks tədbirləri sistemli və lakonik şəkildə əhatə edir. Hörmətli Seyfulla müəllim bu barədə məlumat verdi. Düzgün olaraq qeyd olunmuşdur ki, insan alveri yalnız hüquq mühafizə problemi deyil, sosial-iqtisadi və indi, müasir şəraitdə isə həm də informasiya təhlükəsizliyi problemidir. Həmkarım hörmətli Zahid müəllim də öz təqdimatında bu barədə geniş danışdı.

Mən isə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin bir neçə hüquqi aspektlərini, fikirlərini sizin diqqətinizə çatdırmaq istərdim.

Təqdirəlayiq haldır ki, insan alverinə qarşı cinayətlərin 97 faizi açılmışdır. Bu, yüksək göstəricidir. Çünki insan alveri latent cinayətkarlığa aiddir. Bu o deməkdir ki, bəzən zərərçəkən şəxslər də bunun açılmasında passiv mövqeli olurlar. Bu baxımdan cinayətlərin açılma faizi çox yüksəkdir. Bu da çox müsbət bir haldır.

İkincisi, aşkarlanmış cinayətlərin təxminən dörddə biri informasiya texnologiyalarının tətbiqi ilə törədilmişdir. Amma bunun müqabilində daxili işlər orqanları, hüquq mühafizə orqanları özləri də informasiya texnologiyalarını tətbiq edərək məhz bu cinayətləri bu formada aça bilmişlər.

Üçüncüsü, 2025-ci ildən insan alverinə qarşı mübarizə ilə bağlı məhkəmə qərarları, yəni cəzaların əksəriyyəti azadlıqdan məhrumetmə formasında olmuşdur ki, bu da bu növ cinayətlərə qarşı hüquq sisteminin əsaslı sərt mövqeyindən xəbər verir.

Nəhayət, 2025-ci ildə son 7 illə müqayisədə insan alveri qurbanlarının sayı çox ciddi, harada isə 2 dəfəyə yaxın azalmışdır ki, bu da insan alverinə qarşı mübarizədə cinayətkarlığa qarşı mübarizənin nə dərəcədə effektiv həyata keçirildiyini bariz göstərir.

Hörmətli sədr, hörmətli həmkarlar, əminliklə demək olar ki, cənab Prezidentin rəhbərliyi ilə Vətən müharibəsindən sonra qələbə, ərazi bütövlüyünün təmin edilməsi ölkəmizdə ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsinə gətirib çıxarmışdır. Bu, həm də ölkəmizdə kriminogen durumun sabitliyinə müsbət təsir edən amillərdəndir. Ölkədə kriminogen durumun müsbət olması, cinayətkarlara qarşı qətiyyətli mübarizə Daxili İşlər Nazirliyinin – polis orqanlarının əsas vəzifələrindən biridir və analizlər göstərir ki, onlar bu işin öhdəsindən uğurla gəliblər. İnsan alverinə qarşı mübarizə də təhlükəli cinayət növlərindən biridir.

Daxili İşlər Nazirliyi, həmçinin digər orqanlarla qarşılıqlı, səmərəli əməkdaşlıq nəticəsində görülmüş tədbirlər, o cümlədən burada qeyd olunduğu kimi, Azərbaycan cəmiyyətində mövcud olan müsbət dəyərlər öz nəticələrini verməkdədir.

Ölkəmizdə bu növ cinayətin – insan alveri kimi cinayətin geniş yayılmasının qarşısı alınmışdır. Müvafiq istiqamətdə yeni effektiv mexanizmlər formalaşdırılır. Təbii ki, biz 2026–2030-cu illər üçün yeni fəaliyyət planında bunu görə biləcəyik. Bütövlükdə, komitəmizin rəyi müsbətdir. Birgə komitə iclasında da həmkarlarımız fikirlərini söyləmişlər və xahiş edirəm, nəzərə alasınız.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Hörmətli həmkarlar, biz müzakirəyə keçirik. Təklif var, 5 dəqiqəyə qədər. Hamı razıdır? Səsə qoymağa ehtiyac var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Xahiş edirəm, nəzərə alın. Fazil Mustafa. Buyurun, Fazil müəllim.

**Fazil Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, Daxili İşlər Nazirliyinin hörmətli səlahiyyətli nümayəndələri. Bu gün və neçə illərdir, biz insan alveri ilə bağlı məsələni, həqiqətən də, diqqətlə və həssaslıqla müzakirə edirik. Çünki bu, həm də ölkənin imici ilə bağlı bir məsələdir. Burada qeyd olunduğu kimi, Azərbaycan torpaqları işğaldan azad olunandan sonra artıq beynəlxalq sənədlərdə Azərbaycanın tranzit, mənşə ölkə kimi adının çox nadir hallarda xatırlandığını görə bilirik. Bu da bizim ən böyük uğurlarımızdan biridir.

Bu sahə spesifik sahə olaraq bir sıra kriminal sahələri əhatə edir. İnsan alveri həm də narkomaniya ilə, gender problemi ilə, uşaq hüquqları və başqa məsələlərlə bağlı bütün sahələri əhatə edir. Ona görə də ona qarşı mübarizə aparmaq xüsusi peşəkarlıq tələb edən məsələdir. Bunun üçün də mütləq ən başlıca, vacib məsələ həm dövlət orqanları ilə doğru koordinasiyanın qurulması, həm vətəndaş cəmiyyətlərinin bu sahədə

peşəkar fəaliyyətinə imkan yaradılması, onların dəstəklənməsi, həm də ayrı-ayrı vətəndaşların və müəssisələrin fəaliyyəti üzərində də nəzarəti həyata keçirmək, onlarla iş birliyini gerçəkləşdirməkdir. Sevindirici haldır ki, Daxili İşlər Nazirliyi, bütövlükdə, bu sahənin məsuliyyətini dərk edərək əhatəli şəkildə bütün bu prosesləri tənzimləməyi bacarır və bu da bu sahədə olan kriminal fəaliyyətlərin azalmasının əsas səbəblərindən biridir. Burada məruzədə də qeyd olunduğu kimi, artıq baş verən cinayətlərin bir faizini belə təşkil etməməsinin səbəbi odur ki, vaxtında qabaqlayıcı addımların atılması mümkün olur.

Mən bizim parlamentin də bu sahədə yüksək səviyyədə rolunu vurğulamaq istəyirəm. Hörmətli xanım sədr, Sizin də təşəbbüsünüzlə burada bir neçə dəfə həm ictimai dinləmələr, həm də elə konkret qanunların qəbul olunması formatında bizim dəstəyimiz ifadə olundu. Xüsusi ilə erkən nikahlara qarşı qanunvericilikdə birmənalı olaraq sanksiyaların sərtləşdirilməsi, dilənçiliyin peşəyə çevrilməsinin qarşısının alınması ilə bağlı maddələrin qanun layihələrində dəyişikliklər formasında verilməsi həm də bu sahə ilə məşğul olan qurumların da fəaliyyətini xeyli asanlaşdırdı. Onlar üçün də bu, böyük bir dəstək oldu.

Burada əsas problemlərdən biri qeyri-hökumət təşkilatlarının bu prosesdə fəal rolunu canlandırmaqdır. Hesab edirəm ki, Azərbaycanda bu sahədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatları burada qeyd olunduğu kimi, "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi Mehriban Zeynalovanın rəhbərliyi ilə, eyni zamanda, Qadın Hüquqları Müdafiə Cəmiyyəti Novella Cəfəroğlunun rəhbərliyi ilə və ən mühüm işlər görənlərdən bir də Kəmalə Ağazadə, bir xanımın rəhbərliyi ilə Uşaq Sığınacağı Reinteqrasiya Mərkəzinin fəaliyyəti. İnanın ki, bu reinteqrasiya

mərkəzinin hər dəfə “Facebook” üzərindən paylaşımları insanların ailə nəzarətindən kənarda olan nə qədər uşaqların faciəsini anlaması üçün böyük bir maarifçilik işidir.

Sevindirici odur ki, Daxili İşlər Nazirliyinin heyəti də təkcə hansı isə formada dəstəklə kifayətlənmir. Həm də heyət vaxtaşırı ora baş çəkir, o uşaqlarla maraqlanır, onlara hədiyyələr aparır, gələcəkdə hansı isə şəkildə iş tapmasına, cəmiyyətə inteqrasiya olunmasına da köməklik göstərir. Bunun təbliğ olunması xüsusi ilə sosial şəbəkədə müsbət təsirini göstərir. Son vaxtlar da eşidirik, qəbiristanlıqda bir uşaq tapıldı, amma valideyni ondan imtina edir. Hansı valideyn cahillikdən, yaxud da imkansızlıqdan, hansı isə psixoloji sarsıntıdan uşağından imtina edirsə, dövlət o uşağa sahib çıxmalıdır. Xarici ölkələrdə belədir, dövlət hətta valideyn nəzarətində olan, amma valideynin yaxşı davranmadığı uşağa belə dərhal sahib çıxır. Bu da onu göstərir ki, dövlət uşaq müəssisələrinin sayı və infrastrukturu artırılmalıdır, dərhal bu uşaqlar götürülüb dövlətin himayəsində böyüməlidirlər. Çünki bizə sağlam vətəndaş olduqca vacibdir.

Prezidentin milli fəaliyyət planı ilə bağlı verdiyi sərəncamda, hesab edirəm ki, çoxşaxəli problemlər əhatə olunub və bunun həyata keçirilməsi istiqamətində atılan addımlar da təqdirəlayiqdir. Ümid edirəm ki, bu məşğulluq qurumları təkcə 18 min adama iş sertifikatı verilməsi ilə kifayətlənməyib, həm də onların işlə təmin olunmasını təmin edəcəklər ki, bu sahədə problemlər azalsın.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov**. Çox sağ olun. Hörmətli sədr, əziz həmkarlar, hörmətli Seyfulla müəllim, hörmətli Fazil müəllim. Milli Koordinatorun 2025-ci ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı bir daha sübut edir ki, Azərbaycan dövləti insan ləyaqətinin qorunması və transmilli cinayətkarlıqla mübarizədə sarsılmaz iradə nümayiş etdirir. Biz bu gün təkcə statistik rəqəmləri deyil, eyni zamanda, Azərbaycanın beynəlxalq öhdəliklərinə sadiqliyini və daxili təhlükəsizlik sisteminin gücünü müzakirə edirik. Bu mənada layihəyə öncədən dəstəyimi ifadə edirəm.

İnsan hüququ universal amildir, yəni dövlətin sərhədləri və bir ölkənin vətəndaşlığı ilə məhdudlaşa bilməz. Bu mənada insan alveri ilə mübarizə də heç vaxt milli səviyyədə tam mənada səmərə verə bilməz. Çünki bu cinayətlərin özlüyündə ən təhlükəli təhdid yaradan tərəfi transmilli xarakterində özünü göstərir. Bəli, Azərbaycanda insan alveri ilə və bu əməllərlə mübarizəyə dair statistika göstərir ki, vəziyyət təhlükəli həddə deyil, əməliyyat şəraitinə dövlət bütün istiqamətlərdə olduğu kimi, tam mənada nəzarət edir. Cinayətlərin açılma faizi Azərbaycan polisinin həm fiziki, həm də rəqəmsal məkanda istisnasız peşəkarlığını göstərir. Amma dəyişməyən bir reallıq var ki, dövlətin, aidiyyəti qurumun bu istiqamətdə səyləri daxildə nə qədər effektiv olur-olsun, qlobal miqyasda insan alveri ilə real səmərəli mübarizə fəaliyyəti üçün digər dövlətlərin də prosesdə səmimi və qərarlı davranması vacibdir.

Lakin, baxın, biz daxildə insan alverinə, məcburi əməyə qarşı amansız mübarizə apararkən, bizə insan haqları dərsləri keçməyə çalışan, özünü "demokratiya carçısı" elan edən Fransa kimi dövlətlərin hələ də müstəmləkədə saxladığı ərazilərdə insanlar kölə kimi istismar edilir. İndi

Fransa xarici işlər naziri Senatda Ermənistan irsinin müdafiəsinə qalxınca, yaxşı olar ki, ilkin hüquqlardan məhrum olmuş müstəmləkələrdəki insanların dövlət siyasəti çərçivəsində salındığı aciz duruma, o cümlədən baş alıb gedən məcburi əməyə, faktiki quldarlıq formasiyasının baş alıb gedən elementlərinə diqqət yetirsin.

Cənab Prezidentin rəhbərliyi ilə Azərbaycan müxtəlif tədbir və addımlarla dəfələrlə dünyaya sübut edir ki, biz insan mərkəzli dövlətik və təsdiqlənən yeni milli fəaliyyət planı bizim bu bəşəri bəlaya qarşı növbəti hücum strategiyamızdır.

Hörmətli həmkarlar, Milli Koordinatorun hesabatını müzakirə edərkən başqa bir həqiqəti də açıq danışmalıyıq. İnsan alveri təkcə küçələrdəki fiziki istismar deyil, həm də “siyasi mühacir” adı altında qurulan kirli alver şəbəkəsi ilə mübarizə formatında da özünü göstərməlidir.

Bu gün özünə siyasi partiya deyən bəzi qurumlar, əslində, insan alveri ilə məşğul olan transmilli cinayətkar qruplaşmaların fəaliyyəti kimi çıxış edir. Onlar gənclərimizi, sadə vətəndaşlarımızı yalan vədlərlə, “demokratiya idealları” və saxta sənədlərlə Avropaya, sözün əsl mənasında, “siyasi mühacir” kimi satırlar, onlar Avropanın qaçqın düşərgələrində rəzil günə salınır, sonra isə həmin insanlardan dövlətimizə qarşı bir söyüş maşını, bir təzyiq rıçaqı kimi istifadə olunur. Bu, ölkə sərhədlərindən kənarda milli maraqlar əleyhinə, anti-Azərbaycan şəbəkəsi formalaşdırmaq, xarici kəşfiyyat qurumları üçün agentura bazası olmaqla bərabər, həm də klassik mənada elə insan alveridir.

Avropa polisinin zaman-zaman keçirdiyi əməliyyatlar zamanı mühacir alverinə görə saxlanılanların mütləq əksəriyyətinin bu radikal partiyaların vəsiqəsi ilə hərəkət etməsi təsadüfi deyil və göstərməkdədir ki, “mühacir

bazarı”nın başında duran radikal funksionerlər siyasi spekulyant olmaqla bərabər, həm də insan alverçiləridir.

Bu mənada təklif edirəm ki, növbəti dövrdə İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun hesabatında aidiyyəti məsələyə mümkün qədər xüsusi yer verilsin. Partiya vəsiqəsi satan, saxta “təqib” sənədləri düzəldib insanları xaricə, sözün əsl mənasında, qul kimi göndərən o siyasi dəllallar qanun qarşısında cavab verməlidirlər.

Hörmətli həmkarlar, bir daha sənədə qayıtsaq, Milli Koordinatorun 2025-ci ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı çox yüksək səviyyədə hazırlanıb, geniş məzmunlu təhlilə, çoxşaxəli araşdırmaya əsaslanır və cənab İlham Əliyevin təhlükəsizlik adası vizyonunu tam şəkildə əhatələyir.

Bu gün səmimiyyətlə deyə bilərik ki, milli iradənin yeganə təmsilçisi möhtərəm Prezidentə sarsılmaz sədaqəti ilə sabitliyin ən mühüm sütunlarından birinə çevrilmiş Azərbaycan polisi cənab İlham Əliyevin müəyyən etdiyi yol xəritəsini rəhbər tutmaqla və qanunla qarşısına qoyulan bütün vəzifələr, ələlxüsus, ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin və digər xətaların qarşısının alınması üçün müvafiq tədbirlərin görülməsi, bütövlükdə, şəxsiyyətin, insan hüquq və azadlıqlarının, mülkiyyətin hüquqazidd əməllərdən qorunması istiqamətində tarixin bütün dövrlərindən daha güclü fəaliyyət ortaya qoyub.

Eyni zamanda, Daxili İşlər Nazirliyinin parlamentlə çox uğurlu əməkdaşlığı, sözün əsl mənasında, nümunə sayıla bilər. Göstərdikləri səylərə və milli maraqlar naminə qətiyyətli mövqeyə görə mən daxili işlər naziri cənab Vilayət Eyvazov başda olmaqla nazirliyin bütün heyətinə təşəkkür edirəm. Təbii ki, layihəni də dəstəkləyirəm.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov**. Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri, hörmətli qonaqlar. Mən də hörmətli Seyfulla müəllimə geniş və eyni zamanda, peşəkar təqdimatına görə təşəkkür edirəm və təqdim olunan məlumatı dəstəkləyirəm. Ölkəmizdə stabilliyin və təhlükəsizliyin qorunmasında və eləcə də daha da gücləndirilməsində Azərbaycan polisinin xüsusi rolu var. Xüsusən qeyd etmək lazımdır ki, işğaldan azad olunmuş torpaqlarımızda dövlət suverenliyinin tam bərpası və eləcə də ictimai təhlükəsizliyin təmin olunmasında Azərbaycan polisi xüsusi töhfəyə malikdir. Təbii ki, mən də Qarabağı təmsil edən millət vəkili olaraq bu baxımdan Daxili İşlər Nazirliyinin rəhbərliyinə, eləcə də polis əməkdaşlarına öz minnətdarlığımı bildirirəm.

Məlumatdan da göründüyü kimi, 2025-ci ildə həm xarici risklər, həm də ölkədaxili çağırışlar nəzərə alınmaqla, insan alverinə qarşı mübarizə genişləndirilib. Hesabatda da qeyd olunduğu kimi, 2025-ci ildə bu sahədə ciddi uğurlara imza atılıb və diqqətçəkən məqamlardan biri ondan ibarətdir ki, 2025-ci ildə maarifləndirmə, təlim və treninqlərdən xüsusi istifadə olunub. Xüsusən də maarifləndirmə kampaniyalarında institusional yanaşma ilə yanaşı, həm də yeni rəqəmsal metodlardan istifadə olunub. Bu da insan alverinə qarşı mübarizədə yeni bir mərhələ kimi qiymətləndirilməlidir.

İnsan alveri cinayətlərinin sayında 2025-ci ilin yekununda 2024-cü illə müqayisədə kəskin azalmanın qeydə alınması da, təbii ki, müsbət məqamdır. Burada həmçinin  maarifləndirmə tədbirlərinin təsirlərini də

xüsusi ilə qeyd etmək lazımdır. Oxşar azalma dinamikası özünü məhkəmə məsuliyyətinə cəlb edilmiş insan alverçilərinin sayında da göstərib. Xüsusi ilə qeyd etmək lazımdır ki, insan alverinə qarşı mübarizədə Milli Məclisin fəaliyyəti və eyni zamanda, qanunvericiliyin daha da təkmilləşdirilməsi xüsusi töhfəyə malikdir. Nəzərə alsaq ki, insan alverinə qarşı mübarizədə vacib istiqamətlərdən biri məcburi əməyin qarşısının alınmasıdır və bu sahədə qanunverici bazanın daha da möhkəmləndirilməsi son illər və eləcə də 2025-ci ildə müşahidə olundu. Qeyri-leqal məşğulluğa qarşı mübarizə daha da gücləndirilib və təbii ki, bu kontekstdən həm iş axtaran, həm də işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsi prioritet olaraq qalmaqdadır.

Hazırda 1 milyon 784 min vətəndaşımızın əmək müqaviləsi var. Onlardan 870 mini dövlət sektorunda, 913 mini isə özəl sektorda çalışır. Son bir ildə özəl sektorda əmək müqaviləsi ilə çalışan vətəndaşlarımızın sayı 33 min nəfər artıb. Yəni bu isə ondan xəbər verir ki, bir tərəfdən, məşğulluğun rəsmiləşdirilməsi, digər tərəfdən, bu istiqamətdə qanunverici bazanın formalaşması və təkmilləşməsi, xüsusən təkmilləşməsi əmək müqaviləsi ilə özəl sektorda çalışan vətəndaşlarımızın sayının artmasına və məcburi əməyə qarşı mübarizənin daha da güclənməsinə gətirib çıxarıb. Qeyd olunduğu kimi, 2025-ci ildə insan alveri cinayətlərinin 97 faizi açılıb. Bu da, təbii ki, məhz daxili işlər orqanları tərəfindən peşəkar fəaliyyətin həyata keçirilməsi kimi qiymətləndirilməlidir. Bu rəqəm xüsusən qonşu ölkələrlə müqayisədə kifayət qədər böyük rəqəmdir. Bu da, təbii ki, peşəkar fəaliyyəti bir daha təsdiq edir.

Sənəddə xüsusən diqqətçəkən məqamlardan biri məhz vəzifələrin ayrıca olaraq qeyd olunması və ölçülə bilən hədəflərin

müəyyənləşdirilməsidir. Milli fəaliyyət planı çərçivəsində institusional və struktur əməkdaşlığın genişləndirilməsi də vacib istiqamətlərdəndir. Bu sahədə fəaliyyətlərin sistemləşdirilməsi və güclü koordinasiya insan alveri qurbanlarının sayının daha da azalmasına gətirib çıxaracaq. Eyni zamanda, qeyd olunduğu kimi, insan alverinə qarşı mübarizədə süni intellektdən daha çox və daha sıx istifadə olunması arzu olunandır. Güman edirik, 2026-cı və növbəti illərdə Daxili İşlər Nazirliyi tərəfindən süni intellektdən daha sıx istifadə imkanları qiymətləndiriləcək və təbii ki, istifadə olunacaq.

Eyni zamanda, xüsusən də maarifləndirmə kampaniyalarında qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın gücləndirilməsi, vətəndaş cəmiyyətinə Daxili İşlər Nazirliyi tərəfindən həm texniki, həm də digər formada dəstəyin gücləndirilməsi məqsədəuyğundur. Çünki insan alverinə qarşı mübarizə steykholderlərin birgə əməkdaşlığını tələb edir və bu halda, təbii ki, biz daha uğurlu mübarizəni müşahidə edə bilərik.

Bütövlükdə, sənədi dəstəkləyirəm və bir daha daxili işlər orqanlarının əməkdaşlarına uğurlar arzulayıram. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputatlar, media nümayəndələri. İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun məlumatını bəyənirəm və müsbət yöndə səs verəcəyəm. Komitədə də müzakirə etdik, fikirlərimi və təkliflərimin bir hissəsini səsləndirdim və ümumilikdə, bu sahədə aparılan işi müsbət hesab edirəm.

Demədiyim bir məsələ qalmışdı və xanım sədr, onu burada səsləndirmək istəyirəm. Son dövrlər sosial şəbəkələrdə və müxtəlif

platformalarda hüquq mühafizə orqanları, xüsusi ilə Daxili İşlər Nazirliyi ətrafında aparılan müzakirələr narahatlıq doğurur. Mən burada bir məqamı xüsusi ilə vurğulamaq istəyirəm. Dövlətin dayaqlarından biri olan hüquq mühafizə sisteminin məqsədli şəkildə gözdən salınması heç vaxt təkcə bir quruma qarşı kampaniya olmur. Bu, nəticə etibarı ilə dövlətə, ictimai sabitliyə və milli təhlükəsizlik mühitinə zərbə vurmaqdadır. Biz dünya təcrübəsinə baxanda görürük ki, bir çox ölkələrdə inqilabi proseslərin və xaosun başlanğıcı məhz dövlət institutlarına inamın sistemli şəkildə sarsıdılması ilə başlayır. Polis, sonra məhkəmə hədəf alınır, sonra ordu, sonra isə artıq cəmiyyət daxilində "dövlət zəifdir" düşüncəsi formalaşdırılır. Bu isə ən təhlükəli mərhələdir. Mən demirəm ki, problem yoxdur. Təbii ki, hər yerdə, hər ölkədə problem var. Dünyanın ən inkişaf etmiş dövlətlərində də hüquq mühafizə sistemində nöqsanlar olur, vətəndaş narazılığı olur, sui-istifadə halları olur. Amma əsas məsələ problemlə necə davranmaqdır. Biz problemləri həll etmək istəyirik, yoxsa, onu emosional şəkildə böyüdüb cəmiyyətlə dövlət arasında uçurum yaratmaq istəyirik və bunu edən qüvvələr, təbii ki, bunun lehinə işləyən qüvvələrdir.

Bu gün sosial şəbəkələrdə bəzən bir hadisə araşdırılmadan, hüquqi qiymət verilmədən emosional videolar və çağırışlarla təqdim olunur. Nəticədə isə insanlar arasında aqressiya artır, dövlət institutlarına etimad zədələnir. Halbuki istənilən məsələni qanun çərçivəsində, institutlar daxilində, masa arxasında və bağlı qapılar arxasında müzakirə etmək daha sağlam yanaşmadır. Dövlət idarəçiliyi küçə emosiyası ilə deyil, hüquqi mexanizmlərlə aparılmalıdır. Tənqid olmalıdır, amma dağıdıcı yox, düzəldici olmalıdır. Əgər hansı isə əməkdaş qanunu pozursa, bunun üçün daxili nəzarət mexanizmləri, məhkəmələr, prokurorluq və digər qurumlar

var. Amma bütöv sistemi hədəf almaq, minlərcə vicdanla çalışan polisi bir neçə hadisəyə görə ittiham etmək olmaz. Biz unutmamalıyıq ki, polis yalnız forma geyinmiş dövlət qulluqçusu deyil, polis gecə küçədə təhlükəsiziyi təmin edən, cinayətkarlarla üz-üzə qalan, şəhid verən bir sistemdir. Bu sistemi zəiflətmək istəyənlər isə heç vaxt əllərini, qollarını sallayıb kənar müşahidəçiyə çevrilmir. Dövlət zəifləyən kimi radikalizm, xaos, xarici təsir və küçə anarxiyası güclənir. Ona görə də, hesab edirəm ki, cəmiyyətin bütün təbəqələri, siyasətçilər, media nümayəndələri, ictimai fəallar və sosial şəbəkə istifadəçiləri daha məsuliyyətli davranmalıdır. Tənqid edək, amma dövlətçiliyi sarsıtmayacaq formada. Problemi deyək, amma onu düşmənçilik kampaniyasına çevirməyək. Çünki güclü dövlət institutları olmayan yerdə nə demokratiya olur, nə təhlükəsizlik, nə də sabit gələcək.

Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun.

Azər Allahverənov. Buyurun.

**Azər Allahverənov**. Çox təşəkkür edirəm. Bəli, burada biz olduqca vacib bir hesabatı dinlədik. İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun 2025-ci ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatını oxuduq, onunla tanış olduq. Bəli, bizim İnsan hüquqları komitəsində də geniş müzakirəsi keçirilmişdir və bir sıra fikirləri də məhz həmin müzakirə formatında biz komitədə də bildirdik. Amma bununla yanaşı, burada bəzi konseptual fikirlərimə bir daha qayıtmaq istəyirəm və çox istəyərdim ki, dilə gətirəcəyim təkliflər də gələcəkdə xüsusi olaraq nəzərə alınsın. Çünki uzun müddət mən də miqrasiya məsələləri ilə bilavasitə məşğul olmuşdum. Burada hörmətli Seyfulla müəllim xüsusi ilə qeyd etdi ki, insan alveri problemi miqrasiya

prosesləri ilə çox sıx bağlıdır, hətta müəyyən mənada onun bir tərkib elementi kimi də özünü göstərməkdədir. Xüsusi ilə də qanunsuz miqrasiya və ya tənzimlənməyən miqrasiya kontekstində.

Palermo Protokolu və digər beynəlxalq sənədlərdə xüsusi ilə də bu mübarizənin effektivliyini təmin edə biləcək bir alqoritm yer almaqdadır. Bu alqoritm zamanında 3 "P" hərfindən ibarət idi. Yəni çox qısaca olaraq abreviaturada belə qeyd edirlər ki, birincisi "prevention", ikincisi "protection" və üçüncüsü "prosecution" idi. Amma sonrakı hadisələr göstərdi ki, burada 4-cü "P" də əmələ gəldi. Bu da "partnership" – əməkdaşlıqdır ki, müxtəlif cəmiyyətin seqmentlərini əhatə edə biləcək bu əməkdaşlıq mütləq olmalıdır. Eyni zamanda, maraqlı tərəflərlə, – hörmətli Vüqar müəllimin qeyd etdiyi kimi, – steykholderlər arasında da çox ciddi bir əməkdaşlıq müstəvisi qurulmalıdır. Bax, bu alqoritm mübarizəsi həm də 3 müstəvidə həyata keçirilməlidir. Bu, xüsusi ilə də qeyd etdiyim kimi, beynəlxalq sənədlərdə qeyd olunur. Birincisi əməliyyat müstəvisidir, ikinci, qanunvericilik və üçüncü də institusional. Bu gün hörmətli Seyfulla müəllimin çıxışından biz hər 3 müstəvidə həyata keçirilən kompleks tədbirlər barədə də məlumat əldə etmiş olduq.

Bu da, təbii, çox sevindirici haldır ki, bizdə Azərbaycanda insan alverinə qarşı mübarizə strategiyası həmin beynəlxalq sənədlərdə öz əksini tapmış çox vacib çərçivəni də əhatə etməkdədir. Bununla yanaşı, həmin 3 müstəvini mən xüsusi ilə qeyd etdim, amma artıq dördüncü müstəvi də formalaşıbdır. Bu da rəqəmsal müstəvidir. O da görünür ki, artıq mütəşəkkil cinayətkar qruplaşmalar rəqəmsal imkanlardan geniş şəkildə istifadə edərək, müasir texnologiyalardan çox uğurlu şəkildə yararlanmaqla, eyni zamanda, bu problemin yaranması üçün həm də yeni üsullara və

texnologiyalara üz tuturlar. Bunlar daha çox sosial hesablar və platformalar üzərindən həyata keçirilən üsullardır. Mən düşünürəm ki, bax, burada da biz daha ayıq-sayıq olmalıyıq. Çünki sosial platformalar üzərindən inkişaf etdirilməkdə olan bu kriminal fəaliyyətin hüdudları bəlli deyil. Mənbələrini çox zaman araşdırmaq çox çətindir. Amma bu baxımdan da düşünürəm ki, bizim aidiyyəti strukturlar, xüsusi ilə də İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsi və digər hüquq mühafizə orqanları bu səpkidə çox uğurlu fəaliyyət həyata keçirməklə, nəticə etibarı ilə müxtəlif tətbiqlər, müxtəlif filtr proqramları üzərindən də orada çox ciddi monitorinq işlərini reallaşdırmaqla bir çox məsələlərin qarşısını da almaq iqtidarındadırlar. Amma bununla yanaşı, qeyd etdiyim kimi, mən bir sıra təklifləri səsləndirmək istəyirəm.

Birinci təklifim bilavasitə Azərbaycanda beynəlxalq tədbirlərin keçirilməsi ilə bağlıdır ki, bu müstəvidə beynəlxalq tədbirlərin olması olduqca vacibdir. Çünki qeyd etdiyimiz kimi, bir sıra beynəlxalq sənədlərdə, hesabatlarda, eyni zamanda, Azərbaycanda həyata keçirilən fəaliyyət barədə də informasiya yer alır. Düşünürəm, Azərbaycanda keçiriləcək beynəlxalq tədbirlər həmin hesabatlara həm də əlavə qatqı qatmış olur.

Digər çox vacib məsələ tədqiqatlarla bağlıdır. Uzun müddət müxtəlif beyin mərkəzləri ilə bu mövzuda və miqrasiyanın digər sahələri ilə də bağlı hesabatlar hazırlamışıq, tədqiqatlar həyata keçirmişik və son 2–3 il ərzində, düzünü desəm, mən bu mövzuda hər hansı bir tədqiqata rast gəlmirəm. Düşünürəm ki, bu tədqiqatları mütləq inkişaf etdirməklə yanaşı, ortalığa elə yeni məhsullar qoymaq lazımdır. Nəticə etibarı ilə bunun əsasında da sonrakı mərhələdə, qeyd etdiyim kimi, biz fəaliyyətimizi bir qədər də təkmil şəkildə qura bilərik.

Risk qrupları ilə hədəfli şəkildə işləmək də lazımdır. Bu da çox vacib bir məsələdir və yeri gəlmişkən, qeyri-hökumət təşkilatlarına göstərilən dəstək barədə danışıldı. Mən düşünürəm ki, bəli, burada biz biznes strukturlarının da imkanlarından geniş şəkildə istifadə etməliyik. Çünki yenə də müşahidələrimiz və araşdırmalarımız göstərir ki, bu proseslə daha çox məşğul olan qeyri-hökumət təşkilatları məhz dövlət qurumlarından dəstək alırlar.

Hesabata səs verirəm və çox yüksək səviyyədə hazırlanmış bir sənəd olduğunu bir daha dilə gətirirəm. Çox sağ olun.

**Sədrlik edən.** Təklif var, səsə qoyaq. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, onda çıxış edə bilməyənlər çıxışlarının mətnlərini yazılı şəkildə katibliyə versinlər.

Seyfulla müəllim, burada bir neçə təklif oldu, Azər müəllim, ondan qabaq Bəhruz müəllim, Razi müəllim tərəfindən. Mən düşünürəm ki, ya Siz indi bunlara cavab verərsiniz, ya da işçi qaydada sonra hər biri ilə danışarsınız. Necə rahatdır Sizə?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun.

**Seyfulla Əzimov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, dəstəyə görə çox sağ olun. Bunları yazılı, geniş formada Milli Məclisə təqdim edə bilərik.

**Sədrlik edən.** Çox sağ olun, Seyfulla müəllim.

Hörmətli həmkarlar, xahiş edirəm, Milli Koordinatorun illik məlumatının nəzərə alınması barədə qərar layihəsinə münasibət bildirəsiniz. Buyurun.

**Səsvermənin nəticələri** (saat 12.50 dəq.)

| | |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Seyfulla müəllim, Fazil müəllim, sizi hörmətlə yola salırıq və uğurlar arzulayırıq. Sağ olun.

Hörmətli həmkarlar, biz işimizə davam edirik. 2-ci məsələyə keçirik. Bu məsələ Quba rayonunun bəzi ərazi vahidlərinin adlarının dəyişdirilməsi haqqında qanun layihəsidir. Ad dəyişikliyi ilə bağlı olduğuna görə layihə bir oxunuşda qəbul edilməlidir. Xatırladım ki, bu, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbidir. Qanun layihəsinə Regional məsələlər komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Siyavuş Novruzova söz verirəm. Siyavuş müəllim, buyurun.

**Siyavuş Novruzov,** *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü dövlət siyasəti nəticəsində ölkəmiz son illərdə dinamik inkişaf yolu keçmiş, regionun siyasi, iqtisadi və humanitar mərkəzlərindən birinə çevrilmişdir. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı islahatlar Azərbaycanın iqtisadi qüdrətini daha da artırmış, regionların sosial-iqtisadi inkişafını sürətləndirmiş, vətəndaşların rifah halının yüksəldilməsinə mühüm töhfələr vermişdir.

Xüsusi ilə qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin regionların inkişafına diqqət və qayğısı nəticəsində ölkənin bütün bölgələrində müasir infrastruktur layihələri həyata keçirilmiş, yeni yollar çəkilmiş, hava limanları, sosial obyektlər tikilmiş, kənd təsərrüfatı və sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılmışdır. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramı ölkənin hərtərəfli və balanslı inkişafını təmin etməklə yanaşı, milli-mənəvi dəyərlərimizin, tarixi yaddaşımızın və milli kimliyimizin qorunmasına da xidmət etmişdir.

Bu gün Azərbaycan öz tarixi köklərinə, milli dəyərlərinə və dövlətçilik ənənələrinə xüsusi həssaslıqla yanaşır. Dövlətimizin həyata keçirdiyi siyasətin əsas istiqamətlərindən biri də xalqımızın milli yaddaşının qorunması, tarixi toponimlərin bərpası və gələcək nəsillərə çatdırılmasıdır. Tarixi yer adları xalqın keçmişini, mədəniyyətini, etnik yaddaşını və mənəvi kimliyini özündə yaşadan mühüm irs nümunələridir. Bu baxımdan müxtəlif dövrlərdə ölkəmizin ayrı-ayrı yaşayış məntəqələrinə verilmiş yad mənşəli adların dəyişdirilərək milli toponimlərlə əvəz olunması xüsusi əhəmiyyət daşıyır.

Belə ki, Azərbaycan Respublikasının Milli Məclisinə Quba rayon ictimaiyyəti tərəfindən müraciət daxil olmuşdur. Həmin müraciətdə rayonun Vladimirovka, Alekseyevka və Timiryazev kəndlərinin sakinləri tarixi-milli dəyərlərin qorunması və yaşayış məntəqələrinin yerli xüsusiyyətlərini daha dolğun əks etdirən adlarla əvəz olunması məqsədi ilə bu kəndlərin adlarının dəyişdirilməsi təşəbbüsü ilə çıxış etdiklərini, bununla bağlı müvafiq təkliflərini irəli sürdüklərini bildirmişdir.

Qeyd edilməlidir ki, Vladimirovka və Alekseyevka kəndlərində ilkin dövrlərdə, əsasən, rus etnik mənsubiyyətli şəxslər yaşamışlar. Lakin

hazırda əhalisi 3437 nəfər olan Vladimirovka kəndində rus etnik mənsubiyyətli cəmi 7 ailə var, Alekseyevka kəndində isə rus etnik mənsubiyyətli ailə yoxdur. Orada 3719 nəfər digər etnik mənsubiyyətli Azərbaycan vətəndaşı yaşayır.

Qeyd etməliyik ki, Timiryazev kəndinə gəldikdə isə, həmin kəndə bu ad 1965-ci ildə verilmişdir. Bunun səbəbi kənd ərazisində fəaliyyət göstərən sovxozun rus bioloqu Kliment Arkadyeviç Timiryazevin şərəfinə adlandırılması olmuşdur. Kəndin əvvəlki adları “11 Verst” və “11 nömrəli sovxoz” olmuşdur. Hazırda əhalisi 2567 nəfər olan bu kənddə rus etnik mənsubiyyətli ailə yaşamır.

Mühüm məqamlardan biri də ondan ibarətdir ki, qeyd olunan hər üç kəndin sakinləri və aidiyyəti bələdiyyələr yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi təşəbbüsünü dəstəkləmiş və bununla bağlı müvafiq müraciətlərlə çıxış etmişlər. Bu isə onu göstərir ki, təklif olunan dəyişikliklər yerli əhali tərəfindən də rəğbətlə qarşılanır və ictimai əsaslara söykənir.

Təklif olunur ki, Quba rayonunun Vladimirovka kənd inzibati ərazi dairəsi tərkibinə daxil olan Vladimirovka kəndi Elbir, Alekseyevka kənd inzibati ərazi dairəsi tərkibinə daxil olan Alekseyevka kəndi Çinarlı, Timiryazev kəndi isə Bəhrəli adlandırılsın.

Qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya komissiyası 2026-cı il 11 mart tarixli qərarı ilə bu təklifə müsbət münasibət bildirmişdir. Bu isə təqdim olunan təşəbbüsün tarixi, hüquqi və elmi baxımdan əsaslandırıldığını bir daha təsdiq edir.

Onu da vurğulayım ki, toponimlər, sadəcə, coğrafi adlar deyil. Onlar xalqın tarixi yaddaşını, milli kimliyini, mədəni irsini və mənəvi dəyərlərini yaşadan mühüm amillərdir. Tarixi və milli dəyərlərimizə uyğun adların

bərpası dövlətçilik təfəkkürünün gücləndirilməsi, milli-mənəvi irsin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan təqdim olunan təkliflərin həm tarixi ədalətin bərpasına, həm də milli toponimik irsimizin zənginləşdirilməsinə xidmət etdiyi hesab edilir.

Qanun layihəsi cənab Prezident tərəfindən Milli Məclisə təqdim olunubdur. Deputat həmkarlarımdan xahiş edirəm ki, qanun layihəsini dəstəkləsinlər, səs versinlər və bu adların dəyişdirilməsi həm Quba, həm də Azərbaycan ictimaiyyətinin tam arzusunu ifadə edir.

Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim, ətraflı məlumat verdiniz. Bir nəfər yazılıb. Əlibala Məhərrəmzadə. Buyurun.

**Əlibala Məhərrəmzadə.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli deputatlar, media mənsubları. Quba rayonunun bəzi ərazi vahidlərinin adlarının dəyişdirilməsi çox önəmli bir hadisədir. Quba rayonunda bu ad dəyişdirməsindən sonra bununla bağlı Azərbaycana məxsus olmayan heç bir ərazi vahidi qalmayacaq. Bu da çox önəmli hadisələrdən biridir.

Çox hörmətli Siyavuş müəllimin qeyd etdiyi kimi, demək olar ki, bu ərazilərdə çox az sayda başqa xalqların nümayəndələri yaşayırlar. O ərazilərdə vaxtı ilə həmin xalqların nümayəndələri yaşadıqlarına görə adları dəyişilmişdi. Bu gün həm kənd sakinlərinin, həm də bələdiyyələrin müraciəti var, bu, kifayət qədər böyük bir ictimai qınağa səbəb idi. Bu dəyişikliyin baş verməsi çox önəmli hallardan biridir. Qeyd olunan hər 3 kəndin sakinləri də aidiyyəti üzrə kifayət qədər müraciət edirdilər.

Həmkarlarımdan xahiş edirəm ki, bu layihəyə dəstək olsunlar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, xahiş edirəm, indi qanun layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, təklif var, fasiləsiz. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda fasiləsiz işləyirik.

Hörmətli həmkarlar, gündəliyin növbəti 2 məsələsi birinci oxunuşda olan qanun layihələridir. 3-cü məsələ “Yaşıllıqların mühafizəsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Aqrar siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Tahir Rzayevə söz verirəm. Tahir müəllim, buyurun.

**Tahir Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, hörmətli millət vəkilləri. “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda edilmiş dəyişikliklər əkin təyinatlı torpaqlarda müasir texnologiyaların daha səmərəli tətbiqinə, məhsuldarlığın yüksəldilməsinə, sudan, texnikadan səmərəli istifadə edilməsinə, müəyyən maneələrin aradan qaldırılmasına xidmət edir.

Kənd təsərrüfatı fəaliyyətinə mane olan yaşıllıqların götürülməsinin hüquqi əsaslarının və bundan irəli gələn mexanizmin yaradılmasını nəzərdə tutur.

Hörmətli sədr, bildirmək istəyirəm ki, bu qanun layihəsində edilmiş dəyişikliklər bilavasitə Sizin diqqət və qayğınız sayəsində reallaşdı. Keçən il noyabr ayında hörmətli deputatımız Azər Badamov bu məsələ ilə əlaqədar burada çıxış etmişdi. Bildirmişdi ki, müəyyən sahələrdə olan yaşıllıqlar kənd təsərrüfatı fəaliyyətinə mane olur və bu, insanları müəyyən çətinliklər qarşısında qoyur. Siz tapşırıq verdiniz və Əli Hüseynli, Azər Badamov və mən bu məsələni bir neçə dəfə müzakirə etdik. Həqiqətən də gördük ki, verilən bu təklif çox dəyərli təklifdir. Müəyyən sənədlər hazırlandı. Yenə də deyirəm, Sizin diqqətiniz, qayğınız nəticəsində bu sənədlər qanunvericilik təşəbbüsü subyektinə təqdim olundu. Bu gün bu qanun layihəsi burada müzakirə olunur. Bu diqqətə, qayğıya görə mən deputat həmkarlarım adından Sizə təşəkkürümü bildirirəm.

Əlbəttə ki, qanunda edilmiş dəyişikliklər çox mütərəqqidir. Burada bir neçə dəyişiklik var. “Əsas anlayışlar” maddəsinə 2 maddə – 1.0.13-cü və 1.0.14-cü maddələr, “ağac” və “kol” anlayışları əlavə olunur.

Qanunun 13-cü maddəsinə də 2 maddə – 13.6.1-ci, bir də 13.6.2-ci maddələr əlavə olunub. 13.6.2-ci maddə bilavasitə yaşıllıqların götürülməsinin prosedur qaydalarını özündə ehtiva edir. Belə ki, əgər sahədə yaşıllıqlar varsa və bunlar təsərrüfat fəaliyyətinə mane olursa, müəyyən sənədlər toplanmalıdır. Bununla əlaqədar həmin sahələrin əhatəsi, kolların sayı, cinsi, növü, hündürlüyü, fotoşəkli, həmin kolların yayıldığı ərazinin ölçüsü, eləcə də digər sənədlər tərtib olunub müvafiq orqana təqdim olunmalıdır.

Mövcud icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən 10 gün müddətində təqdim olunan sənədlərə münasibət bildirilməlidir. Əgər bu sənədlərə irad bildirilməzsə, onda həmin yaşıllıqlar oradan götürülə bilər. Müəyyən irad varsa, sözsüz ki, bunlar müəyyən hüquqi aktlara istinad olunmaqla dəqiqləşdirilməlidir və həmin hüquqi və ya fiziki şəxsə bu barədə bildirilməlidir.

Çox yaxşı düzəlişlərdir. Ona görə də deputat həmkarlarımdan səs verməlierini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim.

Qanun layihəsinə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində də baxılıb. Komitənin rəyini bildirmək üçün mən komitənin sədri hörmətli Sadiq Qurbanova söz verirəm. Buyurun.

**Sadiq Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. Bu gün biz çox vacib bir məsələ haqqında danışırıq. Kənd təsərrüfatı təyinatlı torpaqlarda istehsal prosesinə mane olan, aqrotexniki baxımdan fayda verməyən, sahələrin homogenliyini pozan yaşıllıqların hüquqi tənzimlənməsi haqqında danışırıq.

Məlumdur ki, kənd təsərrüfatı artıq ənənəvi üsullarla deyil, yüksək texnologiyalar əsasında inkişaf edir. Pivot, damlama və sprinkler suvarma sistemləri, habelə lazerlə torpaq hamarlanması, müasir əkin texnikaları – bütün bunlar sahələrin maneəsiz və düzgün strukturlaşdırılmasını tələb edir. Lakin bir çox hallarda əkin və çoxillik əkmələr altında olan torpaqlarda nizamsız şəkildə yerləşmiş kol və ya ağaclar texnologiyanın tətbiqinə mane olur, məhsuldarlığı azaldır, əlavə yanacaq sərfiyyatına səbəb olur.

Bu layihədə söhbət meşələrin və ya ekoloji əhəmiyyətli yaşıllıqların məhv edilməsindən deyil, – deputat həmkarlarıma bunu xüsusi vurğulamaq istəyirəm, – kənd təsərrüfatı dövriyyəsinə mane olan, istehsal məqsədlərinə xidmət etməyən yaşıllıqların və kolların götürülməsindən gedir.

Mövcud qanunvericilikdə bir çox hüquqi boşluqlar var idi. Yadınızdadırsa, dəyərli Sahibə xanım, 2024-cü ildə xüsusi mülkiyyətdə olan torpaqlarla bağlı biz məsələ qaldırmışdıq ki, bu torpaqlar kənd təsərrüfatı təyinatı ilə təmin olunsun və bununla da bağlı göstəriş oldu. Biz qanunvericilik subyektinə müraciət etdik və 2024-cü ilin oktyabr ayında məktub ünvanladıq. Oktyabr ayının 29-da məktuba cavab gəldi ki, bu məsələyə baxılacaq. Sizə də təşəkkür edirik ki, bu təşəbbüsdə bizə dəstək oldunuz.

O cümlədən də bizim komitədə bu məsələ müzakirə olunmuşdu. Hörmətli Asif müəllim Əsgərov, Eyvaz müəllim Qurbanov, Fatma xanım Yıldırım və bir çox digər deputatlar, doğrudan da, rayonda bu məsələlərin belə bir problem yaratdığını bildirdilər. Qanunvericilikdə olan bu boşluqdan istifadə edərək bir çox yulğun ağacların götürülməsinə görə cərimələrlə bağlı çoxlu şikayətlər var idi. Nazirliklə əlaqə saxladıq. Onların bildirdiyinə görə təkcə nazirliyin özünə bu ağacların, kolların götürülməsinə razılıq verilməsi ilə bağlı 500-dən artıq müraciət var. Ona görə də bu, həm də ekoloji məsələdir. Bu gün ekoloji təhlükəsizliklə ərzaq təhlükəsizliyi bir-birini tamamlayan amillərdir. Məsələn, FAO-nun hesabatlarında göstərilir ki, suvarma sistemlərinin tətbiqi suvarma sisteminin seçilməsindən asılı olaraq su sərfiyyatına 30–50 faiz təsir edir. 1 hektar sahədə suya qənaət

ortalama 0,33 faizdir, yəni bir hektarın üçdə biri qədər torpağın yenidən iqtisadi dövriyyəyə qaytarılmasına şərait yaradıla bilər.

İkinci, ona görə ekoloji məsələdir deyirik ki, karbon qazıdır. Bilirsiniz, Azərbaycan COP29-dan sonra xüsusi ilə qanunvericilikdə atmosferə atılan tullantıların azaldılmasını hədəf kimi müəyyənləşdirmişdir. Qeyd edək ki, bu proseslər nəticəsində kolların orada olması yeni texnologiyaların tətbiqinə mane olur. Ortalama 1 hektar sahəni il boyu əkmək, səpin, digər qulluqların hamısı ortalama 38 litr yanacaq sərfinə gətirib çıxarır ki, bu da şərti olaraq 100 kiloqram karbonun atmosferə tullanması deməkdir.

Əgər bu qanun qəbul olunarsa, bu qanundan həmin kolların sənədləşmə əsasında müvafiq qaydada götürülməsi ilə həmin karbon 100-dən 20 kiloqrama qədər enəcəkdir. Bu da onun həm də ekoloji tərəflərini göstərir.

Ona görə də deputat həmkarlarımı bu mühüm qanun layihəsini dəstəkləməyə dəvət edirəm. Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Sadiq müəllim.

Hörmətli həmkarlar, biz müzakirəyə başlayırıq. Qüdrət Həsənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev.** Çox sağ olun. Hörmətli sədr, həmkarlar, media nümayəndələri. Hörmətli sədr, ilk öncə Sizi uğurlu səfər münasibəti ilə təbrik edirəm. Azərbaycan parlamentinin beynəlxalq təşkilatlarla əməkdaşlığı və onların fəaliyyətində yaxından iştirakı dövlətimizin marağının qorunması baxımından son dərəcə əhəmiyyətlidir.

Yaşıllıqlarla bağlı onu qeyd etmək istəyirəm ki, Xətai rayonundan seçicilər tərəfindən mənə çoxlu sayda müraciətlər olunub. Özüm hətta onlarla görüşdə onların bir çox şikayətləri ilə rastlaşmışam ki, Bakı

şəhərində binaların həyətində ağacların suvarılmasında çox ciddi problemlər var, yəni suyun pulunun kim tərəfindən ödənilməsi ilə bağlı. O cümlədən ağaclar bir çox halda budanmır, yaxud qurumuş ağacların kəsilməsində ciddi problemlər var.

Allah ruhunu şad etsin, mərhum Prezident Heydər Əliyevin yaşıllığa verdiyi xüsusi qiymətdən, çox təəssüf ki, bəzi hallarda hətta sui-istifadə edilir. Bizim qanunvericilikdə də yaşıllığın götürülməsi xeyli dərəcədə çətinləşdirilib. Nazirlər Kabinetinin bu barədə 2016-cı il 30 avqust tarixli Qərarı var – "Yaşıllıqların götürülməsi Qaydası"nın təsdiq edilməsi haqqında". Həmin qərarda da qeyd olunur ki, vətəndaş, fiziki, yaxud hüquqi şəxs bununla bağlı mərkəzi, yaxud yerli icra hakimiyyəti orqanına və yaxud da bələdiyyələrə müraciət etməlidir. Onlar baxıb araşdırmalıdırlar və məqsədəuyğun saysalar, həmin ərizəni Ekologiya və Təbii Sərvətlər Nazirliyinə göndərməlidirlər. Bu nazirlik müvafiq rəy verməlidir və bundan sonra onlar yenidən müvafiq qərar qəbul etməlidirlər. Qeyd edim ki, bu prosedur xeyli dərəcədə sadələşdirilməlidir ki, vətəndaşlar süründürməçiliklə üz-üzə qalmasınlar. Biz görürük ki, bir çox hallarda ən yaxşı şüarlar altında çox pis işlər görülür. Bu prosedurun çətinliyi bir çox hallarda vətəndaşları qanunsuz yollara əl atmağa məcbur edir. Ona görə də bu prosedur xeyli dərəcədə sadələşdirilməlidir.

Mən, ümumiyyətlə, layihəni təqdim edən həmkarlarıma təşəkkürümü bildirirəm. Hesab edirəm ki, dəyişikliklər, normalar, xüsusi ilə də 13.6-2-ci maddə qanunvericilik texnikasına əməl olunması baxımından bizim "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələblərinə cavab vermir. Burada qeyd olunur, misal üçün deyirəm, "təhrif olunmuş məlumatın verilməsi qadağandır", halbuki qeyd olunmalıdır ki, "təhrif

olunmuş məlumatın verilməsi hüquqi məsuliyyət yaradır”. Yaxud qeyd olunur, həmin ərizəçiyə irad bildirilir, onların kəsilməsinin həyata keçirilməsinə irad bildirilir.

Hörmətli sədr, bu auditoriyada bizim dilçi alimlər var. İrad bir məzəmmət formasıdır. Konstitusiyaya görə vətəndaşlar məhkəməyə o halda müraciət edirlər ki, dövlət hakimiyyəti orqanlarının, ictimai təşkilatların, yaxud siyasi partiyaların qərarlarından... Burada biz dəqiq müəyyənləşdirmişik ki, hansı sənədlər təqdim olunmalıdır. Həmin sənədlər əsasında ya iddianın, müraciətin təmin olunmasına dair, ya da ondan imtina olunması barədə qərar qəbul olunmalıdır. Amma irad bildirəndə vətəndaş bundan, bu iraddan məhkəməyə müraciət edə bilməz axı. İrad nədir? İrad birinin səhvini, nöqsanını ona çatdırmaq, yaxud onun davranışına etiraz etmək formasıdır. Bu baxımdan bu normaya da diqqət yetirmək lazımdır.

Mən hesab edirəm, biz, doğrudan da, sahibkarlara kömək etmək istəyiriksə ki, bu süründürməçilik halları aradan qaldırılsın, bu proses qanunvericilikdə 10 gün müddətində həllini tapmalıdır. Amma biz bilirik, indi hörmətli Sadiq müəllim dedi, 500 müraciət var. Yəni 500 müraciətə Ekologiya və Təbii Sərvətlər Nazirliyi 2 gün ərzində cavab verməlidir. Real həyatda isə bu qeyri-mümkündür. Biz bilirik ki, bu, uzun müddət davam edir və sahibkarlar, vətəndaşlar bundan əziyyət çəkirlər. Bu məsələlərə də öz münasibətimi bildirmək istədim.

Hesab edirəm ki, ikinci oxunuşda mən səsləndirdiyim məsələlərə də diqqət yetirilər və Nazirlər Kabineti də özünün müvafiq qərarına ciddi düzəlişlər edər.

Sonda onu qeyd etmək istəyirəm ki, Bakı şəhərində, bəli, yaşıllıqlara çox böyük ehtiyac var. Gözəl parklar salınıb. Amma meşə zolağı, yeni parklar yaradılmalıdır. Amma bəzən 1 ağaca görə insanları xeyli dərəcədə incidirlər və bu da çox təəssüf hissi yaradır.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Çox sağ olun. Hörmətli sədr, əziz həmkarlar. Azərbaycan Respublikası Konstitusiyasının 78-ci maddəsinə əsasən ətraf mühitin qorunması hər bir şəxsin borcudur. O cümlədən möhtərəm Prezident cənab İlham Əliyevin siyasətində və fəaliyyətində də ekoloji tədbirlər, xüsusən yaşıllıq sahələrinin artırılması mühüm yer tutur və hətta 5 il əvvəl "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" qəbul edilərkən "yaşıl artım" ölkəsi olmaq bizim 5 milli prioritetimizdən biri kimi müəyyən olunub.

Dövlət başçımız yaşıllıqların sürətli bərpası və artırılmasının zərurətini həm bu sənəddə, həm də çıxışlarında açıq mətnlə dəfələrlə bəyan edib. Cənab İlham Əliyev ciddi iradə ortaya qoyaraq şəhərin mərkəzində böyük söküntülərin yerində yaşıllıq zonası yaratmaqla Bakı ekologiyasına, sözün əsl mənasında, ikinci şans verib.

Lakin eyni zamanda, dövlət proseslərə planlı və balanslı yanaşmanın tərəfdarıdır. Milli prioritetlər müəyyən edilərkən də vurğulandığı kimi, iqtisadi artımla ekoloji mühit tarazlı olmalıdır. Bəzən bölgələrdə biz bu tarazlığın tapılmasında müəyyən çətinliklər yaşandığına şahidlik edirdik. Təmsil etdiyim Biləsuvar rayonunda bu, bəzi hallarda müəyyən problemlərin meydana çıxmasına gətirib çıxarır. Bizim Nərimankənd,

Nəsimikənd, Səmədabad, digər kəndlərimizdə də bu problemlər var. Bu tip məsələlərlə bağlı dəfələrlə qarşımızda məsələ qaldırılıb. Qrunt suların daşınması və torpağın şoranlaşmasının qarşısını almaq üçün kollektorların çəkilməsi vacib olur, yaxud mövcud kollektorların içini tutmuş bitki örtüyünün təmizlənməsi lazım olur. Amma məhz ekoloji balansın tapılmaması məsələni çəncələ çevirir, torpaq sahibləri uzun bir dövr ərzində aidiyyəti su təsərrüfatı ilə ekologiya qurumları arasında get-gəldə qalmalı olurlar. Bir çox hallarda da məsələ həllini tapmır.

Yaxud bizdə, Biləsuvarda Bolqarçay su anbarı var. İçini ot, bitki basıb, amma təmizlənmə məsələsi meydana çıxanda məhz qeyd etdiyim bürokratiya meydana çıxır. Təbii ki, mən Ekologiya və Təbii Sərvətlər Nazirliyini hədəfə gətirmək niyyətində deyiləm. Çünki qanun tələb edirsə, ekologiya qurumları öz işini görməlidir və bu, başa düşüləndir.

Amma hörmətli Sadiq müəllim də çıxışında ifadə etdi, – biz onunla da dəfələrlə bu barədə müzakirə aparmışıq, – mövcud normativ baza çoxsaylı müraciətlərə baxmayaraq, nəticə etibarı ilə nazirliyin özünə də problemə həll yönümlü yanaşmağa imkan vermirdi və məsələ həll olunmamış qalırdı.

Problemdən çıxış yolu ilk növbədə normativ bazada dəyişiklik ola bilərdi. “Yaşıllıqların mühafizəsi haqqında” Qanunda cari dəyişiklikləri bu mənada uğurlu çıxış yollarından biri hesab etmək olar.

Hörmətli sədr, kənd rayonunu təmsil edən, cari məzmunlu problemlə çox tez-tez qarşılaşan deputat kimi problemə parlamentin çevik reaksiyasına görə şəxsən Sizə və həmkarlarımıza, o cümlədən parlament Aparatına aidiyyəti gərgin fəaliyyətlərinə görə təşəkkür edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Bu bizim birgə işimizdir. Ona görə təşəkkür varsa, hamıya çatır.

Bəxtiyar Əliyev. Buyurun.

**Bəxtiyar Əliyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Şübhəsiz ki, "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda təklif edilən dəyişikliklər kifayət qədər əsaslıdır və bu barədə hörmətli Tahir müəllim də, Sadiq müəllim də çox əsaslandırılmış məlumatla çıxış etdilər. Qanun layihəsinə ediləcək bu dəyişiklikləri biz tamamilə dəstəkləyirik.

Mən burada səsləndirilən bəzi məsələləri bir də diqqətə çatdırmaq istərdim ki, qanunun qəbul edilməsi, əlbəttə, yaxşıdır, amma qanunun icrası ondan daha da əhəmiyyətlidir. Biz qanunları qəbul edirik, bəzən isə bu qanunların icrasında qəbul olunmuş bəzi qaydalar və əsasnamələr ləngimələrə yol açır, yaxud onların səmərəli tətbiqinə imkan vermir.

Bu gün biz bilirik ki, Bakı şəhərində çox böyük, gözəl abadlıq işləri görülür, Bakı şəhərimiz gözəlləşir. Eyni zamanda, Azərbaycan şəhərsalma ilə bağlı çox böyük, mötəbər bir tədbirə, bu istiqamətdə olan növbəti tədbirə ev sahibliyi edəcəkdir.

Bakı şəhərinin yaşıllıq zonalarının genişləndirilməsi istiqamətində çox böyük işlər görülüb. Amma küçələrdəki ağaclarla, yaşıllıqlarla bağlı çox ciddi problemlər qalmaqdadır. Bəzən baxırsan ki, güclü yağışdan, küləkdən sonra aşan ağaclarla bağlı televiziyalarda kadrlar nümayiş etdirilir. Əhali dəfələrlə səsləndirir ki, bununla bağlı biz müvafiq orqanlara müraciət edirik, amma heç bir tədbir görülmür. Ağır fəsadlar baş verdikdən sonra fəsad aradan qaldırılır. Amma digər məsələ yenə yaddan çıxır.

Bilirik ki, Bakı şəhərində gil qatı çox üst qatdadır, demək olar ki, 1 metr və yaxud ən yaxşı halda metr yarımdan sonra gil qatıdır. Bəzən görürsən ki, beşmərtəbəli binaların qarşısında ağaclar hətta o binanı ötüb keçib, onlar əyilirlər, onlara diqqət yetirilmir, aşağıdan yuxarı budanılır. Elə bil ki, bir meşə zolağı yaradırlar. Bəzi hallarda işıqforların, işıqların, yol nişanlarının görünməsinə, evlərin pəncərələrinə işıqların düşməsinə mane olur və eyni zamanda, vətəndaşların həyatı üçün bir təhlükə mənbəyinə də çevrilir.

Bu qanunun 13.1.3-cü və 13.1.4-cü maddələrində ağac və kol bitkilərinin hansı hallarda götürülməsi ilə bağlı müddəalar var. Amma çox təəssüflər olsun, – bayaq burada Qüdrət müəllim də bunu səsləndirdi, – baxırsan ki, küçələrdə yol kənarında, binaların qarşısında qurumuş, xəstə ağaclar qalıb, onların yanında və yaxud sağlam ağacların altında heç bir ehtiyac olmadığı halda ağaclar əkilir. Halbuki o xəstə, qurumuş ağaclar götürülməlidir, onların yerinə sağlam ağaclar əkilməlidir, binaların görünüşü, gözəllikləri görünməlidir, müəyyən bir səviyyədə, bütün şəhərsalmaya uyğun hündürlükdə olan ağaclar saxlanmalıdır. Ağaclara qulluq edilməli, vaxtında budanmalıdır ki, onlar binadan da yuxarıya qalxmasınlar. Hesab edirəm ki, gözəl Bakımızın daha da gözəlləşməsi və yaşıllıqların qorunması üçün bu istiqamətdə məsuliyyəti olan qurumlar məsələyə yenidən baxmalıdırlar və qaydaya əməl etməlidirlər.

Qanunda 2 yeni anlayış ayrıca verilir, baxmayaraq ki, qanunda bu “ağac” və “kol” anlayışları var. Azərbaycan dilinin izahlı lüğətində “ağac” və “kol” sözləri var, izahı var. Amma bu qanun layihəsində verilən “ağac” və “kol” anlayışları bizim Azərbaycan dilinin izahlı lüğətindən tamamilə fərqlidir.

Hesab edirəm, bu qanunda hansı mənada ki bu verilir, onunla izahlı lüğətdəki üst-üstə düşür. Buna baxmaq lazımdır. Əgər, həqiqətən də, bu anlayışlarda elmi axtarışlar nəticəsində dəyişikliklər baş veribsə, Azərbaycan dilinin izahlı lüğətinə dəyişiklik edilməlidir. Əgər olmayıbsa, onda qanunlarımızda da Azərbaycan dilinin izahlı lüğətində anlayışlar necə verilibsə, o cür verilməlidir. Təhsil alan şagirdlərimiz məktəblərdə necə öyrənəcəklər, sonra vətəndaşlar buna necə baxacaq və bunun tərifi soruşularkən nə düz olacaqdır? Azərbaycan dilinin izahlı lüğəti əsas götürüləcəkdir, yoxsa bu qanunda verilən anlayışlar.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Azər Badamov. Buyurun.

**Azər Badamov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli həmkarlar, bu gün "Yaşıllıqların mühafizəsi haqqında" Qanunda təklif olunan dəyişikliklərlə bağlı keçən ilin noyabr ayında çıxış etmişdim. Hörmətli Sahibə xanım, məsələni operativ şəkildə nəzarətə götürərək müvafiq tapşırıqlar verdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Eyni zamanda, komitə sədrləri hörmətli Əli Hüseynli və Tahir Rzayevə də bu mühüm məsələnin koordinasiyalı şəkildə müvafiq mərkəzi icra hakimiyyəti orqanları qarşısında qaldırılmasına və qanunvericilik təşəbbüsünün formalaşdırılmasına verdikləri dəstəyə görə təşəkkür edirəm.

Bu gün artıq "Yaşıllıqların mühafizəsi haqqında" Qanunda dəyişikliklərin edilməsi ilə bağlı qanun layihəsi müzakirəmizə təqdim olunmuşdur. Hesab edirəm ki, həcm etibarı ilə böyük görünməsə də, bu

dəyişikliklərin sosial, iqtisadi və kənd təsərrüfatının inkişafı baxımından əhəmiyyəti olduqca böyükdür.

Hörmətli həmkarlar, keçirdiyimiz görüşlər, vətəndaş qəbulları və fermerlərlə apardığımız müzakirələr zamanı ən çox qaldırılan problemlərdən biri məhz torpaq sahələrinin istifadəsi və həmin sahələrin kol-kosdan təmizlənməsi ilə bağlıdır. Bu problem yalnız ayrı-ayrı rayonları deyil, demək olar ki, kənd təsərrüfatı ilə məşğul olan bütün bölgələri əhatə edir. Məlumdur ki, müxtəlif səbəblərdən bir neçə il istifadə olunmayan torpaq sahələri kol-kos və yabanı bitkilərlə örtülür. Sonradan həmin torpaqların yenidən əkin dövriyyəsinə qaytarılması isə fermerlər üçün müəyyən çətinliklər yaradır. Bir çox hallarda vətəndaş öz mülkiyyətində olan torpaq sahəsinə görə vergi ödəsə də, həmin torpaqdan səmərəli istifadə etmək imkanından məhrum olur. Bu isə həm kənd təsərrüfatının məhsuldarlığının azalmasına, həm də istifadəsiz torpaqların artmasına səbəb olur. Xüsusi ilə nəzərə almalıyıq ki, hazırkı dövrdə ərzaq təhlükəsizliyi, torpaqdan səmərəli istifadə və kənd təsərrüfatının inkişafı dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biridir. Bu baxımdan torpaqların istifadəsini çətinləşdirən hüquqi və inzibati maneələrin aradan qaldırılması olduqca vacibdir. Təqdim olunmuş qanun layihəsi də məhz bu məqsədə xidmət edir və hesab edirəm ki, fermerlərin fəaliyyətinin genişlənməsinə, istifadəsiz torpaqların yenidən dövriyyəyə qaytarılmasına və kənd yerlərində iqtisadi fəallığın artmasına müsbət təsir göstərəcəkdir.

Bununla yanaşı, qanun layihəsi ilə bağlı bir məsələni də təklif etmək istərdim. Layihədə müəyyən hallarda ancaq kol-kosun dəyəri ödənilmədən təmizlənməsinə icazə verilməsi nəzərdə tutulur. Lakin hesab edirəm ki, burada aqrotexniki qaydada becərilən ağaclarla bağlı məsələyə də ayrıca

yanaşılmalıdır. Belə ki, bəzi fermerlər və torpaq mülkiyyətçiləri öz torpaq sahələrində şəxsi istifadə və ya satış məqsədi ilə çinar, şam və digər ağac növləri əkib-becərirlər. Bu ağacların yetişdirilməsi üçün illərlə zəhmət, maliyyə və ağır texniki qulluq tələb olunur. Lakin sonradan həmin ağacların istifadəsi və ya kəsilməsi ilə bağlı məhdudiyyətlər müəyyən problemlər yaradır. Halbuki bu gün ölkəmizdə tikinti və sənaye sektorunda istifadə olunan ağac materiallarının və taxtanın böyük hissəsi xaricdən idxal edilir. Əgər qanunvericilikdə bu məsələyə daha çevik yanaşma tətbiq olunarsa, fermerlər sürətlə böyüyən ağac növlərinin becərilməsinə maraq göstərə bilərlər. Bu isə həm yeni iqtisadi fəaliyyət sahəsinin formalaşmasına, həm kənd yerlərində əlavə məşğulluğun yaranmasına, həm də müəyyən mənada idxaldan asılılığın azalmasına töhfə verə bilər.

Eyni zamanda, burada söhbət təbii meşə fonduna aid ağacların məhv edilməsindən deyil, məhz fermer tərəfindən mülkiyyətində olan sahələrdə əkilib-becərilən, aqrotexniki qulluq göstərilən ağacların istifadəsindən gedir. Buna görə də hesab edirəm ki, qanunun müvafiq maddəsində belə ağacların müəyyən edilmiş qaydalar çərçivəsində kəsilməsinə icazə verilməsi ilə bağlı müddəanın əlavə olunması məqsədəuyğun olardı.

Sonda qeyd etmək istəyirəm ki, bu dəyişikliklər həm vətəndaşların mülkiyyət hüquqlarının daha səmərəli təmin edilməsinə, həm kənd təsərrüfatının inkişafına, həm də torpaq ehtiyatlarından daha effektiv istifadəyə xidmət edəcəkdir.

Qanun layihəsini dəstəkləyirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim. İkinci oxunuşda təklifinizi yenə də verərsiniz, yazılı surətdə də çatdırılar. Azər müəllim bir daha vurğuladı ki, kənd təsərrüfatı torpaqlarından söhbət gedir. Burada hörmətli

həmkarlarımız Bakıda yaşıllaşma ilə bağlı ümumi məsələləri qaldırdılar. Ancaq qanun layihəsində kənd təsərrüfatı torpaqlarından söhbət gedir.

Asif Əsgərov. Buyurun.

**Asif Əsgərov.** Çox təşəkkür edirəm. Çox hörmətli xanım sədr, hörmətli millət vəkilləri, media nümayəndələri. Müzakirə etdiyimiz qanunla bağlı hörmətli komitə sədrlərimiz həm Sadiq müəllim, həm də Tahir müəllim ətraflı məlumat verdilər. Eyni zamanda, bizim komitədə də geniş müzakirə olunmuşdu. Mən də istərdim, dəyərli vaxtınızı alaraq bir neçə fikrimi diqqətinizə çatdırım.

Bu gün müzakirə etdiyimiz "Yaşıllıqların mühafizəsi haqqında" Qanunda təklif edilən dəyişikliklər, əslində, ölkəmizin ekoloji təhlükəsizliyi ilə aqrar inkişaf strategiyası arasında mühüm balansın yaradılmasına xidmət edən son dərəcə vacib hüquqi təşəbbüsdür. Məlumdur ki, qüvvədə olan qanunvericilik yaşıllıqların mühafizəsini əsas prioritetlərdən biri kimi müəyyən etsə də, kənd təsərrüfatı təyinatlı torpaqlardan daha səmərəli istifadə olunması və aqrar fəaliyyətin müasir çağırışlara uyğun təşkili istiqamətində əlavə hüquqi tənzimlənmə imkanlarının formalaşdırılması xüsusi aktuallıq kəsb edir. Təklif olunan əlavələr məhz bu istiqamətdə hüquqi tənzimlənmə mexanizmlərini daha da təkmilləşdirərək torpaq ehtiyatlarından rasional istifadəni genişləndirir və kənd təsərrüfatı fəaliyyətinin effektivliyini daha da artırır.

Qanun layihəsində yeni "ağac" və "kol" anlayışlarının ayrıca hüquqi kateqoriya kimi müəyyən edilməsi xüsusi ilə əhəmiyyətlidir. Bu dəyişiklik normativ bazanı daha dəqiq, şəffaf və tətbiq baxımından daha funksional edir. Çünki yaşıllıqlara münasibətdə fərqli bitki növlərinin bioloji

xüsusiyyətlərinə uyğun fərqli yanaşmanın tətbiqi dövlət idarəçiliyində çevikliyi artırır.

Ən mühüm yeniliklərdən biri isə kənd təsərrüfatı təyinatlı torpaqlarda əkinə mane olan yaşıllıqların götürülməsinin qanuni əsaslar sırasına daxil edilməsidir. Bu, xüsusi ilə istifadəsiz qalmış, kol və digər bitkilərlə örtülmüş torpaqların yenidən əkin dövriyyəsinə cəlb olunmasına, ərzaq təhlükəsizliyinin gücləndirilməsinə, məhsuldarlığın artırılmasına və müasir aqrar texnologiyaların tətbiqinə ciddi töhfə verəcəkdir.

Bu dəyişikliklər, eyni zamanda, regionların sosial-iqtisadi inkişafı baxımından da mühüm əhəmiyyət daşıyır. Torpaqdan istifadənin səmərəliliyinin artırılması kənd yerlərində məşğulluğun genişlənməsinə, fermer təsərrüfatlarının gəlirlərinin yüksəlməsinə və kənd əhalisinin rifahının yaxşılaşmasına birbaşa təsir göstərəcəkdir. İstifadəsiz və ya maneəli torpaqların yenidən dövriyyəyə cəlb olunması həm daxili bazarın yerli məhsulla təminatını gücləndirəcək, həm də ixrac potensialını artıraraq ölkəmizin qeyri-neft sektorunun inkişafına əlavə töhfə verəcəkdir.

Bu gün dünya sürətlə dəyişir, kənd təsərrüfatında innovativ texnologiyalar – pivot suvarma sistemləri, damlama üsulları, lazerlə torpaq hamarlanması kimi vasitələr geniş tətbiq edilir. Lakin nizamsız yaşıllıq örtüyü bu sistemlərin effektivliyini aşağı salır, torpaqdan rasional istifadəni çətinləşdirir, fermerlərin iqtisadi imkanlarını məhdudlaşdırır. Təklif olunan dəyişikliklər isə bu maneələri hüquqi çərçivədə aradan qaldırır.

Qeyd etməliyəm ki, layihə ekoloji prinsipləri tam şəkildə qoruyur. Ağacların götürülməsi əvvəlki qaydada ciddi nəzarət və bərpa öhdəliyi ilə tənzimlənir. Kollar üçün sadələşdirilmiş məlumatlandırma mexanizminin tətbiqi isə həm operativliyi təmin edir, həm də dövlət nəzarətini saxlayır. Bu

yanaşma sahibkar və fermer üçün çeviklik, dövlət üçün isə nəzarət balansı yaradır.

Həmçinin layihədə nəzərdə tutulan məlumatlandırma və nəzarət mexanizmləri dövlət idarəçiliyində rəqəmsallaşmanın və şəffaflığın genişləndirilməsi baxımından da müasir yanaşmadır. İnformasiya sistemləri üzərindən həyata keçiriləcək prosedurlar operativ qərarverməni təmin edəcəkdir.

Hörmətli həmkarlar, qanun layihəsi ilə bağlı bir neçə konkret təklifimi də diqqətinizə çatdırmaq istəyirəm. Yaşayış məntəqələrində təhlükə yaradan qurumuş ağacların götürülməsi, hərəkətə mane olan iri ağacların budanması və götürülməsi üzrə razılaşdırma mexanizmlərinin sadələşdirilməsi, vətəndaşların xüsusi mülkiyyətində olan yaşıllıqlarla bağlı hüquqlarının daha aydın tənzimlənməsi, eləcə də vətəndaşların xüsusi mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqlarda zamanla formalaşmış iri gövdəli meşə cinsli ağac massivlərinin həmin torpaqların məqsədli istifadəsinə ciddi maneə törətdiyi nəzərə alınaraq, əsaslandırılmış müraciətlər əsasında qanunvericilikdə müəyyən edilmiş qaydada götürülməsinə icazə verilməsi mexanizminin tətbiq edilməsi, habelə nəzarətsiz mal-qara təsirlərinə qarşı məsuliyyət tədbirlərinin sərtləşdirilməsinin qanun layihəsində nəzərə alınması qanunun tətbiq effektivliyinin daha da artırılmasına imkan yaradar.

Hesab edirəm ki, təqdim olunan qanun layihəsi həm hüquqi, həm iqtisadi, həm də strateji baxımdan müasir dövrün tələblərinə cavab verən mühüm addımdır.

Mən bu qanunda dəyişiklikləri tam dəstəkləyir və həmkarlarımı da qanunun lehinə səs verməyə çağırıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Asif müəllim.

Əziz Ələkbərov. Buyurun.

**Əziz Ələkbərov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Burada həmkarlarım qanun layihəsinin kənd təsərrüfatı ilə bağlı məqamlarına xüsusi ilə diqqət çəkdilər. Mən isə qanun layihəsinin digər tərəfi barədə danışmaq istəyirəm. Əvvəla, deyim ki, bu gün müzakirəmizə təqdim olunan "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda təklif edilən dəyişiklik builki "Şəhərsalma və Memarlıq İli"ndə çox böyük əhəmiyyət kəsb edir və çox böyük zərurətdən irəli gəlir. Fikrimə aydınlıq gətirmək üçün mən ilk növbədə qanun layihəsində "yaşıllıqların götürülməsi" anlayışına verilən düzəlişi qeyd etmək istəyirəm. Bu qanunda əvvəl "yaşıllıqların götürülməsi" anlayışı ağac, kol və digər bitkilərin yerinin dəyişdirilməsinə və ya bərpa edilməsi şərti ilə kəsilməsinə yönəlmiş tədbir kimi izah olunurdu, heç bir halda ağacın kökündən kəsilməsinə imkan vermirdi. Bu da bu və ya digər zəruri səbəbdən kəsilməsi vacib və qaçılmaz olan ağacların kəsilməsini yolverilməz etməklə tərəfləri – həm yerli icra və bələdiyyə orqanlarını, həm Bakı şəhər Yaşıllaşdırma Təsərrüfat Birliyini, həm də yaşıllıqların götürülməsinə rəy verən Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyini çıxılmaz vəziyyətdə qoyurdu. Şəhərsalma və tikinti qaydalarına zidd olaraq əkilmiş ağacların, dövlət ehtiyacları üçün alınmış ərazilərdəki ağacların, qurumuş və ya müalicəsi mümkün olmayan xəstə ağacların, kənd təsərrüfatı fəaliyyətinə mane olan ağacların, təbii xarakterli fövqəladə hallarda xəsarət alan ağacların və ilaxır kəsilməsi ehtiyacı yaranırdı.

Mən bir misal çəkim. Son illərdə çoxillik Eldar şamları arasında müalicəsi mümkün olmayan xəstəliyin yayılması ilə bağlı şəhər və rayon

parklarında xeyli ağacların qurumasına baxmayaraq, onları kəsməyə heç kəs cəsarət etmirdi və qısa vaxtda xəstəlik digər ağaclara da keçmiş oldu.

Digər bir fakt. Yaşıllıq zonalarında tamamilə qurumuş ağaclar var ki, onları kəsib götürməyə heç bir qurum cəsarət etmir. Gözləyirlər ki, ağac özü çürüyüb düşsün. İndi müzakirə etdiyimiz qanun layihəsində isə “yaşıllıqların götürülməsi” anlayışına ağac, kol və digər bitkilərin yerinin dəyişdirilməsi və bərpa edilməsi şərti ilə kəsilməsi ilə yanaşı, bərpa edilmədən kəsilməsi məzmununun da əlavə edilməsi qanundakı mövcud boşluğu tamamilə aradan qaldırmış olur. Ona görə də mən bu dəyişikliyi son dərəcə zəruri hesab edirəm və qanun layihəsinin qəbuluna səs verəcəyəm.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Sonuncu çıxış. Erkin Qədirli. Buyurun.

**Erkin Qədirli**. Çox sağ olun, hörmətli xanım sədr. Mən sözü anlayışlarla bağlı gedən çox maraqlı müzakirəyə görə istədim. Hüquq nəzəriyyəsində, qanunvericilik texnikasında, eləcə də məhkəmə təcrübəsində, onun şərh hissəsində, əslində, çoxdan geniş və dərin işlənmiş bir mövzudur. Bəlli olur ki, qanunvericilikdə istifadə olunan anlayışlar, verilən istilahlar ümumi danışıq dilində, izahlı lüğətdə, hətta elmi terminologiyada göstərilən mənada işlənməsin, onların arasında uyğunsuzluq yaransın. Elə ona görə də qanunlarda hər zaman o əsas anlayışlar verilən hissədə xüsusi olaraq vurğulanır ki, bu, məhz bu qanunun məqsədləri üçün verilən bir anlayışdır. Ümumi dildə və yaxud onun izahlı lüğətində verilən anlayışı nəinki ləğv etmir, onu heç əvəzləmir də.

Ümumi danışıq dilində insanlar istədikləri sözü oturuşmuş anlamda istifadə edə bilərlər. Hətta bunun çeşidli ölkələrdə örnəkləri də var. Məsələn, dərsliklərdə ən maraqlı, çox istifadə olunan məhkəmə işlərindən biri Amerika Birləşmiş Ştatlarında Federal Məhkəmədə olmuş bir işdir, əslində, çoxdanın işidir. Amma bu günə qədər o qərar qüvvədədir. Təsəvvür edin, XIX yüzilliyin sonunda "pomidor" anlayışı ilə bağlı Federal Məhkəmədə qərar olmuşdu. Çünki orada gömrük qanunvericiliyində idxal olunan məhsullarla bağlı bir mübahisə yaranmışdı, orada pomidor göstərilməmişdi. Daha doğrusu, ümumi danışıq dilində pomidor hər zaman tərəvəz sayılmışdı, amma iddiaçı hesab etdi ki, pomidor axı, botanika elmində giləmeyvədir. Giləmeyvələr isə idxal rüsumuna məruz qalmırdı. Amma ondan idxal rüsumu almaq istəyirdilər və alırdılar. Ali Məhkəmə də dedi, baxmayaraq ki, botanika elmində pomidor giləmeyvə sayılır, ümumi danışıq dilində bu, tərəvəz sayıldığından, məhz qanunvericilikdə o anlamda istifadə olunduğu nəzərə alınmalıdır və məhkəmə şərhi o cür verdi.

Bunu həm də ona görə deyirəm ki, çeşidli zamanlarda belə müzakirələr açılır və onların açılması da normaldır. Bu, əslində, bizim anlayışlarımızı da zənginləşdirir, hüquqşünaslara da əlavə bir fürsət verir ki, bu məsələdə arqumentlərini gətirə bilsinlər. Burada verilən anlayışlarda mən heç bir problem görmürəm. Əlbəttə ki, ümumi danışıq dilində, bədii dildə, dilimizin izahlı lüğətində fərqli anlayış verilmiş olsa belə, həmin o anlayış da istifadə olunacaq. Amma məhz bu qanunun məqsədləri üçün həmin anlayış tam yerindədir və düzgündür.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Erkin müəllim. Tamamilə düzdür.

Tahir Rzayev. Buyurun.

**Tahir Rzayev**. Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, mən çıxış edən deputatların hər birinə öz təşəkkürümü bildirirəm. Öz təkliflərini verdilər və Siz də xatırlatdınız ki, bu yaşıllıqların götürülməsi bilavasitə kənd təsərrüfatı təyinatlı torpaqlara aiddir. Ancaq deputat həmkarlarımızın çoxu ümumi yaşıllıqlardan danışdılar, problemlərdən danışdılar. Burada Qüdrət Həsənquliyev bu "irad" ifadəsinə öz münasibətini bildirdi. Hörmətli Əli müəllimlə biz bir daha buna baxarıq. Əgər başqa formada olarsa, biz ikinci oxunuşda bunu məruzə edərik.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim.

Həmkarlar bu məsələni qaldırdılar, bəli, yaşıllıqla bağlı, eybi yoxdur. Mən, sadəcə, onu vurğuladım ki, bu qanun layihəsində dəyişikliyin məqsədi ancaq kənd təsərrüfatı torpaqları ilə bağlıdır. "İrad" sözünə gəlincə, Tahir müəllim, Qüdrət Həsənquliyev bunu dedi, ancaq o, əslində, ikinci oxunuşun məsələsidir. Ona görə Siz ikinci oxunuşun tələblərinə uyğun buna baxarsınız. Ancaq düz deyir, qanunda "irad" sözü nə qədər düzgündür, bilmirəm.

Bu gün bu məsələnin müzakirəsi uzun çəkdi. Sadiq müəllim, buyurun.

**Sadiq Qurbanov**. Dəyərli Sahibə xanım, bir daha çox sağ olun. Mən də bütün deputat həmkarlarıma təşəkkür edirəm. Buradan, sadəcə olaraq, bir neçə məqamı demək istəyirəm. Məhz bizim hörmətli həmkarımız Azər Badamov çox yerində dedi ki, fermerlər əkdiyi ağacları kəsə bilmirlər. Mən demək istəyirəm ki, bununla bağlı artıq məsələ var, deyəsən, qanun hazırda razılaşdırma mərhələsindədir. Yəni, bəli, bizim qanunumuzda

"sənayedə istifadə üçün ağaclar" anlayışı yoxdur. O, yeni anlayış olacaq və yəqin ki, ondan sonra bu məsələ öz həllini tapacaq.

İkincisi, burada şəhərsalma və tikinti ilə bağlı o qaydalara zidd olan ağacların əkilməsi məsələsi qaldırıldı. 13.1.3-cü maddədə. Xüsusi olaraq deyim ki, burada bir çox hallarda sui-istifadələr də olurdu. Yəni konkret olaraq indi desəm, bəlkə yaxşı səslənməz. Bir çox adam görülən müəyyən işə maneçilik törətmək üçün gecə ilə gəlib, tutaq ki, bir ağac əkib həmin sahədə, şəklini çəkib, sonradan onun götürülməsi məsuliyyət yaradırdı. Yəni bu kimi halların qarşısını almaq üçün də bu maddə ora daxil olunub.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Erkin müəllim, yenə də nə ilə isə bağlı... Buyurun.

**Erkin Qədirli**. Mən çox üzr istəyirəm, bayaq söz alanda unutdum. "İrad" sözü ilə bağlı. Burada, əslində, bir problem yoxdur. Çünki "irad" sözü sənədin tərtibatına aid olunur. Bu, qadağa deyil, onsuz da 13-cü maddənin beşinci hissəsində son cümlədə aydın yazılıb ki, "yaşıllığın götürülməsi vərəqi olmadan yaşıllığın götürülməsi qadağandır". Burada irad yalnız sənədin tərtibatına aid olunan bir sözdür ki, qadağa anlamına gəlmir. Ərizəçi iradı nəzərə alıb yenidən müraciət edə bilər.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Mən bilmirəm, təbii ki, deyə bilmərəm, indi bir az öz vəzifəmdən kənara çıxıram. "İrad" sözü ancaq insanın xarakterindən irəli gələn bir şeydir. Kim isə irad bildirə bilər, kim isə yox. Bilmirəm.

Hörmətli həmkarlar, biz müzakirəni qurtardıq. İndi, buyurun, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz növbəti məsələyə keçirik. "Diplomatik xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun, komitənin sədri kimi məlumat verin.

**Əli Hüseynli**. Çox sağ olun, hörmətli sədr. Hörmətli həmkarlar, bilirsiniz ki, biz keçən il "Diplomatik xidmət haqqında" Qanunu parlamentdə çox geniş müzakirə etdik. Cənab Prezident tərəfindən çox mükəmməl bir qanun təqdim olunmuşdu. Bir çox məsələlərə, diplomatik fəaliyyətə yeni, müasir baxış idi, qəbul edildi. Amma bir müddət sonra biz "Dövlət qulluğu haqqında" Qanunda da bir paket dəyişiklik etdik və məhz buna görə də yeni təqdim olunan layihə dövlət qulluqçusuna və onun vərəsələrinə hesablanmış dövlət məvacibinin ödənilməsi, dövlət qulluqçularının əməyinin ödənilməsi sisteminin yenidən formalaşdırılması istiqamətində bizim etdiyimiz dəyişikliklərə uyğun olaraq, diplomatik xidmətin xüsusiyyətlərini də nəzərə alır. Əminəm ki, zamanında diplomatik xidmətdə çalışmış indiki həmkarlarım bu detalları yaxşı bilirlər. Hesab edirik ki, qanunvericiliyin unifikasiyası baxımından bu, çox əhəmiyyətli bir layihədir. Həmkarlarımdan da dəstəkləmələrini xahiş edirik.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Hörmətli həmkarlar, qanun layihəsinə ikinci komitədə – Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. Komitənin rəyini bildirmək üçün mən komitə sədri hörmətli Səməd Seyidova söz verirəm. Səməd müəllim, buyurun, komitənin rəyini bildirin.

**Səməd Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, əslində, Əli müəllim qanunun mahiyyəti və fəlsəfəsi haqqında danışdı. Doğrudan da, biz "Diplomatik xidmət haqqında" çox gözəl Qanun qəbul etmişik. Bu gün bu dəyişikliklər bizim diplomatlarımızın fəaliyyətini tamamilə yeni bir mərhələyə yüksəldir. Ona görə komitəmiz bunu yalnız dəstəkləyir və həmkarlarımdan müsbət rəy bildirmələrini xahiş edirəm.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim.

Hörmətli həmkarlar, təklif var ki, səsə qoyaq. Mən də düşünürəm ki, vaxtilə bu məsələyə biz kifayət qədər münasibət bildirmişdik. Kim yazılıbsa, xahiş edirəm...

İndi baxıram, Günay xanım bir az təəccüblə deyir ki, nəyə... Kim yazılıbsa, çıxışının mətnini yazılı şəkildə katibliyə versin, stenoqrama düşəcək. Çox sağ olun. Gəlin məsələyə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.44 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir 103
Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə 4 məsələ qalır və bu məsələlərin hamısı ikinci oxunuşda olan qanun layihələridir. İndi biz 5-ci məsələyə keçirik və bu məsələ "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Arzu Nağıyevə söz verirəm. Arzu müəllim, buyurun.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli həmkarlar, media nümayəndələri, təklif edilən qanun layihəsi "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun təkmilləşdirilməsi məqsədi ilə hazırlanmışdır.

Məlum olduğu kimi, hərbi qulluqçular xidməti vəzifələrini yerinə yetirərkən müxtəlif risklərlə üzləşirlər. Xidməti fəaliyyətlə əlaqədar döyüş əməliyyatlarında, digər fövqəladə hallarda bunlar xəsarətalma, yaralanma, travma, kontuziya və digər hallarla üz-üzə gələ bilərlər. Belə vəziyyətdə hərbi qulluqçuların şəxsiyyətinin operativ qaydada müəyyən edilməsi və onlara vaxtında və düzgün tibbi yardımın göstərilməsi, xüsusi ilə qan qrupu barədə məlumatların mövcudluğu çox ciddi həyati əhəmiyyət daşıyır. Bu baxımdan hərbi qulluqçuların beynəlxalq təcrübədə geniş tətbiq edilən və effektivliyini sübut etmiş mexanizmdən, fərdi identifikasiya ilə təmin olunma

üsulundan istifadəsinə zərurət vardır. Bu məsələnin həlli üçün birinci oxunuşda da qeyd edildiyi kimi, qanunvericiliyə “şəxsi jeton” anlayışının gətirilməsi və ondan istifadə qaydalarının əlavə edilməsi təklif edilir.

Digər məsələ, “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda çağırışaqədərki hazırlıq sahəsində hüquqi tənzimlənmənin təkmilləşdirilməsi məqsədi ilə 9.4-cü maddənin əlavə edilməsi təklif olunur. Qeyd etmək istərdim ki, birinci oxunuşda hər hansı əlavə olmamışdır. Eləcə də təqdim olunan layihədə bir sıra texniki xarakterli dəyişikliklər təklif edilmişdi. Layihə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində müzakirə edilib, ikinci oxunuş üçün təqdim olunur. Bir daha qeyd edirəm, birinci oxunuşda əlavə rəy və təklif olmamışdır. Səs verməyinizi xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Arzu müəllim.

Hörmətli həmkarlar, ikinci oxunuşdur, bildiyiniz kimi, biz qanun layihəsinə əsas kimi münasibət bildirməliyik. Xahiş edirəm, indi qanun layihəsinə əsas kimi münasibət bildirin. Buyurun, səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.47 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Heç kim yazılmayıb. Ona görə səsverməyə keçirik.

Hörmətli həmkarlar, bu qanun layihəsində 2 maddə var. Mən onları bir-bir səsə qoyacağam. Xahiş edirəm, indi 1-ci maddəyə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.48 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi, çox sağ olun.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.48 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.49 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi. Çox sağ olun.

Bizim növbəti məsələmiz "Vətəndaşların müraciətləri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə İnsan hüquqları komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Zahid Oruca söz verirəm. Zahid müəllim, buyurun.

**Zahid Oruc**. Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri. "Vətəndaşların müraciətləri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin birinci oxunuşunda 4 nəfər millət vəkili çıxış etmiş, əsasən, layihəni müdafiə etmişdilər. Bir neçə təklif səslənmişdi. İkinci oxunuşun da yekununu gözləyib, yəqin ki, ona reaksiyamızı bildirəcəyik. Layihə indiki vəziyyətdə səsə qoyula bilər.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, ikinci oxunuşdur. Bilirsiniz ki, qanun layihəsini hələ əsas kimi qəbul etməliyik. Xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.50 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

Qanun layihəsi əsas kimi qəbul edildi.

Bir deputat yazılıb. Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov**. Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Vaxta qənaət etmək üçün mən maddələr üzrə təkliflərimi təqdim etmək istərdim. Qanun layihəsinin 3.0.12-ci maddəsində elektron müraciətin izahatı qeyd olunur. Yeni təklif olunan layihəyə əsasən müraciətlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsi ilə təqdim olunması qanunvericiliyə daxil edilib. Eyni zamanda, mən təklif etmək istərdim, bu maddədə daha məqsədəuyğun olardı ki, "subyektin və ya onun vəzifəli şəxsinin elektron ünvanına göndərilir" sözləri "rəsmi elektron ünvanına göndərilir" sözləri ilə əvəz olunsun. Çünki nəzərə asaq ki, vəzifəli şəxsin bir neçə email ünvanı ola bilər və onun rəsmi olmayan email ünvanına göndərilən müraciət, əslində, vətəndaşın müraciəti kimi qeydə alına bilməz. Bu, digər ölkələrin praktikasında da tətbiq olunur. Ona görə təklif etmək istərdim ki, "rəsmi elektron ünvanına göndərilir" sözləri qeyd olunsun.

Qanun layihəsinin 6.4-cü maddəsində vətəndaşın müraciətinin cavablandırılması formasının onun müraciət formasına uyğun olması daha məqsədəuyğun olardı. Yəni əgər vətəndaş elektron olaraq müraciət edibsə, dövlət qurumu tərəfindən həmin vətəndaşın müraciətinə elektron cavabın təqdim olunması daha məqsədəuyğundur.

Qanun layihəsinin 6.8-ci maddəsində qeyd edilir ki, "elektron sənəd formasında göndərilən müraciət təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq olunmalıdır". Mən təklif etmək istərdim ki, elektron imza ilə yanaşı, eyni zamanda, "Asan imza" da ayrıca olaraq bu maddədə qeyd olunsun. Çünki nəzərə almaq lazımdır ki, yalnız 2025-ci ildə 512 mindən çox "Asan imza" sertifikatı verilib. Yəni bu baxımdan, təbii ki, hətta "Asan imza" elektron imza olsa belə, "Asan imza"nın bu maddədə ayrıca olaraq

qeyd olunması və "Asan imza" sahiblərinin müraciət edən zaman öz imzalarını "Asan imza" ilə təsdiq etmələri məqsədəuyğundur.

Qanun layihəsinin 7.6-cı maddəsində qeyd olunur ki, elektron müraciət edən şəxsə cavabın təqdim edilməsi forması göstərilməyəndə ona cavab poçt vasitəsi ilə göndərilir. Yəni müzakirə etdiyimiz dəyişikliklərə əsasən əgər vətəndaş elektron olaraq müraciət edibsə, amma cavabın hansı formada təqdim olunmasını seçməyibsə, o zaman həmin cavab dövlət qurumu tərəfindən vətəndaşa poçt vasitəsi ilə təqdim olunur. Dünya praktikasında da vətəndaşın müraciət formasına uyğun olaraq, cavab təqdim olunur. Yəni əgər vətəndaş dövlət qurumuna elektron müraciət edibsə, o zaman elektron cavab təqdim olunur, poçt vasitəsi ilə müraciət edibsə, poçt vasitəsi ilə cavab təqdim olunur. Ona görə də 7.6-cı maddədə təklif etmək istərdim ki, məhz dövlət qurumu tərəfindən cavab vətəndaşın seçdiyi müraciət formasına uyğunlaşdırılsın.

Qanunun 10.2-ci maddəsində vətəndaşların müraciətinə baxılma müddəti müəyyən olunur və ən gec 15 iş günü, bəzi hallarda isə 30 iş günü ərzində dövlət qurumu tərəfindən cavabların göndərilməsi qeyd olunur. Amma nəzərə alaq ki, bu müddətlər 2015-ci ildə müəyyənləşib və ötən müddət ərzində biz rəqəmsallaşmanı və eyni zamanda, elektron xidmətlərdən daha çox istifadəni müşahidə edirik və elektron məlumatlar indi inteqrasiya olunub. Ona görə də təklif etmək istəyirəm ki, qanunun 10.2-ci maddəsində vətəndaşların müraciətlərinə baxılma müddətinə baxılsın və elektronlaşma nəzərə alınmaqla, bu istiqamətdə azaldılmaların tətbiq edilməsi məqsədəuyğun olardı. Nəticədə, bu, vətəndaşlarımızın müraciətlərinin dövlət qurumları tərəfindən daha qısa müddətdə cavablandırılmasına imkan yarada bilər.

Bir daha təşəkkür edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Vətəndaşlar, əslində, elə bizim seçicilərimizdir, hamının imkanı varmı, emaillə göndərsin və yoxlasın? Bu, bir. İkinci də belə bir alternativ, təcrübə olsun ki, cavabı həm də poçtla alsın. İndi elə də ola bilər. Mən düşünürəm, bütün seçicilərin, yəni vətəndaşların elə imkanı yoxdur ki, emaillə müraciət etsinlər. Yazılı formada da ola bilər. Ancaq Siz tamamilə düz deyirsiniz, daha mütərəqqi və uyğunlaşdırma da ola bilər. Hansı formada alıbsa, kiminsə imkanı var, kiminsə yoxdur şikayətini emaillə göndərməyə, ona görə alternativ ola bilər. Çıxışınıza görə çox sağ olun.

Hörmətli həmkarlar, biz qanun layihəsinin səsverməsinə keçirik. Maddələr üzrə səs verəcəyik. Bu layihədə 5 maddə var, mən onların üçünü bir, ikisini bir səsə qoyacağam. Buyurun, ilk 3 maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.55 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr qəbul edildi.

4-cü, 5-ci maddələri səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.55 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə qanun layihəsini mən ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.56 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin son iki məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə də bir-birinə bağlıdır. 7-ci məsələ Maliyyə icarəsi haqqında qanun layihəsidir. 8-ci məsələ isə Mülki Məcəllədə və digər iki məcəllədə, “Müflisləşmə və iflas haqqında” Qanunda və daha 21 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Odur ki, hörmətli həmkarlar, həmişə olduğu kimi, mən təklif edirəm, biz əvvəlcə qanun layihələrinin təqdimatlarını dinləyək, daha sonra onları birlikdə müzakirə edək, sonra isə onlara ayrılıqda səs verək.

Hər iki qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Ona görə də komitənin sədri hörmətli Azər müəllim Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun, iki qanun layihəsi haqqında bizə məlumat verin.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Maliyyə icarəsi haqqında qanun layihəsi ikinci oxunuş üçün Milli Məclisin plenar iclasına təqdim olunur.

Layihənin mahiyyəti və məqsədi, konseptual əsasları barədə birinci oxunuş zamanı geniş məlumat verilmişdir. Həmçinin deputat həmkarlarımız tərəfindən layihəni dəstəkləyən çıxışlar edilmiş, onun əhəmiyyəti xüsusi vurğulanmışdır. Layihə barədə bəzi təkliflər və opponent qeydləri də səsləndirilmişdir. Bütün çıxışlara görə hörmətli həmkarlarımıza bir daha təşəkkür edirik.

Qaldırılan məsələlərə ötən plenar iclasda tərəfimizdən münasibət bildirilmiş və komitənin qərarı ilə layihə ikinci oxunuşda plenar iclasın müzakirəsinə tövsiyə edilmişdir. Həmkarlarımız tərəfindən haqlı olaraq gələcəkdə maliyyə icarəsi fəaliyyəti üçün geniş güzəştlər paketinin tətbiq olunması, maliyyə bazarının subyekti üzrə maarifləndirmə işlərinin aparılması təklif edilmişdir. Hesab edirik ki, həm hökumət, həm də Mərkəzi Bank bu məsələləri diqqət mərkəzində saxlayacaqdır.

Hörmətli həmkarlar, bir daha qeyd etmək istərdik ki, maliyyə icarəsi bank kreditlərinə alternativ kimi çıxış edir. Maliyyə bazarında rəqabəti gücləndirir, kapitalın real sektora yönəlməsini təmin edir. Hesab edirik ki, qanun layihəsinin qəbul edilməsi milli iqtisadiyyatın maliyyələşdirilməsi mənbələrinin şaxələndirilməsinə, sahibkarlığın maliyyə təminatının genişləndirilməsinə, investisiya aktivliyinin yüksəlməsinə öz töhfəsini verəcəkdir.

Uyğunlaşma xarakterli növbəti qanun layihəsi barədə də birinci oxunuşda geniş məlumat verilmişdir. Bu, Maliyyə icarəsi haqqında qanun layihəsinin məntiqi davamı olmaqla, həm də maliyyə lizinqi institutunun hüquqi sistemə inteqrasiyasını təmin edən mühüm normativ paket kimi çıxış edir.

Hörmətli xanım sədr, hörmətli həmkarlar. Qeyd edilənləri nəzərə alaraq, layihənin ikinci oxunuşda da müzakirəsini və qəbul edilməsini məqsədəuyğun hesab edirik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, yadınızdadırsa, 8-ci məsələyə 3 komitədə də baxılmışdır. Birinci komitə Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir. Komitənin rəyini bildirmək üçün, Əli müəllim, yenə də Sizə söz verirəm. Buyurun.

**Əli Hüseynli.** Çox sağ olun. Hörmətli Sahibə xanım, birinci oxunuşda da qeyd etmişdik. Yeni qanunun təqdimatı ilə bağlı komitənin profilinə uyğun olaraq, bir neçə qanuna və məcəlləyə uyğunlaşdırma xarakterli əlavələr və düzəlişlər edilir. Təbii ki, bizim rəyimiz müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun.

Aqrar siyasət komitəsinin rəyini bildirmək üçün, hörmətli Tahir müəllim, Sizə söz verirəm. Buyurun.

**Tahir Rzayev.** Çox sağ olun, hörmətli sədr. Qanunda edilmiş dəyişikliklər komitənin iclasında müzakirə olunmuşdur. Komitənin rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Elm və təhsil komitəsində də baxılıb. Anar müəllim bu gün yoxdur. Komitə sədrinin müavini hörmətli Fariz müəllim İsmayılzadəyə söz verirəm. Buyurun.

**Fariz İsmayılzadə,** *Milli Məclisin Elm və təhsil komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, təqdim olunan qanun layihəsi Elm və təhsil komitəsində müzakirə olunmuş və dəstəklənmişdir. Əlavə təkliflər daxil olmamışdır. Səsə qoymağı xahiş edirik. Təşəkkürlər.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, bu qanun layihələrini əvvəlcə əsas kimi qəbul etməliyik. Mən indi 7-ci məsələdə olan qanun layihəsini əsas kimi səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.00 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 7-ci məsələdə olan qanun layihəsi əsas kimi qəbul edildi.

İndi isə mən 8-ci məsələni əsas kimi səsə qoyuram. Buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.01 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Bu qanun layihəsi də əsas kimi qəbul edildi.

İndi müzakirəyə keçirik. Heç kim yazılmayıb. Ona görə də səsverməyə keçirik.

Hörmətli həmkarlar, 1-ci qanun layihəsində – Maliyyə icarəsi haqqında qanun layihəsində 5 fəsil, 25 maddə var. Mən indi qanun layihəsini səsverməyə fəsil-fəsil qoyacağam. Xahiş edirəm, I fəsilə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.01 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Bu fəsil qəbul edildi.

İndi isə II fəsili səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 14.02 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Xahiş edirəm, III fəsilə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.02 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

IV fəsil səsə qoyulur.

| **Səsvermənin nəticələri** | (saat 14.02 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Bu fəsil də qəbul edildi.

Sonuncu, V fəsil  səsə qoyulur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.03 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Bu fəsil də qəbul edildi.

İndi isə mən Maliyyə icarəsi haqqında qanun layihəsini ikinci oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.03 dəq.) |
|---|---|
| Lehinə | 103 |

| | |
|---|---|
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti qanun layihəsinin səsverməsinə keçirik. Hörmətli həmkarlar, bu qanun layihəsində 26 maddə var. Mən onları beş-beş səsə qoyacağam. Sonra orada 1 maddə qalacaq. Buyurun, ilk 5 maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.04 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi.

İndi isə növbəti 5 maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.04 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

Sonrakı 5 maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.04 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Bunlar da qəbul edildi.

Sonda, əslində, 6 maddə qalır. Elə 6 maddənin hamısını səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.05 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Son 6 maddə də qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Xahiş edirəm, münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.05 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim iclasımız başa çatdı. Hamıya təşəkkür edirəm. Növbəti iclasın vaxtı sizə deyiləcək.

Sağ olun.

## EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

*12 may 2026-cı il*

**Anar Məmmədov.** Bu gün biz Azərbaycan dövlətçiliyinin xilaskarı, müasir tariximizin qurucusu, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünü böyük ehtiramla qeyd edirik.

Heydər Əliyev şəxsiyyəti, sadəcə, bir dövlət xadimi deyil, o, Azərbaycan xalqının milli kimliyini, mədəniyyətini və müstəqilliyini yox olmaq təhlükəsindən qurtaran bir dahidir. Onun uzaqgörən siyasəti sayəsində Azərbaycan ötən əsrin 90-cı illərindəki xaosdan xilas olaraq bu gün bütün dünyanın hesablaşdığı güclü bir dövlətə çevrilmişdir.

Müasir Azərbaycan dövlətinin gender siyasəti, gənclər siyasəti və milli ailə modelinin qorunması məhz Ulu Öndərin müəyyən etdiyi strateji xətt üzərində dayanır. O, hər zaman vurğulayırdı ki, qadınların cəmiyyətdəki rolu və gənclərin milli ruhda tərbiyəsi dövlətin sarsılmaz təməlidir. Bu gün biz parlamentdə qadınların təmsilçiliyinin artmasını, gənclərimizin qlobal arenada qazandığı uğurları görürüksə, bu, Ulu Öndərin əsasını qoyduğu siyasi kursun təntənəsidir.

Bu kursu uğurla davam etdirən müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı özünün ən böyük zirvəsinə — ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasına nail olub. Bu gün Şuşada, Xankəndidə, Laçında dalğalanan bayrağımız Heydər Əliyevin ən böyük vəsiyyətinin və ən ali arzusunun reallaşmasıdır.

Heydər Əliyevin irsi təkcə keçmişimizə deyil, həm də gələcəyimizə işıq salan bir mayakdır. Onun “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!” fəlsəfəsi hər birimiz üçün vətənpərvərlik nümunəsidir.

Dahi liderin əziz xatirəsini bir daha ehtiramla yad edir, onun ideyalarına sadiqliyimizi bir daha bəyan edirik.

**Asif Əsgərov.** İki gün öncə ölkəmiz müasir dövlətçiliyimizin banisi, dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünü böyük qürur hissi ilə qeyd etdi. Ulu Öndərin müəyyənləşdirdiyi strateji kurs bu gün Azərbaycanın qlobal arenadakı sarsılmaz mövqeyinin təməl daşıdır. Ümummilli Liderin ən böyük arzusu olan ərazi bütövlüyümüzün bərpası və Şuşada dalğalanan üçrəngli bayrağımız bu gün onun ruhuna ən böyük ehtiramdır.

Ulu Öndərin təməlini qoyduğu milli tərəqqi xətti bu gün Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə özünün ən parlaq, ən möhtəşəm dövrünü yaşayır. Azərbaycan artıq qlobal geosiyasi proseslərdə söz sahibi olan, beynəlxalq münasibətlərin arxitekturasını, həm də sülh gündəliyini formalaşdıran bir güc mərkəzinə çevrilmişdir.

Bu strateji üstünlüyün ən bariz və qürurverici nümunəsi Ermənistanda keçirilən “Avropa Siyasi Birliyi”nin 8-ci Zirvə Toplantısı zamanı şahidi olduğumuz diplomatik zəfərdir. Cənab Prezidentin bu sammitə videobağlantı formatında qoşularaq etdiyi çıxış mahiyyət etibarı ilə Azərbaycanın mütləq iradəsinin təntənəsi və diplomatiya tariximizin növbəti parlaq səhifəsidir. Beynəlxalq ictimaiyyətin, bütün Avropa liderlərinin gözü qarşısında dövlət başçımız Cənubi Qafqazın gələcək mənzərəsini çəkdi,

Ermənistanın ev sahibliyi etdiyi bir platformada Azərbaycanın haqlı mövqeyini, beynəlxalq hüquqa söykənən sülh prinsiplərini bütün Avropa liderlərinin diqqətinə çatdırdı. Bu çıxış Azərbaycanın intellektual və diplomatik üstünlüyünün, regional proseslərdəki diktəedici rolunun nümayişi idi.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki strateji rolu ikitərəfli əlaqələrimizdə də özünü qabarıq göstərir. İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloninin ölkəmizə reallaşan tarixi səfəri bu münasibətlərin strateji tərəfdaşlıq zirvəsində olduğunu təsdiqlədi. İtaliya kimi Avropanın aparıcı dövləti ilə qurduğumuz enerji və iqtisadi körpülər Azərbaycanın qitənin enerji təhlükəsizliyində “əvəzolunmaz strateji tərəfdaş” statusunu bir daha möhkəmləndirdi.

Eyni zamanda, Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın Bakıya səfəri və aparılan müzakirələr göstərir ki, Brüssel Azərbaycanı Cənubi Qafqazın əsas sabitlik sütunu və mühüm nəqliyyat qovşağı – “Orta Dəhlizin strateji mərkəzi” kimi qəbul edir. Dövlətimizin yürütdüyü müstəqil xarici siyasət, milli maraqlara söykənən prinsipiallıq Qərbin ən nüfuzlu diplomatlarının Bakıya gələrək regionun gələcəyini məhz ölkəmizlə müzakirə etməsini şərtləndirir.

Bütün bu qələbələr təsadüf deyil. Bu uğurlar, həm hərbi meydanda, həm diplomatik masada, həm də iqtisadi platformalarda əldə olunan nailiyyətlər tək bir həqiqətin – güclü lider İlham Əliyev qətiyyətinin təzahürüdür.

Bu gün Azərbaycan Bayrağı bütün azad edilmiş torpaqlarımızda dalğalandığı kimi, dövlətimizin nüfuzu da ən mötəbər paytaxtlarda eyni

əzəmətlə qəbul edilir. Ulu Öndərin bizə əmanət etdiyi bu müstəqil dövləti cənab İlham Əliyev dünyanın ən nüfuzlu zirvələrinə daşımışdır. Ulu Öndərin ruhu şaddır ki, onun qurub-yaratdığı Azərbaycan bu gün tarixinin ən qüdrətli dövrünü yaşayır.

***

Azərbaycan dövləti bu gün öz tarixinin ən mühüm və strateji mərhələlərindən birini yaşayır. Müasir dövlətçiliyimizin banisi Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünü qeyd etdiyimiz bu günlərdə Ulu Öndərin müəyyən etdiyi inkişaf kursu ölkəmizin həm daxili, həm də xarici siyasətində özünün ən yüksək nəticələrini verməkdədir.

Ümummilli Liderin təməlini qoyduğu milli tərəqqi xətti bu gün Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanı qlobal proseslərin həlledici iştirakçısına çevirmişdir. Lakin dövlətimizin beynəlxalq müstəvidəki nüfuzu yalnız diplomatik uğurlarla deyil, həm də azad edilmiş ərazilərdə həyata keçirilən misilsiz quruculuq işləri ilə möhkəmlənir.

Məhz bu baxımdan dövlət başçısı cənab İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bu günlərdə Cəbrayıl və Zəngilan rayonlarına reallaşan səfərləri xüsusi strateji əhəmiyyət kəsb edir. Cəbrayılda təməli qoyulan yeni yaşayış massivləri və Zəngilanda ucalan müasir infrastruktur layihələri Azərbaycanın Böyük Qayıdış proqramını hansı yüksək sürətlə və dəqiqliklə icra etdiyinin əyani sübutudur. Bu səfərlər zamanı açılışı edilən hər bir infrastruktur dövlətimizin iqtisadi müstəqilliyinin və daxili resurslarımızın qüdrətinin göstəricisidir.

Bu quruculuq işləri təkcə fiziki bərpa prosesi deyil, həm də regionda yeni bir iqtisadi ekosistemin formalaşdırılmasıdır. Cəbrayılda və Zəngilanda tətbiq olunan müasir texnoloji imkanlar və sənaye zonalarının yaradılması azad edilmiş torpaqlarımızın ölkənin ümumi iqtisadiyyatına sürətli inteqrasiyasını təmin edir. Dövlət başçısının bu rayonlara səfərləri çərçivəsində verdiyi tapşırıqlar həm yerli, həm də beynəlxalq investorlar üçün regionun nə qədər təhlükəsiz və perspektivli bir mərkəz olduğu barədə aydın bir mesajdır.

Zəngilanın regionun mühüm logistik qovşağına çevrilməsi Azərbaycanın Orta Dəhliz layihəsindəki həlledici rolunu praktik olaraq təmin edir. Biz bu ərazilərdə təkcə yeni binalar inşa etmirik, həm də Avrasiyanın nəqliyyat və enerji xəritəsini yenidən formalaşdırırıq. Cənab Prezidentin işğaldan azad edilmiş ərazilərdə hər bir layihənin icrasına şəxsən nəzarət etməsi milli maraqlara söykənən prinsipiallığımızın və bu torpaqlarda suverenliyimizin sarsılmazlığının bəyanatıdır.

Məhz bu daxili güc və qətiyyət Azərbaycanın xarici siyasətində də öz əksini tapır. Avropanın aparıcı dövlətlərinin rəsmilərinin Bakıya səfərləri və ölkəmizi regionun "sabitlik sütunu" kimi qəbul etmələri apardığımız genişmiqyaslı quruculuq işlərinin və diplomatik iradəmizin beynəlxalq səviyyədə etirafıdır.

Qeyd etmək istəyirəm ki, Ulu Öndərin bizə əmanət etdiyi müstəqil Azərbaycan dövləti cənab İlham Əliyevin rəhbərliyi altında daha böyük zirvələrə doğru inamla irəliləyir. Torpaqlarımızda dalğalanan üçrəngli bayrağımız və həyata keçirilən möhtəşəm layihələr Ümummilli Liderin ruhuna ən ali ehtiramdır.

**Bədəl Bədəlov.** Ulu Öndər Heydər Əliyev müasir dövlətçilik tarixində yeni mərhələnin təməlini qoyan, siyasi uzaqgörənliyi və qətiyyətli fəaliyyəti ilə seçilən görkəmli dövlət xadimi kimi yadda qalmışdır. Ümummilli Liderin idarəçilik təcrübəsi və milli maraqlara əsaslanan strategiyası xalqın taleyində həlledici rol oynamış, dövlətin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmişdir. Heydər Əliyev bütün həyatını xalqa və dövlətə sədaqətlə xidmətə həsr edərək yalnız siyasi lider deyil, həm də müasir dövlətçiliyimizin banisi kimi tarixə düşmüşdür.

Heydər Əliyevin sovet dövründəki fəaliyyəti Ulu Öndərin liderlik keyfiyyətlərinin, strateji düşüncə tərzinin və yüksək təşkilatçılıq bacarığının parlaq şəkildə təzahür etdiyi mühüm bir mərhələ olmuşdur. O, mürəkkəb və sərt idarəetmə sistemi daxilində fəaliyyət göstərərək respublikanın inkişafına yönəlmiş çoxşaxəli siyasət həyata keçirmişdir. Bu dövrdə görülən işlər yalnız cari məsələlərin həllinə deyil, həm də gələcək inkişaf üçün dayanıqlı əsasların yaradılmasına xidmət etmişdir. Ulu Öndər milli maraqları daim ön planda saxlayaraq strateji baxış nümayiş etdirmiş, müxtəlif sahələrdə reallaşdırılan islahatlarla ümumi inkişaf tempinin yüksəlməsinə şərait yaratmışdır. Onun təşəbbüsləri nəticəsində idarəçilik mexanizmləri təkmilləşdirilmiş, peşəkarlıq və məsuliyyət anlayışı dövlət idarəçiliyinin əsas prinsiplərinə çevrilmişdir. Eyni zamanda, Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti sonrakı mərhələdə müstəqil dövlət quruculuğunda mühüm rol oynamışdır. O, mürəkkəb situasiyalarda çevik qərar qəbul etmək, vəziyyəti düzgün qiymətləndirmək və uzunmüddətli nəticələri nəzərə almaq bacarığı ilə seçilərək dahi lider kimi xalqın rəğbətini qazanmışdır.

Müstəqilliyin ilk illərində ölkəmizdə yaranmış ictimai-siyasi böhran dövlətçiliyi ciddi təhlükə ilə üz-üzə qoymuşdu. Belə bir mürəkkəb və taleyüklü məqamda – 1993-cü ilin iyun ayında Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkənin xilası baxımından həlledici rol oynadı. Ümummilli Liderin qətiyyətli və ardıcıl siyasəti nəticəsində qısa müddət ərzində ictimai-siyasi sabitlik təmin edildi, qanunsuz silahlı dəstələr zərərsizləşdirildi və idarəetmədə vahid sistem yaradıldı. Sabitliyin bərqərar olunması yalnız təhlükələrin aradan qaldırılması ilə məhdudlaşmadı, eyni zamanda, dövlətin gələcək inkişafı üçün möhkəm zəmin formalaşdırdı. Bu proses cəmiyyətin bütün təbəqələrində inamın bərpasına, milli birliyin təmin olunmasına və dövlətə etimadın artmasına səbəb oldu.

1994-cü il sentyabrın 20-də imzalanan və tarixə "Əsrin müqaviləsi" kimi düşən neft sazişi ölkədə sosial-iqtisadi islahatların dərinləşməsinə və davamlı inkişafın təmin olunmasına mühüm təkan vermişdir. Bu saziş nəticəsində ölkəyə iri həcmdə xarici investisiyalar cəlb olunmuş, enerji resurslarının dünya bazarına çıxışında geniş və strateji əhəmiyyətli imkanlar yaranmışdır. Həmin strateji addım həm də dövlət müstəqilliyinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edirdi. Enerji siyasətinin uğurla həyata keçirilməsi ilə dövlətin maliyyə imkanları genişləndi, sosial layihələrin icrası sürətləndi və uzunmüddətli inkişaf strategiyası üçün möhkəm baza formalaşdı.

Ulu Öndər Heydər Əliyev müasir ordu quruculuğunu dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən etmişdi. Onun rəhbərliyi ilə vahid komandanlıq prinsipi əsasında mütəşəkkil, nizamlı və peşəkar ordu formalaşdırılmış, hərbi intizamın gücləndirilməsi, kadr hazırlığının təkmilləşdirilməsi və döyüş hazırlığının yüksəldilməsi istiqamətində ardıcıl

islahatlar həyata keçirilmişdir. Eyni zamanda, hərbi təhsil sisteminin inkişafı, zabit korpusunun peşəkarlığının artırılması və silahlı qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi dövlətin müdafiə potensialının güclənməsində mühüm rol oynamışdır. Bununla yanaşı, ordu quruculuğu sahəsində həyata keçirilən strateji xətt nəticəsində idarəetmə sistemində səmərəlilik artırılmış, hərbi strukturlar arasında koordinasiya gücləndirilmiş və müdafiə qabiliyyəti dayanıqlı əsaslar üzərində qurulmuşdur. Bu siyasət uzunmüddətli perspektivdə dövlətin təhlükəsizlik maraqlarının qorunmasına xidmət etmişdir. Sonrakı dövrdə əldə olunan hərbi uğurlar və tarixi nailiyyətlər məhz həmin strateji ordu quruculuğu xəttinin məntiqi nəticəsi kimi qiymətləndirilir və bu yanaşmanın davamlılığı müasir mərhələdə də öz əhəmiyyətini qoruyub saxlayır.

1995-ci il 12 noyabr tarixində ölkəmizdə keçirilən referendum nəticəsində Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilmişdir. Bu mühüm sənəd dövlətin idarə olunmasının əsas prinsiplərini müəyyənləşdirmiş, hakimiyyət bölgüsünü təsbit etmiş, insan hüquq və azadlıqlarının təminatını hüquqi çərçivəyə salmışdır. Konstitusiyanın qəbulu demokratik institutların formalaşdırılması, hüquqi islahatların həyata keçirilməsi və dövlət idarəçiliyində şəffaflığın təmin olunması baxımından mühüm rol oynamış, qanunvericilik sisteminin təkmilləşdirilməsi üçün baza yaratmışdır. Eyni zamanda, məhkəmə-hüquq sistemində aparılan islahatlara möhkəm hüquqi zəmin yaratmışdır. Nəticə etibarı ilə bu sənəd müasir dövlət idarəçiliyinin inkişafında strateji əhəmiyyət kəsb etmiş, hüquqi dövlət prinsiplərinin möhkəmlənməsinə və vətəndaş cəmiyyətinin formalaşmasına töhfə vermişdir.

Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatlar ölkənin bazar iqtisadiyyatına keçidini təmin etmiş, sahibkarlıq fəaliyyətinin genişlənməsi üçün hüquqi və institusional baza yaratmışdır. Həmçinin investisiya mühitinin yaxşılaşdırılması və maliyyə sabitliyinin möhkəmləndirilməsi istiqamətində mühüm nəticələr əldə olunmuşdur. Bu islahatlar nəticəsində iqtisadiyyatın müxtəlif sahələrində dinamik inkişaf meyilləri güclənmiş, özəl sektorun payı artmış və ümumi iqtisadi fəallıq yüksəlmişdir. Eyni zamanda, vergi və maliyyə sistemində aparılan təkmilləşdirmələr dövlət gəlirlərinin sabitləşməsinə və iqtisadi idarəetmənin səmərəliliyinin artırılmasına xidmət etmişdir.

Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi xarici siyasət milli maraqlara əsaslanan balanslı və praqmatik yanaşma ilə seçilir, beynəlxalq münasibətlərdə dövlətin mövqeyinin möhkəmləndirilməsinə və strateji tərəfdaşlıqların formalaşdırılmasına xidmət edirdi. Bu siyasət çərçivəsində müxtəlif ölkələrlə qarşılıqlı etimad və bərabərhüquqlu əməkdaşlıq prinsipləri əsas götürülmüş, regional və qlobal inteqrasiya proseslərində fəal iştirak təmin olunmuşdur. Ümummilli Liderin rəhbərliyi ilə dövlətimiz dünya birliyində etibarlı tərəfdaş kimi tanınmış, diplomatik əlaqələr genişləndirilmiş, müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlıq sistemli və davamlı xarakter almışdır. Nəticədə ölkənin beynəlxalq nüfuzu yüksəlmiş, siyasi və iqtisadi platformalarda mövqeləri daha da güclənmişdir. Uğurlu xarici siyasət strategiyası nəticəsində Azərbaycan qlobal və regional layihələrdə fəal iştirak edən mühüm aktora çevrilmiş, enerji, nəqliyyat və təhlükəsizlik sahələrində strateji təşəbbüslərlə çıxış etmişdir. Eyni zamanda, ölkəmiz milli maraqlarını beynəlxalq müstəvidə effektiv şəkildə müdafiə etməyə nail olmuşdur.

Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasəti uzunmüddətli strateji hədəflərə əsaslanaraq dövlətin bütün sahələrdə inkişafının dayanıqlı xarakter almasına şərait yaratmışdır. Bu siyasət nəticəsində iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun gücləndirilməsi, enerji təhlükəsizliyinin möhkəmləndirilməsi və infrastruktur layihələrinin genişləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü addımlar atılmışdır. Eyni zamanda, ordu quruculuğunun modernləşdirilməsi, müdafiə qabiliyyətinin artırılması və hərbi potensialın müasir standartlara uyğunlaşdırılması dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi inkişaf etdirilmişdir. Beynəlxalq müstəvidə isə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, strateji tərəfdaşlıqların möhkəmləndirilməsi və regional layihələrdə fəal iştirak nəticəsində xarici mövqelər daha da gücləndirilmişdir. Nəticə etibarı ilə həyata keçirilən məqsədyönlü siyasət idarəetmədə sabitliyin qorunmasına, iqtisadi dinamikanın yüksəlməsinə və ümumi inkişafın davamlılığının təmin olunmasına mühüm töhfə vermişdir.

Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm qələbə nəticəsində Ermənistanın uzun illər davam edən işğalına son qoyulmuş, bu şanlı Zəfər xalq–iqtidar–ordu birliyinin gücünü, milli həmrəyliyi və yüksək döyüş ruhunu nümayiş etdirmişdir. Bununla yanaşı, sonrakı mərhələdə həyata keçirilən lokal xarakterli antiterror tədbirləri də Qarabağda qanunsuz silahlı birləşmələrin tərk-silah olunması və təhlükəsizlik mühitinin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Beləliklə, ölkəmizin suverenliyi və ərazi bütövlüyü bərpa olunmuş, davamlı sülhə doğru irəliləyiş üçün yeni imkanlar formalaşmışdır.

Beləliklə, dövlətimizin həm regionda, həm də beynəlxalq arenada mövqeyi daha da möhkəmlənmişdir. Bütün bu faktorlar Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strateji yolun uğurla davam etdirilməsinin məntiqi nəticəsi olmaqla yanaşı, dövlət quruculuğunun güclü təməllər üzərində formalaşdırıldığını bir daha nümayiş etdirmişdir. Ümummilli Liderin siyasi irsi bu gün də ölkənin inkişaf strategiyasında istiqamətverici rol oynayır. Şübhəsiz ki, həmin siyasi xətt bundan sonra da uğurla davam etdiriləcək və Azərbaycanı daha parlaq, daha güclü və daha firavan gələcəyə aparacaqdır.

**Ceyhun Məmmədov.** Bir neçə gün bundan əvvəl Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Cəbrayıl və Zəngilan rayonlarına səfər etdilər. Yeni yaşayış binalarının və məktəblərin açılışında iştirak etdilər, əhali ilə görüşdülər. Bütün cəbrayıllılar adından Prezident İlham Əliyevə təşəkkürümü bildirirəm.

Prezident İlham Əliyevin həm Şükürbəyli kəndinə, həm də Zəngilan şəhərinə köçən ailələrlə görüşü və həmin tədbirdə səsləndirdiyi fikirlər Azərbaycanın keçdiyi tarixi yolun, qazandığı böyük Zəfərin və postmüharibə dövründə həyata keçirilən quruculuq siyasətinin növbəti mühüm təqdimatı oldu.

Təəssüflə qeyd etmək lazımdır ki, hər zaman dövlətimizə ikili standartlarla yanaşan dövlətlər və təşkilatlar qələbəmiz qarşısında aciz qalmaqla yanaşı, eyni zamanda, bu qələbəni həzm edə bilmir, eynən bu siyasətlərini davam etdirmək əzmindədirlər.

Ötən dövrdə ATƏT-in Minsk qrupu keçmiş münaqişənin həlli istiqamətində heç bir addım atmadı. Daha çox Azərbaycanı təslimçiliyə hazırlamağa çalışdı. Azərbaycan 30 il vaxt itirdi. Əgər Azərbaycan bu

qurumun ümidinə qalsaydı, hələ də torpaqlarımız işğal altında idi, bu qurumun nümayəndələri isə hələ də heç bir nəticəsi olmayan turist səfərlərinə davam edirdilər.

Azərbaycan tezliklə bölgəyə sülhün gəlməsində və yekun sülh müqaviləsinin imzalanmasında maraqlıdır. Azərbaycan bu istiqamətdə səylə çalışır və ölkəmizi bu yoldan heç kim döndərə bilməz. Bölgəyə sülhün gəlməsində səmimi və maraqlı olan dövlətlər də, əslində, bu mövqedə olmalı idilər. Ancaq əksini gördük. Keçmiş münaqişənin həllinə heç bir töhfə verməyənlər, heç olmasa, bölgəyə sülhün gəlməsinə mane olmasınlar.

Azərbaycan müharibəni bitirib və regionda davamlı sülhün tərəfdarıdır. Dövlət başçısının dediyi kimi, əgər Azərbaycan istəməsəydi, bölgədə sülhdən danışmaq mümkün olmazdı. Bu gün bəzi xarici dairələr, xüsusi ilə Fransa Prezidenti Emmanuel Makron populist bəyanatlarla Ermənistanı müdafiə etməyə çalışır. Halbuki 2020-ci ildə Ermənistan ağır məğlubiyyətə uğrayanda həmin dairələr heç nə edə bilmədilər. Bu gün sərhəddə yerləşdirilən dırnaqarası Avropa müşahidəçiləri də vəziyyəti sabitləşdirmək deyil, əksinə, gərginliyi artırmaq məqsədi daşıyır. “Binokl diplomatiyası” qəbuledilməzdir. Ermənistandakı revanşistlər və onun havadarları anlamalıdırlar ki, Azərbaycana qarşı istənilən təxribat çox sərt şəkildə cavablandırılacaq.

***

Hesabat yüksək səviyyədə hazırlanıb, çox mühüm məsələləri və faktları özündə ehtiva edir. Ən önəmli məsələlərdən biri də həyata keçirilən maarifləndirmə işləri ilə bağlı sənəddə ayrıca bir bölmənin əksini tapmasıdır.

Sənəddən də göründüyü kimi, ötən dövrdə Daxili İşlər Nazirliyi müxtəlif dövlət qurumları, eləcə də xarici dövlətlərin müvafiq strukturları ilə birlikdə bu istiqamətdə çox mühüm işlər görüb.

Burada ən mühüm məsələlərdən biri də dövlət qurumları ilə qurulan sıx əməkdaşlıqdır. Müxtəlif dövlət qurumları ilə əməkdaşlıq insan alverinə qarşı mübarizədə səmərəli fəaliyyətin qurulması baxımından xüsusi əhəmiyyət daşıyır. Düşünürəm, bu modelin bütün sahələrdə tətbiqi ümumi prosesə mühüm töhfə verə bilər.

Onu da qeyd edək ki, insan alverinə qarşı mübarizə bu gün dünyada ən çox müzakirə olunan, eyni zamanda, milli təhlükəsizlik baxımından xüsusi əhəmiyyət daşıyan məsələlərdən biridir. Bu, cəmiyyətdə əxlaq dəyərlərinin qorunması baxımından da önəmlidir.

Sənəddə bir çox maraqlı yerli və beynəlxalq statistikalar əksini tapıb. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) İnsan Alverinə qarşı Mübarizə üzrə Xüsusi Nümayəndəsi və Koordinatoru Ofisinin 2026-cı ilin mart ayında açıqladığı sorğu-hesabatda 2021–2024-cü illərdə iştirakçı dövlətlər tərəfindən 102 min, təkcə 2024-cü ildə isə 30 min insan alveri qurbanının müəyyən edildiyi, qurbanların 32 faizinin məcburi əməyə, 21 faizinin cinsi istismara, 17 faizinin cinayətkar fəaliyyətə cəlb etmə kimi istismar formalarına məruz qaldığı, həmçinin onlayn cinsi istismar hallarının kəskin artdığı vurğulanır.

İnterpolun rəsmi internet səhifəsində 43 ölkənin polis, sərhəd, əmək müfəttişliyi, vergi və gömrük orqanlarının 15 min zabitinin iştirakı ilə 2025-ci ildə keçirilmiş genişmiqyaslı əməliyyat nəticəsində 1194 potensial insan alveri qurbanının aşkarlandığı, 158 şübhəlinin həbs edildiyi, müəyyən edilmiş cinsi istismar qurbanlarının əksəriyyətinin yetkin qadınlar, məcburi

dilənçiliyə və cinayətkar fəaliyyətə cəlb edilənlərin əksəriyyətinin uşaqlar olduğu barədə məlumat yayımlanmışdır. Bu məlumat və faktlar məsələnin nə qədər ciddi olduğunu göstərir.

Rəqəmlər çox ciddidir. Prosesin təhlili getdikcə onlayn cinsi istismar hallarının artacağını söyləməyə əsas verir. Heç şübhəsiz ki, bu prosesə erkən nikah və boşanmaların son illər artması da təsirsiz ötüşmür. Hesab edirəm, bu istiqamətdə dövlət qurumlarının birgə koordinasiyalı fəaliyyətinə ciddi ehtiyac var.

Düşünürəm, bu istiqamətdə Daxili İşlər Nazirliyi tərəfindən görülən ən mühüm işlərdən biri də inzibati tədbirlərlə yanaşı, maarifləndirmə işidir ki, nazirlik bu istiqamətdə də ciddi layihələr həyata keçirir.

Ümumilikdə isə, qeyd etmək lazımdır ki, bu gün Daxili İşlər Nazirliyi ölkədə ictimai-siyasi sabitliyin və asayişin qorunmasında, insan alverinə qarşı mübarizədə mühüm rol oynayır. Bu istiqamətdə onlara fəaliyyətlərində uğurlar arzulayırıq.

**Elçin Mirzəbəyli.** İnsan alveri problemi dövlətin milli təhlükəsizliyi, cəmiyyətin mənəvi sağlamlığı, ailə institutunun gələcəyi və xüsusi ilə gənc nəslin dünyagörüşü ilə birbaşa bağlı olan ciddi sosial-hüquqi məsələdir.

Bu günədək sözügedən istiqamətdə mühüm addımlar atılıb, hüquqi baza formalaşdırılıb, beynəlxalq əməkdaşlıq mexanizmləri yaradılıb, dövlət qurumlarının fəaliyyəti gücləndirilib.

Bu baxımdan Milli Koordinator tərəfindən təqdim olunan məlumatda həyata keçirilən genişmiqyaslı fəaliyyət təqdir olunmalıdır. Bununla yanaşı, düşünürəm ki, məsələyə yalnız klassik cinayət prizmasından baxmamalıyıq. Çünki insan alveri bir günün içində yaranmır. Əvvəlcə düşüncədə formalaşır, sonra davranışa çevrilir, daha sonra isə kriminal

şəbəkələrin sosial bazasına transformasiya olunur. Məni ən çox narahat edən məsələlərdən biri də məhz budur.

Bu gün sosial şəbəkələrdə, bəzən televiziya proqramlarında, seriallarda, müxtəlif rəqəmsal platformalarda dolayısıyla yüngül həyat tərzinin təşviqinin şahidi oluruq. Bəzən “müasirlik”, “trend”, “azad həyat”, “lüks yaşam”, “asan qazanc” adı altında cəmiyyətə təqdim olunan həyat modeli, əslində, insan ləyaqətinin kommersiyalaşdırılmasıdır.

Təəssüf ki, bir sıra hallarda qadın bədəni reklam predmetinə çevrilir, münasibətlərin maddi maraqlar üzərində qurulması normal bir tendensiya kimi təşviq olunur, sponsorlu həyat tərzi romantikləşdirilir, zəhmətsiz qazanc “uğur modeli” kimi təqdim olunur, sosial şəbəkələrdə istismar elementləri “məzmun” adı ilə tirajlanır.

Ən təhlükəlisi isə budur ki, bütün bunların əhəmiyyətli hissəsi qanunvericiliyin birbaşa təsnifatına düşmür. Amma insan alverinə aparan psixoloji, sosial və mənəvi zəmin formalaşdırılması, zənnimcə, insan alverindən heç də az təhlükəli deyil.

“İnsan alverinə qarşı mübarizə haqqında” Qanun, əsasən, artıq baş vermiş cinayət əməllərinin qarşısının alınmasına, qurbanların müdafiəsinə və cinayətkarların məsuliyyətə cəlb edilməsinə yönəlib. Müasir dövrün çağırışları isə göstərir ki, maarifləndirmə ilə yanaşı, dolayı təşviq mexanizmlərinə hüquqi müstəvidə yanaşılması zəruridir. Bu baxımdan “insan alverinə dolayı təşviq” anlayışının da hüquqi norma kimi nəzərdən keçirilməsinə ehtiyac olduğunu düşünürəm. Hazırda insan alverinə birbaşa çağırış, cəlbetmə və ya vasitəçilik məsuliyyət yaradır.

Lakin seksual istismarın “uğurlu həyat modeli” kimi təqdim edilməsi, qadının əmtəələşdirilməsi, sponsor münasibətlərinin normallaşdırılması,

sosial mediada gizli eskort sisteminin estetikləşdirilməsi bir çox hallarda hüquqi məsuliyyət doğurmasa da, insan alverinin sosial bazasını formalaşdıran əsas amillərdir.

Bu gün insan alveri artıq küçədən deyil, çox vaxt telefon ekranından başlayır. Sosial şəbəkələrdə canlı yayımlar vasitəsi ilə istismar, intim şantaj, sosial asılılıq yaratmaq yolu ilə nəzarət halları sürətlə artır. Bütün bunlara qarşı hüquq mühafizə orqanlarının preventiv müdaxilə imkanları, təəssüf ki, məhduddur.

Bəzən şou xarakterli yayımların formatlarında, seriallarda ailə institutunun nüfuzdan salınması, qadının alçaldıcı təqdimatı, kriminal və əxlaqa zidd münasibətlərin normallaşdırılması dolayısıyla ictimai şüura təsir göstərir.

Zənnimcə, bu, təkcə etik məsələ deyil, həm də milli təhlükəsizlik məsələsidir. Çünki mənəvi deqradasiya insan alverinin əsas qidalandırıcı elementlərindən biridir. Bu baxımdan insanın kommersiya predmetinə çevrilməsini, seksual istismarın normal hal kimi təqdim edilməsini və insan alverinə aparan davranış modellərinin təbliğini profilaktik risk amili kimi müəyyən etməyin zəruri olduğunu düşünürəm.

Həmçinin düşünürəm ki, “rəqəmsal insan alveri” anlayışının da ayrıca hüquqi kateqoriya kimi qanunvericilikdə təsbit olunmasını nəzərdən keçirmək mümkündür.

Mənə görə insan alveri insanın fiziki satılmasından daha çox  insan ləyaqətinin bazara çıxarılmasıdır. Cəmiyyət olaraq da buna aparan sosial, mənəvi və informasiya mühitinə birmənalı reaksiya verilməsinin tərəfdarıyam.

**Günay Əfəndiyeva.** Şübhəsiz ki, Diplomatik xidmət haqqında qanun layihəsində nəzərdə tutulan dəyişikliklər çox ciddi əhəmiyyət kəsb edir. Çünki xarici siyasət Azərbaycanın dünyadakı mövqeyini formalaşdıran aparıcı istiqamətlərdəndir.

Cənab Prezidentin rəhbərliyi ilə dövlətimiz bu gün mürəkkəb beynəlxalq şəraitdə öz müstəqil xarici siyasət kursunu güclü iradə ilə davam etdirir. Ölkəmiz dünyada beynəlxalq siyasi dialoqun, nəqliyyat və enerji əməkdaşlığının, mədəni və humanitar təşəbbüslərin mühüm mərkəzlərindən birinə çevrilib.

Azərbaycan həm Avropa, həm türk dünyası, həm islam dünyası dövlətləri, həm də Mərkəzi Asiya və Qlobal Cənub ölkələri ilə əlaqələrini ardıcıl şəkildə gücləndirir.

Baxın, son bir ay ərzində cənab Prezidentin həyata keçirdiyi fəal diplomatik təmaslar dövlətimizin uzun illərdir peşəkarlıqla, uzaqgörənliklə yürütdüyü ardıcıl siyasi xəttin davamı kimi xüsusi diqqət çəkir.

Dövlət başçısının Gürcüstana dövlət səfəri, Türkiyədə Antalya Diplomatiya Forumu çərçivəsində keçirdiyi çoxsaylı görüşlər, Latviya və Ukraynanın prezidentlərinin, Litva, Çexiya, İtaliyanın Baş nazirlərinin ölkəmizə səfərləri, Slovakiyanın Baş naziri Robert Fitsonun Prezident İlham Əliyevin Avropa Parlamenti ilə bağlı fikirlərinə açıq dəstəyini ifadə etməsi, eləcə də mayın 15-də Qazaxıstanın Türküstan şəhərində keçiriləcək Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının növbəti qeyri-rəsmi zirvə görüşündə Azərbaycanın iştirakı və nəhayət, mötəbər, qlobal əhəmiyyətli tədbirlərdən olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının bir neçə gün sonra Bakıda öz işinə başlaması – bütün bu sadalanan faktlar, şübhəsiz ki, dövlət başçısının gərgin iş qrafiki ilə

davam etdirdiyi diplomatik fəaliyyətin nəticəsində Azərbaycanın dünya miqyasında qazandığı nüfuzu bir daha təsdiqləyir.

Eyni zamanda, sözügedən proseslərə Azərbaycan diplomatlarının gündəlik, bəzən görünməyən, lakin son dərəcə məsuliyyətli xidməti də öz töhfəsini verir.

Mən bu sahədə uzun illər çalışmış bir insan kimi deyə bilərəm ki, diplomatlarımız çox vaxt qürbətdə, Azərbaycanın hüdudlarından kənarda, fərqli siyasi və ictimai mühitdə, beynəlxalq qeyri-sabitlik fonunda ölkəmizin milli maraqlarının qorunması üçün çalışırlar. Ona görə də peşə öhdəliklərindən irəli gələn, hər an hazırlıq və çeviklik tələb edən həyat tərzi diplomatlarımızın sosial müdafiəsinin daha da gücləndirilməsini zəruri edir.

Bu baxımdan düşünürəm ki, diplomatların dəstəklənməsi yalnız sosial siyasət məsələsi deyil, bu dövlət strategiyası Azərbaycanın qlobal mövqelərinin daha da möhkəmləndirilməsi məsələsidir.

Ona görə də hesab edirəm ki, “Diplomatik xidmət haqqında” Qanunda təklif olunan dəyişikliklər olduqca lazımi və gözlənilən bir təşəbbüsdür.

Mən bu qanun layihəsini dəstəkləyir və məmnuniyyətlə lehinə səs verəcəyimi bildirirəm.

**Xanlar Fətiyev.** Mayın 10-da xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ili tamam oldu. Hər il olduğu kimi, bu tarixdə ölkəmizin hər yerində keçirilən tədbirlərdə Heydər Əliyevin xalq və dövlət qarşısında misilsiz xidmətləri, Azərbaycanın yüksəlişi naminə həyata keçirdiyi missiya dərin ehtiram və böyük minnətdarlıq hissi ilə xatırlandı.

Azərbaycanın yeni tarixinin 34 ildən artıq bir dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər respublikamıza iki dəfə – həm sovetlər dövründə,

həm də Azərbaycanın müstəqilliyi illərində rəhbərlik edib. Hər iki rəhbərliyi dövründə Ulu Öndər Azərbaycanı çətinliklərdən xilas edib, yüksəliş və intibah yoluna çıxarıb.

Zəngin iqtisadi potensialına və enerji resurslarına baxmayaraq, Azərbaycan ötən əsrin 60-cı illərinə qədər bütün sahələrdə keçmiş İttifaqın ən geridə qalmış respublikalarından biri olub. Yalnız Heydər Əliyevin 1969-cu ilin iyul ayında Azərbaycana rəhbərlik etməyə başlamasından sonra respublikanın sosial-iqtisadi həyatında köklü dəyişikliklər baş verib, Azərbaycan İttifaq miqyasında qabaqcıl respublikalar sırasına yüksəlib.

O illərdə Ulu Öndərin təşəbbüsü ilə minlərcə azərbaycanlı gəncin keçmiş İttifaqın nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi respublikamızın milli kadr potensialının möhkəmlənməsinə, mühüm vəzifələrdə azərbaycanlıların sayının çoxalmasına böyük töhfələr verib.

Sovet dövlətinin sərt ideoloji siyasətinə baxmayaraq, Ulu Öndər xalqımızın milli-mənəvi dəyərlərinin yaşadılması, tariximizin tədqiq edilərək öyrənilməsi və gələcək nəsillərə çatdırılması üçün bütün imkanları cəsarətlə səfərbər etmişdi. O dövrdə Azərbaycanın dövlətçilik tarixinə dair kitabların, əsərlərin yazılması, bu əsərləri yazan şair və yazıçıların sovet repressiyasından qorunması Heydər Əliyevin cəsarətinin və milli amallara bağlılığının nəticəsi idi.

Xüsusi ilə qeyd etməliyik ki, Heydər Əliyev sovet illərində həm Azərbaycana rəhbərlik edən zaman, həm də Moskvada çalışarkən Ermənistanın əsassız ərazi iddialarının qarşısını qətiyyətlə almışdı. Ermənilərin Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı Moskvaya ünvanladıqları müraciətlər məhz Heydər Əliyevin sayəsində nəticəsiz qalmışdı. Təəssüflə qeyd edilməlidir ki, Ulu Öndərin bu qətiyyətli siyasətini

sonrakı illərdə respublikamıza rəhbərlik edənlər davam etdirə bilmədilər və Azərbaycan erməni separatizmi və ədalətsiz müharibə ilə üzləşməli oldu.

Müstəqilliyimizin ilk illərində respublikamızda yaranmış dərin böhran zamanı xalqımızın Heydər Əliyevə üz tutması təsadüfi deyildi. Çünki Heydər Əliyev, qeyd etdiyimiz kimi, hələ sovet illərində Azərbaycanın yüksəlişini təmin etmişdi. Eyni zamanda, Ulu Öndər 1990–1993-cü illərdə Naxçıvandakı siyasi fəaliyyəti zamanı respublikamızda gedən müstəqillik mübarizəsinə layiqli töhfələr vermişdi. Buna görə müstəqilliyimizin ilk illərində yaranmış dərin siyasi və hərbi böhran zamanı xalqımız xilas yolunu öz sınanmış oğlunun siyasi hakimiyyətə dönüşündə görürdü. 1992-ci ilin noyabrında Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması da Ulu Öndərə olan ümumxalq inamının təzahürü idi.

1993-cü ilin iyununda xalqımızın təkidli istək və arzusu ilə respublikanın siyasi rəhbərliyinə qayıdan Heydər Əliyev Azərbaycan dövləti və xalqı qarşısında özünün növbəti tarixi missiyasını layiqincə yerinə yetirdi. 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri, həmin ilin oktyabrın 3-də Azərbaycan Prezidenti seçilən Ulu Öndər Heydər Əliyev özünün siyasi dühası və qətiyyəti ilə müstəqilliyimizi qorudu, Azərbaycanı parçalanma təhlükəsindən xilas etdi. Bu baxımdan müstəqilliyimizin ilk illərində respublikamızda baş verənlərin fonunda bir daha Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü, bu dahi insanın qətiyyətini görürük.

Öz əməlləri ilə xalqımızın Ümummilli Liderinə çevrilən Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin əsaslarını yaratdı, mütərəqqi və hüquqi dövlət quruculuğunu həyata keçirdi. Ulu Öndərin reallaşdırdığı iqtisadi və aqrar islahatlar tənəzzülə son qoyaraq Azərbaycanı dayanıqlı və davamlı

inkişaf yoluna çıxardı. “Əsrin müqaviləsi”nin imzalanması isə ölkəmizin uzunmüddətli inkişaf strategiyasını müəyyənləşdirərək Azərbaycanın iqtisadi yüksəlişinə güclü təkan verdi. Bütün bunları təmin edən Ulu Öndər həm də Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirdi, dünya birliyinin ehtiram göstərilən subyektinə çevirdi.

Ulu Öndərin ən böyük arzusu Azərbaycanın daha da inkişaf etməsi, torpaqlarımızın işğaldan azad edilməsi və məcburi köçkünlərin doğma yurdlarına qayıtması idi. Heydər Əliyevin layiqli siyasi varisi olan cənab İlham Əliyevin bütün bunları həyata keçirəcəyinə inanırdı və bu inam onun 2003-cü ilin prezident seçkilərindən əvvəl Azərbaycan xalqına etdiyi müraciətdə də öz əksini tapıb.

Cənab Prezident İlham Əliyev Heydər Əliyevin layiqli siyasi davamçısı kimi həyata keçirdiyi müdrik siyasətlə həm də Ulu Öndərin arzularını reallığa çevirib. Ötən illər ərzində sürətli inkişaf yolu keçən Azərbaycan öz tarixinin ən qüdrətli dövlətinə çevrilib. Bütün dünya Azərbaycanı Cənubi Qafqazın aparıcı və lider dövləti kimi qəbul edir. Azərbaycan həm də ABŞ, Çin, Avropa İttifaqı kimi aparıcı siyasi mərkəzlərin strateji tərəfdaşıdır. Avropanın enerji təhlükəsizliyi hazırda böyük ölçüdə Azərbaycandan asılıdır.

Ulu Öndər torpaqlarımızı azad görmək istəyirdi. 2020-ci ilin Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasını təmin edən, 2023-cü ilin sentyabrında isə Qarabağda erməni separatçılığına son qoyan müzəffər Ali Baş Komandan İlham Əliyev bununla Heydər Əliyevin ən böyük arzusunu reallığa çevirdi. Vaxtı ilə işğal nəticəsində Qarabağ və Şərqi Zəngəzurdan məcburi köçkün düşmüş soydaşlarımız isə mərhələli

şəkildə doğma yurdlarına qayıdırlar və azad olunmuş bütün ərazilərimizdə həyat yenidən başlanır.

Heydər Əliyev Azərbaycanı zirvələrdə görmək istəyirdi. Cənab İlham Əliyevin liderliyi ilə Azərbaycanın yüksəlişi və qazandığımız nailiyyətlər Ulu Öndərimizin bütün arzularının real həyata vəsiqə almasının parlaq ifadəsidir. Qalib və qüdrətli Azərbaycan Heydər Əliyev ideyalarının təntənəsidir. Dövlətimizin hər bir uğuru həm də onu təsdiq edir ki, Heydər Əliyevin siyasi irsi, ideyaları və müəyyən etdiyi inkişaf yolu Azərbaycanın bu gününün və gələcəyinin yeganə istinadgahıdır.

**Jalə Əliyeva.** Hörmətli xanım sədr, öncəliklə Sizi və rəhbərlik etdiyiniz parlament nümayəndə heyətini bu günlərdə Monteneqroya baş tutan uğurlu işgüzar səfər münasibəti ilə təbrik edirəm.

Ötən gün Azərbaycan Prezidenti cənab İlham Əliyev növbəti dəfə Zəngilana səfər etdi. Cənab Prezidentin Zəngilan sakinləri ilə görüşü zamanı səsləndirdiyi fikirlər Azərbaycanın son onilliklərdə keçdiyi tarixi yolun, regionda formalaşan yeni geosiyasi reallıqların və ölkənin həyata keçirdiyi xarici siyasətin mahiyyətini bir daha ortaya qoydu.

Cənab Prezidentin çıxışı həm Azərbaycanın keçmişi və bu günü, həm də regionun gələcək siyasi mənzərəsi baxımından mühüm mesajlarla yadda qaldı.

Prezident İlham Əliyev açıq şəkildə bəyan etdi ki, Azərbaycan öz torpaqları ilə bağlı köhnə tezislərin yenidən gündəmə gətirilməsinə imkan verməyəcək. O dedi: “Əgər Ermənistan və ya onu dəstəkləyən xarici dairələr yenidən Azərbaycana qarşı işğalçılıq siyasətinə qayıtmağa cəhd göstərsələr, bunun nəticələri Ermənistanın özü üçün ağır olacaq”.

Bu xəbərdarlıq xüsusi ilə Ermənistanda seçki ərəfəsində həm cəmiyyət, həm iqtidar, həm də müxalifət üçün ciddi mesaj kimi qəbul edilməlidir. Azərbaycan Prezidentinin verdiyi mesajların arxasında real siyasi və hərbi güc dayanır.

Erməni xalqı tarix boyu müxtəlif dövlətlərin vədlərinə inanaraq yanlış istiqamətə yönləndirilib. Lakin artıq regionda yeni mərhələ başlayıb və əvvəlki geosiyasi sxemlər öz aktuallığını itirib. Prezident İlham Əliyev regionda iki əsr davam etmiş status-kvonu dəyişdirməyə nail oldu və bu gün Cənubi Qafqazda mərkəzində Azərbaycan dayanan yeni siyasi reallıq formalaşıb.

Azərbaycan hazırda regionun ən mühüm strateji mərkəzlərindən birinə çevrilib. Son dövrlərdə Prezident İlham Əliyevlə aparılan intensiv təmaslar və Azərbaycana edilən yüksək səviyyəli səfərlər də bunu sübut edir. Bu gün Azərbaycan mühüm geosiyasi, geoiqtisadi və kommunikasiya mərkəzi kimi qəbul olunur. Dünyanın müxtəlif güc mərkəzləri artıq anlayırlar ki, regional və qlobal maraqların həyata keçirilməsi üçün Azərbaycanla əməkdaşlıq mühüm əhəmiyyət daşıyır.

Prezident İlham Əliyevin Zəngilan sakinləri ilə görüşündə verdiyi mesajlar yalnız Azərbaycan ictimaiyyətinə ünvanlanmayıb. Bu mesajlar, eyni zamanda, regionda maraqları olan dövlətlərə, Ermənistan hakimiyyətinə və müxalifətinə, eləcə də beynəlxalq siyasi dairələrə yönəlmiş ciddi siyasi ismarıc idi. Hər kəs bu mesajlardan nəticə çıxarmalı və regionda yaranmış yeni reallıqları qəbul etməlidir.

Sonda qısaca olaraq bir daha vurğulamalıyıq ki, Prezident İlham Əliyevin Zəngilan səfərindəki çıxışı həm siyasi qətiyyətin, həm dövlətçilik iradəsinin, həm də milli maraqların müdafiəsinin nümayişi oldu. Bu çıxış bir

daha göstərdi ki, Azərbaycan öz gücünə arxalanaraq regionda yeni inkişaf mərhələsini formalaşdırır və ona qarşı yönələn bütün təzyiqlərə baxmayaraq, strateji hədəflərinə doğru inamla irəliləyir.

**Kamal Cəfərov.** Aqrar sektorun inkişafında ciddi maneələrdən biri olan torpaq fondundan səmərəli istifadə məsələsi qanun layihəsində birbaşa əhatə edilib. Hamıya aydındır ki, kənd təsərrüfatı təyinatlı torpaqlarda müasir texnologiyaların tətbiqi bəzən illər öncədən qalmış, heç bir aqrotexniki və ya ekoloji əhəmiyyət kəsb etməyən yaşıllıqlar səbəbindən mümkün olmurdu. Xüsusən də söhbət müasir suvarma sistemlərindən gedəndə sahədəki nizamsız ağac və kollar istehsalat prosesini faktiki olaraq iflic edirdi.

Müvafiq maddəyə təklif olunan əlavə mühüm praktiki məqam olan əkin sahəsində kənd təsərrüfatı fəaliyyətinə mane olan yaşıllıqların götürülməsi üçün konkret hüquqi əsas yaradacaq. Kol bitkiləri ilə bağlı nəzərdə tutulan məlumatlandırma icraatı olduqca çevik bir mexanizmdir və bu, sahibkarı aylarla davam edən qarışıq proseslərdən xilas edərək məsələni operativ həll etməyə imkan verəcək. Digər mühüm məqam isə bu əlavə və dəyişikliklərin məhsuldarlığa birbaşa təsiridir. Sahədəki artıq bitki örtüyü həm suvarma sistemlərini zədələyir, həm də zərərvericilər üçün sığınacaq rolunu oynayırdı. Yeni qaydalar müasir texnikaların sərbəst işləməsi və bitkilərin normal böyüməsi üçün lazımi mühit yaradacaq.

Yekun olaraq qeyd etmək istərdim ki, qanun layihəsi aqrar sahədə fəaliyyət göstərən şəxslər üçün illərdir yığılıb qalmış texniki maneələri aradan qaldıran mühüm alətdir. Layihənin qəbulu vasitəsi ilə ölkəmizin ərzaq təhlükəsizliyi sistemini daha işlək və məhsuldar vəziyyətə gətirə biləcəyik.

***

Bu gün müzakirə etdiyimiz dəyişikliklər mahiyyət etibarı ilə diplomatik korpusumuzun sosial rifahının və hüquqi müdafiəsinin yeni mərhələyə keçməsidir. Diplomat dövlətin xaricdəki simasıdır və onun arxasında dövlətin güclü sosial zəmanəti durmalıdır. Diplomatlarımız ailələrindən və vətənlərindən uzaqda, bəzən ən çətin şəraitlərdə milli maraqlarımızı qoruyurlar. Buna görə də onların əməyinin qiymətləndirilməsi məsələsindəki boşluqların aradan qaldırılması gözlənilən və vacib bir addım idi.

İndiyə qədər bəzi məqamlarda qeyri-müəyyən qalan məsələlər kimi iş vaxtından artıq çalışma, çətin iqlim şəraitində xidmət və stajın hesablanması kimi praktiki mövzular konkret və şəffaf müstəviyə keçəcək. Diplomatik xidmət əməkdaşının fəaliyyətinin dövlət tərəfindən maddi və mənəvi olaraq dəqiq dəyərləndirilməsi xidmətin nüfuzunu və peşəkarlığını artıracaq.

Hesab edirəm ki, bütün bunlar mövcud kadr potensialımızın qorunmasına xidmət edəcək və dövlət idarəçiliyinə sadiqliyi gücləndirəcəkdir.

***

Qanun layihəsi ilk baxışda, sadəcə, terminoloji düzəliş kimi görünə bilər, lakin bu, iqtisadiyyatımızın mühüm qollarından birini köklü şəkildə nizamlayan konseptual sənəddir. Uzun müddətdir ki, “lizinq” və “maliyyə icarəsi” anlayışları arasındakı fərqlər, habelə Mülki Məcəllə və Vergi Məcəlləsindəki fərqli yanaşmalar həm sahibkarlar, həm də dövlət qurumları üçün hüquqi qeyri-müəyyənlik yaradırdı. Bir çox hallarda bu xidmətdən yararlananlar onu kredit münasibəti kimi qavrayır və icarə münasibətləri ilə

bağlı tənzimləmələrdən yayınırdılar. Terminlərin eyniləşdirilməsi bu anlaşılmazlığı aradan qaldırır və milli qanunvericiliyimizi beynəlxalq standartlara uyğunlaşdırır.

Bu sahənin Mərkəzi Bankın nəzarəti altına keçməsi, vahid reyestrin yaradılması və nizamnamə kapitalına dair tələblərin qoyulması maliyyə bazarlarında şəffaflığı təmin edəcək. Məlumatların kredit büroları ilə bölüşdürülməsi isə həm borc yükünün düzgün qiymətləndirilməsinə, həm də ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin möhkəmlənməsinə xidmət edəcəkdir.

Layihə hüquqi müəyyənlik yaradaraq vətəndaş və biznes subyektlərinin terminlər və ziddiyyətli maddələr arasında qalmasını aradan qaldıracaq. Beləliklə, düşünürəm ki, sadalananlar maliyyə sistemimizin daha sağlam və rəqabətədavamlı olmasına müsbət təsir göstərəcək.

**Kamran Bayramov.** Fransa Prezidenti Emmanuel Makronun İrəvan səfəri, böyük təmtəraqla "Ermənistan–Fransa birliyi"nə həsr olunmuş tamaşalar, orada səsləndirilən yersiz fikirlər, əslində, hava silkələyən addımlardan başqa bir şey deyil. Mahiyyət etibarı ilə bu addımlar bir siyasi blef kimi xarakterizə edilməlidir. Makronun Ermənistandan Fransanın Cənubi Qafqazdakı neokolonializm maraqlarını təmin etmək üçün bir alət kimi istifadə etdiyi gün kimi aydındır. Hakimiyyətinin qürub çağında rekord dərəcədə aşağı reytinqlə üzləşən və ölkəsində legitimliyi şübhə altına alınan bir lider üçün bu, sadəcə, "itirilmiş xalları" haradasa bərpa etmək cəhdidir.

Möhtərəm cənab Prezident mayın 10-da Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşü zamanı etdiyi çıxışında bu cür siyasi şoumenlərin hərəkətlərini çox yerində və düzgün təsvir etdi ki, bu gün

Ermənistana gəlib özünü saxta qəhrəman kimi göstərən bəzi xarici liderlər 2020-ci ildə elə həmin liderlər idi, gəlib Ermənistana yiyə durmadılar, onların işi-gücü isə boşboğazlıq olub, ona görə öz ölkələrində onların dəstək əmsalı olduqca aşağıdır.

Ümumiyyətlə, bu cür liderlərin ən parlaq nümunəsi sayılan Makron və onun hakimiyyəti tarixdə nə ilə yadda qalacaq? O, hakimiyyətə gələndə hər kəsə xoş gələn, gənc və gülümsəyən bir "ümid lideri" kimi qələmə verilirdi. Lakin bu gün o, böyük bir məyusluq, daha pisi isə bir məsxərə obyektidir. Unutmayaq ki, bir siyasətçiyə nifrət edə bilərlər, onu sevə və ya hörmət edə bilərlər, lakin ona gülməməlidirlər. Çünki gülüş obyektinə çevrilmiş rəhbər dövlət üçün rüsvayçılıq, ölkənin nüfuzu üçün isə ən ağır faciə və fəlakətdir.

Makron fəaliyyəti ilə tərəfdarlarını və müttəfiqlərini də tam bir xəyal uçqununa apardı, çünki Fransanın Afrika qitəsində ənənəvi nüfuzunu qoruya bilmədi və oradan qovuldu, Ukraynada şirin vədlər versə də, Kiyevə gözlənilən real köməyi etmədi və görünən odur ki, etməyəcək də. Ermənistanda isə illərlə revanşist hissləri alovlandırıb İrəvanı silahla təmin etsə də, nəticə göz qabağındadır.

Keçən il Vaşinqtonda əldə olunan razılaşmalar Bakının və Vaşinqtonun şərtləri ilə reallaşdı. Həmin masada Makronun siyasətindən əsər-əlamət yox idi. Makronun ən böyük problemi etdikləri deyil, edə bilmədikləridir: o, ölkəsinin nüfuzunu qoruya bilmədi və ilk növbədə, fransızların özünü məyus etdi.

Makron və Paşinyanın İrəvandakı "qardaşlıq" nümayişi keyfiyyətsiz bir tamaşaya bənzədi, imzalanan sənədlər isə heç kimi təəccübləndirmədi. Artıq strateji məqam əldən verilib. Bu gün Cənubi Qafqazda xüsusi ilə

kommunikasiyaların açılması kimi fundamental məsələdə Qərbin əsas təmsilçisi Fransa deyil, ABŞ-dir.

Ən önəmli fakt isə budur ki, regionda Qərb tərəfdaşlarını seçmək və onlara “yaşıl işıq” yandırmaq hüququ Ermənistana deyil, müstəsna olaraq Azərbaycana məxsusdur. Rəsmi Paris bu dərsi artıq mənimsəyib. İrəvanın Fransanın nüfuzunu buralarda möhkəmləndirmək cəhdləri iflasa uğradı, çünki Bakı öz oyun qaydalarını diktə etdi və İrəvan bu şərtləri qəbul etmək məcburiyyətində qaldı.

Beşinci Respublika üçün hazırda Ermənistanla “strateji münasibətlər” qurmaq prioritet deyil. Fransanın iqtisadi vəziyyəti olduqca ağırdır və Paris öz investisiyaları hesabına Ermənistan iqtisadiyyatını dirçəltmək niyyətində deyil. Görünən odur ki, Emmanuel Makronun Ermənistan səfəri, sadəcə, sevdiyi simvolik jestlərdən biridir. O, genişmiqyaslı layihələr üçün deyil, yalnız daxili reytinqini xilas edəcək müvəqqəti mənzərələr yaratmaq üçün orada olub.

**Könül Nurullayeva.** Bu gün Azərbaycan dövlətçiliyinin ideoloji əsaslarından, onun davamlı inkişafını təmin edən dəyərlərdən danışarkən Ulu Öndər Heydər Əliyevin zəngin siyasi irsini xüsusi qeyd etmək zəruridir. Bu irsin ən mühüm istiqamətlərindən biri məhz gənclərlə bağlı formalaşdırdığı strateji baxışdır. Heydər Əliyev daim vurğulayırdı ki, ölkənin gələcəyi savadlı, dünyagörüşlü və vətənpərvər gənclərdən asılıdır. Bu baxımdan onun siyasi irsi bu gün də Azərbaycan gəncləri üçün mühüm yol xəritəsi rolunu oynayır. Gənclər anlayırlar ki, dövlət müstəqilliyini qorumaq ən ali dəyərlərdəndir, uğurun əsas yolu isə bilik, intizam və peşəkarlıqdan keçir. Eyni zamanda, milli-mənəvi dəyərləri qorumaqla müasir dünyaya açıq olmaq mümkündür. Bu yanaşma xüsusi ilə bu gün – texnologiyanın

sürətlə inkişaf etdiyi, qlobal rəqabətin artdığı bir dövrdə daha böyük aktuallıq kəsb edir.

Ulu Öndərin gənclərə göstərdiyi etimad, onların dövlət idarəçiliyində, elm və ictimai həyatda önə çəkilməsi siyasəti bu gün də uğurla davam etdirilir. Bu isə bir daha sübut edir ki, onun müəyyən etdiyi strateji xətt zamanın sınağından çıxmış və davamlı inkişaf modelinə çevrilmişdir.

Heydər Əliyev yalnız siyasi lider deyil, eyni zamanda, bütöv bir dövlətçilik məktəbinin banisidir. Onun həyat yolu gənc siyasətçilər üçün zəngin təcrübə və nümunə mənbəyidir. Bu məktəbin əsas dərslərindən biri dövlət maraqlarını şəxsi maraqlardan üstün tutmaq prinsipidir. Ulu Öndər ən mürəkkəb və böhranlı dövrlərdə belə qərarlarını məhz milli maraqlarla əsaslandırmış, qısamüddətli deyil, uzunmüddətli strateji məqsədləri ön planda saxlamışdır. Bu gün sürətlə dəyişən və mürəkkəbləşən beynəlxalq münasibətlər sistemində bu yanaşma gənc siyasətçilər üçün xüsusi əhəmiyyət daşıyır. Çünki siyasət şəxsi nüfuz qazanmaq vasitəsi deyil, xalqa və dövlətə xidmət məsuliyyətidir.

Müasir dövrdə informasiya müharibələrinin geniş vüsət aldığı, geosiyasi rəqabətin dərinləşdiyi bir şəraitdə Heydər Əliyevin uzaqgörən siyasətinin əhəmiyyəti daha aydın görünür. Onun prioritetlərindən biri güclü və müstəqil dövlətçilik idi. O, haqlı olaraq hesab edirdi ki, siyasi sabitlik və milli birlik olmadan dövlətin dayanıqlı inkişafı mümkün deyil. Bu gün informasiya təsirləri, dezinformasiya kampaniyaları və xarici təzyiqlər fonunda həmin yanaşma xüsusi aktuallıq qazanır. Digər mühüm məqam isə milli maraqlara əsaslanan balanslı xarici siyasət modelidir. Məhz bu siyasət sayəsində Azərbaycan müxtəlif beynəlxalq tərəfdaşlarla münasibətlər quraraq öz müstəqil mövqeyini qoruyub saxlaya bilmişdir.

Eyni zamanda, Ulu Öndərin milli-mənəvi dəyərlərin qorunmasına verdiyi önəm bu gün qloballaşma şəraitində daha da aktuallaşır. Milli kimliyin, dilin və mədəniyyətin qorunması artıq yalnız mədəni məsələ deyil, həm də informasiya təhlükəsizliyinin mühüm tərkib hissəsinə çevrilmişdir. Onun təhsil və kadr siyasəti isə müasir dövrdə insan kapitalının inkişafının əsasını təşkil edir. Rəqəmsal texnologiyaların sürətlə inkişaf etdiyi bir zamanda bilikli və peşəkar kadrların yetişdirilməsi dövlətin gələcək inkişafını müəyyən edən əsas amillərdəndir.

Ulu Öndərin fəaliyyətini ümumiləşdirərək belə demək olar ki, o, Azərbaycanın müstəqil, sabit və güclü dövlət kimi formalaşmasının strateji təməlini yaratmışdır. 1990-cı illərin mürəkkəb və çətin dövründə dövlətçiliyin qorunması, siyasi sabitliyin təmin olunması, hüquqi və institusional əsasların qurulması, milli ordunun formalaşdırılması və iqtisadi inkişafın təməlinin qoyulması məhz onun adı ilə bağlıdır. Bununla yanaşı, milli birlik və azərbaycançılıq ideyasının dövlət ideologiyası səviyyəsində təşviqi cəmiyyətin birliyinin möhkəmləndirilməsində həlledici rol oynamışdır.

Bu gün qarşımızda duran əsas vəzifə bu zəngin irsi qorumaqla yanaşı, onu müasir çağırışlara uyğun şəkildə inkişaf etdirmək və gələcək nəsillərə ötürməkdir. Əminliklə deyə bilərik ki, Heydər Əliyevin müəyyən etdiyi strateji yol Azərbaycanın davamlı inkişafının və güclənməsinin əsas təminatıdır.

**Malik Həsənov.** Müasir müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin şah əsəridir. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın bugünkü reallıqlarının möhkəm təməlini yaratdı. Bu reallığı dönə-dönə qeyd etməyi özümüzə borc

bilirik ki, Ümummilli Lider 1993-cü ildə hakimiyyətə qayıtmasaydı, bu gün Azərbaycan adlı dövlətdən danışmaq sual altında idi. Müstəqilliyimizin bərpasının ilk illərində ölkəmizin yaşadığı təhlükələr, faciələr yaddaşlardadır, eyni zamanda, müstəqillik tariximizin səhifələrində daim vərəqlənir. Azərbaycan həmin dövrün iqtidarının yarıtmaz siyasəti, idarəçilik qabiliyyətinin yoxluğu ucbatından müstəqilliyini itirmək, bir dövlət olaraq dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Ölkədə anarxiya, özbaşınalıqlar baş alıb gedir, torpaqlarımız işğal olunurdu. Xalqımız bu çətin günlərdə ölkəmizi düşdüyü ağır vəziyyətdən xilas edəcək yeganə şəxsin Ümummilli Lider olduğunu düşündü və hakimiyyətə dəvət etdi. Dövlətinə, xalqına bağlılıq, sevgi, Azərbaycanı daim zirvələrdə görmək istəyi Ümummilli Liderin hakimiyyətə qayıdışını şərtləndirən əsas amillər oldu. O, Azərbaycanın yaşadıqlarına biganə qalmadı, xalqın təkidli tələbi ilə 1993-cü ilin iyununda hakimiyyətə qayıtdı. Bu qayıdış Azərbaycanı müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. Onun ideyaları Azərbaycanın dünəni, bu günü və gələcəyidir. Ümummilli Liderin timsalında hər bir ölkənin inkişafında, gələcəyində lider və düşünülmüş siyasət amillərinin rolu daha aydın görünür.

Ümummilli Liderin hakimiyyətinin hər iki dövrü dövlətə, xalqa xidmət nümunəsidir. Hələ hakimiyyətinin birinci dövründə Azərbaycanın müstəqil gələcəyini düşünərək bir-birindən mühüm addımlar atmışdı. O, daim Azərbaycanı müstəqil, qüdrətli, dünya birliyində layiqli yer tutan, sözünün imzası qədər əhəmiyyəti olan bir dövlət kimi görmək istəyib. Ümummilli Liderin harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının yaddaşına əbədi həkk olunan “Azərbaycan dünyaya günəş kimi doğacaq”, “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən

azərbaycanlıyam", "Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!" kimi çağırışları onun dövlətimiz, xalqımız qarşısındakı xidmətlərinin aydın mənzərəsini yaradır.

Ulu Öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan qısa müddətdə sabitlik diyarına çevrildi, dayanıqlı iqtisadi inkişafının əsası qoyuldu. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ölkəmizin iqtisadi və siyasi mövqeyini möhkəmləndirdi. Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin sayı artdı, yeni dostlar və tərəfdaşlar qazandı. Ümummilli Liderin müəllifi olduğu neft strategiyası Azərbaycana davamlı uğurlar qazandırdı və bu gün də qazandırır. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Ümummilli Liderin mükəmməl quruculuq proqramının tərkib hissələri idi.

Ulu Öndər Heydər Əliyev xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynadı. Artıq bu gün tarixə qovuşan Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirdi.

Təbii ki, Azərbaycanın bu şanlı qələbəni yaşaması Ulu Öndər Heydər Əliyevin 2003-cü ildə xalqına inamın növbəti ünvanını göstərməsinin nəticəsidir. 2003-cü ildə xalqa tarixi müraciəti Heydər Əliyev siyasətinin davamının, bugünkü və gələcək uğurların əsası oldu. Dahi şəxsiyyət xalqa 2003-cü il 1 oktyabr tarixli müraciətində bildirmişdi ki, “Üzümü sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.

Prezident İlham Əliyev son 22 ildən artıq dövrdə Azərbaycana zirvələri fəth etdirərək Ulu Öndərin inamını, etimadını doğrultdu. Ata vəsiyyətini yerinə yetirdiyi üçün özünü xoşbəxt hiss edir. Dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi iqtisadi strategiya nəticəsində Azərbaycan qısa müddətdə yüksək nailiyyətlərə imza atdı. Dayanıqlı iqtisadi inkişaf təmin edildi, dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşan silahlı qüvvələrimiz formalaşdı, beynəlxalq əlaqələrimiz genişləndi, ölkəmizin diplomatik uğurları davamlılığı ilə diqqətdədir. Bütün istiqamətlərdə qazanılan uğurların bir hədəfi var idi – ərazi bütövlüyümüzün bərpası, işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi, Azərbaycanın bütün sərhədləri boyunca bayrağımızın dalğalanması, soydaşlarımızın doğma yurd-yuvalarına qayıtması. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və rəşadətli ordumuzun gücü nəticəsində tarixi qələbə ilə başa çatdı. Müzəffər Ali Baş Komandan İlham Əliyev Prezident kimi 17 illik gərgin əməyinin nəticəsində Azərbaycanı ərazi bütövlüyünə qovuşdurdu, xalqımızı dünyada qalib xalq kimi tanıtdı. Tarixi Zəfərimizdən üç il sonra, 2023-cü ilin sentyabr ayında Azərbaycan Silahlı Qüvvələri müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirdikləri birgünlük antiterror tədbirləri nəticəsində suverenliyimizi bərpa etdi, Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə Azərbaycan Bayrağı ucaldıldı. Bu zəfərlər mahiyyət etibarı ilə Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi və Prezident İlham Əliyevin daha da təkmilləşdirərək müasirləşdirdiyi milli dövlətçilik strategiyasının ən böyük təntənəsi oldu.

Bu gün azad Qarabağımız, azad Şərqi Zəngəzurumuz dirçəlir, soydaşlarımız mərhələ-mərhələ doğma yurd-yuvalarına qayıdır, Böyük Qayıdış proqramı uğurla icra edilir. Azərbaycan hazırda sülh təcrübəsi ilə

dünyanın diqqətindədir. Ermənistanla əldə edilən tarixi sülh razılaşması regionda dayanıqlı sülhə, təhlükəsizliyə, yeni əməkdaşlıq formatlarının yaradılmasına geniş imkanlar yaradır. Azərbaycanın hər bir uğuru Heydər Əliyev siyasətinin təntənəsidir. Heydər Əliyev yolu daim Azərbaycanı zirvələrə, zəfərlərə aparır, bundan sonra da aparacaq.

**Mehriban Vəliyeva.** Bu gün müzakirə etdiyimiz İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı olduqca mühüm əhəmiyyət daşıyır. Təqdim olunan hesabat bir daha göstərir ki, Azərbaycanda insan alverinə qarşı mübarizə dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biridir və bu sahədə sistemli, ardıcıl, məqsədyönlü fəaliyyət həyata keçirilir.

İlk növbədə qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquqlarının müdafiəsi, vətəndaş təhlükəsizliyi və cinayətkarlığa qarşı mübarizə istiqamətində mühüm nəticələr əldə olunub. İnsan alverinə qarşı mübarizə də məhz bu siyasətin mühüm tərkib hissəsidir.

Bu gün cənab Prezidentin hüquq mühafizə orqanlarına göstərdiyi xüsusi diqqət və qayğının nəticəsi olaraq Azərbaycan dünyanın ən təhlükəsiz dövlətlərindən birinə çevrilib. Ölkəmizdə ictimai sabitliyin, vətəndaş təhlükəsizliyinin və hüquq qaydasının qorunmasının əsas qarantı məhz cənab Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət siyasətidir.

Hesabatdan da göründüyü kimi, 2025-ci ildə insan alveri ilə bağlı cinayətlərin böyük əksəriyyətinin açılması, mütəşəkkil cinayətkar qrupların ifşa olunması, informasiya texnologiyalarından istifadə edilməklə törədilən cinayətlərin aşkarlanması hüquq mühafizə orqanlarının peşəkar fəaliyyətinin göstəricisidir.

Xüsusi ilə Daxili İşlər Nazirliyinin və İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətini yüksək qiymətləndirirəm. Polis əməkdaşlarımız gecə-gündüz xalqın təhlükəsizliyi keşiyində dayanırlar. Daxili İşlər Nazirliyinin həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlər insan alverinə qarşı mübarizədə də öz müsbət nəticələrini verir.

Mən həm deputat, həm də Əfv Məsələləri Komissiyasının üzvü olaraq xüsusi vurğulamaq istəyirəm ki, insan alveri, sadəcə, hüquqi problem deyil, insan talelərinə qarşı yönəlmiş ağır cinayətdir. Bu cinayət növü insanların azadlığını, ləyaqətini və həyatını hədəf alır. Ona görə də bu istiqamətdə aparılan mübarizə yalnız hüquq mühafizə tədbirləri ilə məhdudlaşmamalı, sosial, mənəvi və maarifləndirici aspektləri də əhatə etməlidir.

Bu gün artıq insan alverinin formaları dəyişir. Əvvəllər klassik üsullarla həyata keçirilən bu cinayətlər indi daha çox rəqəmsal mühitdə, sosial şəbəkələr və müxtəlif onlayn platformalar üzərindən törədilir. Buna görə də köhnə indikatorlarla yeni təhlükələri müəyyən etmək mümkün deyil. Hesab edirəm ki, yeni texnologiyaların tətbiqi, kibermonitorinq

imkanlarının genişləndirilməsi, süni intellekt alətlərindən istifadə və beynəlxalq məlumat mübadiləsi bu sahədə əsas prioritetlərdən olmalıdır.

Eyni zamanda, vətəndaş cəmiyyəti institutlarının, qeyri-hökumət təşkilatlarının və medianın rolu da xüsusi əhəmiyyət daşıyır. Maarifləndirmə tədbirləri müasir çağırışlara uyğun qurulmalı, xüsusi ilə gənclərin istifadə etdiyi rəqəmsal platformalarda daha aktiv iş aparılmalıdır.

Mən həmçinin insan alveri qurbanlarının reabilitasiyası, sosial müdafiəsi və reinteqrasiyası istiqamətində görülən işləri də yüksək qiymətləndirirəm. Qurbanlara göstərilən tibbi, psixoloji və hüquqi dəstək

dövlətin humanist siyasətinin göstəricisidir. Hesab edirəm ki, regionlarda uşaq və qadın sığınacaqlarının sayı artırılsa daha yaxşı olardı.

Beynəlxalq təşkilatların, xüsusi ilə GRETA-nın Azərbaycanla bağlı hesabatlarında əldə olunan irəliləyişlərin müsbət qiymətləndirilməsi də ölkəmizin bu sahədə beynəlxalq standartlara uyğun fəaliyyət göstərdiyini təsdiqləyir.

Hesab edirəm ki, təqdim olunan hesabat ölkəmizdə insan alverinə qarşı mübarizə sahəsində görülən işləri obyektiv şəkildə əks etdirir. Mən dövlətimizin bu istiqamətdə həyata keçirdiyi siyasəti dəstəkləyir, hüquq mühafizə orqanlarının fəaliyyətini yüksək qiymətləndirir və İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun hesabatına müsbət səs verəcəyimi bildirirəm.

**Polad Bülbüloğlu.** Bu gün gündəlikdə müzakirəyə çıxarılan bu məsələ dövlətimizin təhlükəsizliyi, cəmiyyətimizin sağlam inkişafı və Azərbaycanın beynəlxalq mövqeyinin daha da gücləndirilməsi baxımından olduqca mühüm əhəmiyyət daşıyır. Qeyd etmək istəyirəm ki, təqdim edilən məlumat kifayət qədər ətraflı və dolğundur.

İnsan alveri XXI əsrin ən ağır transmilli cinayətlərindən biridir. Təəssüf ki, bu problem dünyanın bir çox ölkələrində olduğu kimi, regionumuz üçün də aktual olaraq qalır. Qloballaşma, qeyri-qanuni miqrasiya, sosial şəbəkələr üzərindən aparılan gizli fəaliyyətlər və insanların maddi çətinliklərindən sui-istifadə halları bu təhlükəni daha da artırır.

Azərbaycan dövləti uzun illərdir bu istiqamətdə ardıcıl siyasət həyata keçirir. Ölkəmizdə insan alverinə qarşı hüquqi baza formalaşdırılıb, xüsusi sığınacaqlar yaradılıb, hüquq mühafizə orqanları tərəfindən əməliyyat tədbirləri davamlı həyata keçirilir. Xüsusi ilə qadınların və uşaqların

müdafiəsi istiqamətində görülən işlər təqdirəlayiqdir. Lakin etiraf etməliyik ki, müasir dövrdə insan alverinin formaları dəyişir. Əvvəllər, əsasən, fiziki istismar halları müşahidə olunurdusa, bu gün artıq rəqəmsal platformalar üzərindən insanları tora salmaq, xaricdə yüksək maaş vədi ilə aldadaraq qanunsuz fəaliyyətlərə cəlb etmək kimi təhlükəli tendensiyalar yayılıb. Xüsusi ilə gənclər, iş axtaran şəxslər və sosial həssas qruplar daha çox risk altındadır.

Hesab edirəm ki, burada ən vacib məsələlərdən biri maarifləndirmədir. Rayonlarda, kəndlərdə, ali və orta ixtisas təhsili müəssisələrində geniş izahat işləri aparılmalıdır. İnsanlar bilməlidirlər ki, şübhəli iş elanları, qeyri-rəsmi vasitəçilər və saxta müqavilələr hansı təhlükələr yarada bilər.

Eyni zamanda, aidiyyəti dövlət qurumları arasında koordinasiya daha da gücləndirilməlidir. Sosial xidmətlər, təhsil müəssisələri, hüquq mühafizə orqanları və vətəndaş cəmiyyəti birlikdə fəaliyyət göstərməlidir. İnsan alveri ilə mübarizə yalnız polis tədbirləri ilə deyil, sosial müdafiə mexanizmlərinin gücləndirilməsi ilə aparılmalıdır.

Hörmətli Milli Kordinatorumuza gələcək bu vacib fəaliyyətində yeni uğurlar arzu edirəm.

***

“Diplomatik xidmət haqqında” Qanunda təklif olunan dəyişikliklər dövlətimizin beynəlxalq nüfuzu və milli maraqlarının qorunması baxımından xüsusi əhəmiyyət daşıyır.

Bu gün Azərbaycan tamamilə yeni geosiyasi mərhələdədir. 44 günlük Vətən müharibəsindən sonra regionda yaranmış yeni reallıqlar ölkəmizin diplomatik fəaliyyətinin məsuliyyətini və miqyasını daha da artırıb.

Azərbaycan artıq beynəlxalq münasibətlər sistemində yalnız iştirak edən deyil, proseslərə təsir göstərən dövlət kimi çıxış edir.

Deyə bilərəm ki, müasir dövrdə diplomatiya yalnız rəsmi görüşlərdən və protokol tədbirlərindən ibarət deyil. Bu gün diplomatiya informasiya məkanında, media platformalarında, ictimai rəydə və beynəlxalq təşkilatların qərar mexanizmlərində aparılan çox ciddi mübarizədir.

Diplomatik fəaliyyət dövründə bir çox hallarda Azərbaycanın haqq səsinin beynəlxalq mediada yetərincə eşidilmədiyinin şahidi olmuşuq. Xüsusi ilə Ermənistan–Azərbaycan münaqişəsi dövründə informasiya müharibəsində ikili standartlarla qarşılaşırdıq. Bəzən ölkəmiz haqqında həqiqətləri çatdırmaq üçün diplomatlarımız mövcud resurslardan qat-qat artıq işləməli olurdular.

Etiraf etməliyik ki, müəyyən boşluqlar da mövcuddur. Bu gün beynəlxalq mediada peşəkar fəaliyyət göstərə bilən, çevik kommunikasiya quran, rəqəmsal diplomatiyanı dərindən bilən kadrların hazırlanmasına ciddi ehtiyac var. Müasir diplomat, eyni zamanda, analitik, psixoloq, strateq və güclü kommunikator olmalıdır.

Eyni zamanda, hesab edirəm ki, mədəni diplomatiya sahəsində də fəaliyyət daha da gücləndirilməlidir. Azərbaycan zəngin mədəniyyətə, musiqiyə, multikultural dəyərlərə malik ölkədir. Mədəniyyət xalqları yaxınlaşdırır, ölkə haqqında müsbət rəy formalaşdırır. Bu baxımdan musiqimizin, incəsənətimizin və humanitar təşəbbüslərimizin beynəlxalq səviyyədə daha geniş təbliği vacibdir.

Hesab edirəm ki, "Diplomatik xidmət haqqında" Qanunda edilən dəyişikliklər diplomatik korpusun peşəkarlığının artırılmasına, müasir

çağırışlara uyğunlaşmasına və Azərbaycanın beynəlxalq mövqeyinin daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

Sonda qeyd etmək istəyirəm ki, güclü diplomatiya güclü dövlətin əsas sütunlarından biridir. Milli maraqlarımızın beynəlxalq müstəvidə qorunması üçün peşəkar, çevik və müasir düşüncəli diplomatik xidmət sistemi formalaşdırılmalıdır.

Bu baxımdan təqdim olunan layihəni dəstəkləyir və onun qəbulunu məqsədəuyğun hesab edirəm.

*******

“Yaşıllıqların mühafizəsi haqqında” Qanunda dəyişiklik edilməsi də olduqca aktual və cəmiyyət tərəfindən həssas qarşılanan mövzudur.

Son illərdə ölkəmizdə geniş abadlıq və quruculuq işləri aparılır. Şəhərlərimizin siması dəyişir, yeni parklar və istirahət zonaları yaradılır. Bununla yanaşı, bəzi hallarda yaşıllıq sahələrinin azalması, ağacların qanunsuz kəsilməsi və ekoloji tarazlığın pozulması ilə bağlı ictimai narahatlıqlar da mövcuddur.

Hamımız yaxşı bilirik ki, xüsusi ilə Bakı şəhərində ekoloji balans məsələsi olduqca vacibdir. İqlim dəyişiklikləri, havanın çirklənməsi, urbanizasiya prosesinin sürətlənməsi yaşıl zonaların qorunmasını strateji məsələyə çevirib. Ağac yalnız dekorativ element deyil, o, insan sağlamlığının, şəhərin nəfəsinin və gələcək nəslin həyat keyfiyyətinin təminatıdır.

Bu baxımdan qanunvericiliyin sərtləşdirilməsi və məsuliyyət tədbirlərinin artırılması zəruridir. Yaşıllıq sahələrinə ziyan vuran şəxslərə qarşı daha ciddi nəzarət mexanizmləri tətbiq olunmalıdır. Eyni zamanda,

yeni tikinti layihələrində ekoloji standartların qorunması əsas prioritetlərdən biri olmalıdır.

Mən hesab edirəm ki, burada cəmiyyətin iştirakı da vacibdir. Ekoloji mədəniyyət ailədən və məktəbdən başlayır. Gənc nəsildə təbiətə sevgi, ağaca və ətraf mühitə məsuliyyət hissi formalaşdırılmalıdır. Çünki ekologiya artıq yalnız təbiətin deyil, insanın sağlam gələcəyinin məsələsidir.

Bu gün Azərbaycan artıq beynəlxalq ekoloji təşəbbüslərin fəal iştirakçısına çevrilib. Xüsusi ilə ölkəmizin COP29 kimi dünyanın ən nüfuzlu iqlim platformalarından birinə ev sahibliyi etməsi Azərbaycanın ətraf mühit və iqlim məsələlərinə verdiyi önəmin açıq göstəricisidir.

COP29 yalnız beynəlxalq tədbir deyil, eyni zamanda, ölkəmiz üçün böyük məsuliyyətdir. Bu tədbir çərçivəsində Azərbaycan yaşıl enerji, dayanıqlı şəhər inkişafı və ekoloji təhlükəsizlik sahəsində nümunəvi addımlar nümayiş etdirməlidir. Hesab edirəm ki, “Yaşıllıqların mühafizəsi haqqında” Qanunda edilən dəyişikliklər də məhz bu strateji yanaşmanın tərkib hissəsi kimi qiymətləndirilməlidir.

Bu gün dünya ölkələri karbon emissiyalarının azaldılması, şəhərlərin daha yaşıl və ekoloji cəhətdən dayanıqlı hala gətirilməsi istiqamətində ciddi addımlar atır. Azərbaycan da bu prosesdən kənarda qalmamalıdır. Xüsusi ilə Bakı şəhərində və sənaye zonalarında yaşıllıq sahələrinin artırılması, ekoloji nəzarətin gücləndirilməsi və alternativ enerji layihələrinin genişləndirilməsi mühüm əhəmiyyət daşıyır.

Təklif edirəm ki, xüsusi ilə Bakı və Abşeron yarımadasında yeni tikinti layihələrinə icazə verilərkən məcburi yaşıllıq normativləri tətbiq olunsun. Yəni hər tikilən yaşayış kompleksi müəyyən faiz həcmində yaşıllıq sahəsi

yaratmağa və onu qorumağa məsul olsun. Təəssüf ki, bəzi hallarda ağacların yerində betonlaşma prosesi gedir və bu da şəhərin ekoloji vəziyyətinə ciddi təsir göstərir.

Digər vacib məsələ isə ağacəkmə kampaniyalarının formal xarakter daşımamasıdır. Əkilən ağacların sonrakı qulluq prosesi də nəzarətdə saxlanmalıdır. Çünki əsas məsələ yalnız ağac əkmək deyil, onun yaşamasını təmin etməkdir.

“Yaşıllıqların mühafizəsi haqqında” Qanunda dəyişiklik edilməsi vacibdir. İnanıram ki, dəyişikliklər bu lazımlı qanunu gücləndirəcək və faydalı olacaq.

**Sadiq Qurbanov.** Ulu Öndər Heydər Əliyevin anadan olmasından 103 il keçir. Bu illər ərzində Azərbaycan dövlətçiliyi böyük və şərəfli bir yol keçmiş, müstəqilliyimiz möhkəmlənmiş, milli ideologiyamız formalaşaraq müasir mərhələdə daha da zənginləşmişdir. Bu gün biz yalnız bir tarixi şəxsiyyəti anmırıq, eyni zamanda, Azərbaycan dövlətçiliyinin ideoloji əsaslarını formalaşdırmış böyük bir məktəb haqqında danışırıq.

Heydər Əliyev şəxsiyyəti Azərbaycan tarixində dövlətçilik düşüncəsinin sistemli ideoloji modelə çevrilməsinin əsasını qoymuşdur. Onun fəaliyyəti nəticəsində dövlət yalnız siyasi idarəetmə mexanizmi kimi deyil, milli kimliyin, tarixi yaddaşın və mənəvi dəyərlərin qoruyucusu kimi formalaşmışdır.

Ulu Öndərin əsas ideoloji baxışlarından biri ondan ibarət idi ki, milli ideologiya xalqın tarixi köklərinə, mədəniyyətinə, dilinə və mənəvi dəyərlərinə söykənməlidir. Eyni zamanda, bu ideologiya müasir dünyanın çağırışlarına cavab verən, demokratik və hüquqi dövlət prinsipləri ilə

uzlaşan bir sistem olmalıdır. Bu yanaşma Azərbaycan dövlətçiliyinin həm milli, həm də ümumbəşəri dəyərlər üzərində inkişafını təmin etmişdir.

Ümummilli Lider Heydər Əliyev milli dövlətçilik konsepsiyasını formalaşdırarkən dövlətçiliyin üç əsas dayağını xüsusi olaraq vurğulayırdı: dövlətçilik şüuru, milli vətənpərvərlik və milli-mənəvi dəyərlər. Onun fikrincə, dövlət yalnız qanunlarla deyil, vətəndaşların şüurunda formalaşan məsuliyyət hissi ilə möhkəmlənir. Hər bir vətəndaşın dövlətə sədaqəti, milli maraqları şəxsi maraqlardan üstün tutması güclü dövlətin əsas təminatıdır.

Milli ideologiyanın mühüm komponentlərindən biri kimi dil məsələsi də xüsusi yer tutur. Ulu Öndər ana dilini milli kimliyin əsas daşıyıcısı hesab edir və onun qorunmasını dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirirdi. Bu gün bu xətt Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir və Azərbaycan dili dövlət səviyyəsində qorunur, inkişaf etdirilir.

Eyni zamanda, Ümummilli Lider Heydər Əliyevin ideoloji baxışlarında milli-mənəvi dəyərlər xüsusi yer tuturdu. Ailə institutuna hörmət, böyüyə ehtiram, kiçiyə qayğı, milli adət-ənənələrin qorunması Azərbaycan cəmiyyətinin mənəvi dayaqları kimi qiymətləndirilir. Bu dəyərlər xalqımızın tarixi yaddaşını formalaşdıran və onu digər xalqlardan fərqləndirən əsas amillərdir.

Ulu Öndər dini dəyərlərə də xüsusi həssaslıqla yanaşırdı. O, İslam dinini Azərbaycan xalqının mənəvi irsinin ayrılmaz hissəsi kimi dəyərləndirir, eyni zamanda, dini fanatizm və ekstremizmə qarşı qəti mövqe sərgiləyirdi. Bu yanaşma Azərbaycanda dünyəvi dövlət modelinin möhkəmlənməsinə xidmət etmişdir.

Ümummilli Lider Heydər Əliyevin milli ideologiya konsepsiyasının mühüm istiqamətlərindən biri də ümumbəşəri dəyərlərlə milli dəyərlərin vəhdətidir. Demokratiya, hüquqi dövlət, insan hüquq və azadlıqları, plüralizm və iqtisadi azadlıqlar milli ideologiyanın tərkib hissəsi kimi qəbul edilir. Bu sintez Azərbaycanı həm milli köklərinə bağlı, həm də müasir dünya ilə inteqrasiya edən dövlət modelinə çevirmişdir.

Tarixi təcrübə göstərir ki, Azərbaycan xalqı əsrlər boyu öz dilini, mədəniyyətini və milli kimliyini qoruyub saxlamışdır. Bu gün isə həmin tarixi irs müasir dövlətçiliklə birləşərək yeni inkişaf mərhələsinə yüksəlmişdir. Xüsusi ilə Səfəvilər dövründən başlayaraq formalaşan dövlətçilik ənənələri müasir azərbaycançılıq ideologiyasının tarixi dayaqlarını təşkil edir.

Bu gün “qalib xalq” və “qalib dövlət” anlayışları məhz həmin ideoloji xəttin məntiqi nəticəsidir. 44 günlük Vətən müharibəsində əldə edilən tarixi Zəfər göstərdi ki, milli ideologiya yalnız nəzəri konsepsiya deyil, real tarixi nəticələr doğuran strateji gücdür.

Müasir dövrdə qloballaşma prosesləri fonunda milli kimliyin qorunması daha böyük əhəmiyyət kəsb edir. Bu baxımdan Ümummilli Lider Heydər Əliyevin yaratdığı ideoloji sistem Azərbaycanı yalnız daxili sabitlik və inkişaf yoluna çıxarmamış, eyni zamanda, beynəlxalq müstəvidə güclü və etibarlı dövlət kimi formalaşdırmışdır.

Bu gün biz əminliklə deyə bilərik ki, Heydər Əliyev ideoloji məktəbi Azərbaycan dövlətçiliyinin gələcək inkişaf istiqamətlərini müəyyən edən möhkəm təməldir. Bu məktəb müasir çağırışlara cavab verən, milli maraqları qoruyan və ölkəmizi davamlı inkişaf yolunda irəli aparan strateji konsepsiyadır.

Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla yad edərək qeyd edirik ki, onun ideyaları yaşayır, inkişaf edir və müasir Azərbaycanın dövlətçilik fəlsəfəsində öz təntənəsini tapır.

**Sahib Alıyev.** Çağdaş Azərbaycan dövlətini quran və qoruyan Ulu Öndər Heydər Əliyevin anadan olduğu gündə Zəngilan şəhərinə ilk köç edən soydaşlarımızla görüşdə Prezidentimiz cənab İlham Əliyevin hay toplumuna və onları geosiyasi alət gözündə görənlərə xəbərdarlıq xarakterli çıxışı oldu. Mən bu haqda danışmaq istəyir və qarşı tərəfi ondan düzgün nəticə çıxarmağa çağırıram.

Ermənistanda belə xəbərdarlıqlara əməl olunmadıqda bunun nə ilə bitdiyini unudanlar varsa, yaddaşlarını təzələsinlər. Qoy fikirləşsinlər, kimlərəsə güvənərək Azərbaycanın haqlı tələblərini vaxtında yerinə yetirməməklə biabırçı məğlubiyyət və böyük itkilərdən başqa nə əldə edə bildilər?

Heç kimə sirr deyil ki, Azərbaycan öz torpaqları üzərində suverenliyini nə cür təmin etmişdisə, qarşı tərəfi sülh masasına da o cür oturtdu. İndi revanşizm haqqında düşünənlər bunu unutmamalıdırlar.

Nə yazıq ki, Ermənistanın Qərbdəki havadarlarını da qaşıyanda altından bu regionda qətiyyən sülhdə maraqlı olmayan zatulinlər boylandığı kimi, onların təlimatı əsasında hərəkət edənlərin, sözdə sülhdən dəm vuranların da bir çoxu gizli revanşistlərdir.

Burada sual edirəm: muzdla Azərbaycan əleyhinə işlədilən Luis Moreno Okampo ilə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanı nə bağlayır? Mirzoyanın Belçika parlamentinin İrəvana təşrif gətirən sədrinə Azərbaycan və sülh əleyhinə 16 aprel qətnamələrinə görə təşəkkür etməsini biz necə anlamalıyıq? Ermənistan parlamentinin sədri Alen

Simonyan da ötən həftə eyni mahiyyətli qətnaməyə görə Avropa Parlamentinin sədrinə təşəkkür edirdi. Bu, nə deməkdir? Onlar bu cür davranışlarıyla Karapetyandan, Köçəryandan, ikinci Qaregindən, revanşizm haqda düşündüklərini gizlətməyən digərlərindən çoxmu fərqlənirlər? Təəssüf ki, yox. Çünki eyni toplumun təmsilçiləridirlər. O toplumun ki, cənab Prezidentin sözügedən çıxışında da məqsədli şəkildə vurğulandığı kimi, Zəngilanı öz nasist rəhbərləri ilə birgə talayırdılar. Yeri gəlmişkən, Zəngilan təkcə Azərbaycanın iki ölkə ilə həmsərhəd olan tək bölgəsi deyil, həm də talanan var-dövlətinin o iki ölkənin ikisinə də daşınan bölgəsidir və bu da unutmayacağımız keçmişdir.

Ermənistanda bilməlidirlər ki, Azərbaycan Prezidenti bu reallığı elə-belə xatırlatmırdı. Azərbaycan xalqına, dövlətinə nifrətlə yaşayanlar hakimiyyətə gəlsələr, başlarının dərddə olacağı haqda xəbərdarlığının hədəfi təkcə revanşizm haqqında düşündüklərini gizlətməyənlər deyil. Yəni təkcə onların deyil, orada çoxlarının başı dərddə olacaq.

Amma buna, ən yaxşı halda "real Ermənistan"ın Ararat Respublikasının sərhədləri çərçivəsinə qaytarılmasına ehtiyac varmı? Bu gün məzlum və incidilmiş görkəmi alanların keçmişlərini yaxşı bildiyimiz, vəhşiliklərini, talançılıqlarını unutmadığımız halda biz bunu istəmirik, sülh və normal qonşuluq təklif edirik. Hansını istəyirlərsə, onu da seçsinlər.

**Səbinə Salmanova.** Əvvəlcə onu bildirim ki, müzakirə etdiyimiz İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı yüksək səviyyədə hazırlanıb və sənədin lehinə səs verəcəyəm. Hesab edirəm ki, sənəd dövlətimizin insan hüquq və azadlıqlarının qorunması istiqamətində həyata keçirdiyi ardıcıl, sistemli və məqsədyönlü siyasətinin mühüm tərkib hissəsini əks etdirir.

Son illərdə bu istiqamətdə qanunvericilik bazasının təkmilləşdirilməsi, hüquq mühafizə orqanlarının fəaliyyətinin gücləndirilməsi, beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi və maarifləndirmə tədbirlərinin artırılması mühüm nəticələr verib. İnsan alveri cinayətlərinin aşkar olunması, zərərçəkmiş şəxslərin müdafiəsi, onların reabilitasiyası və sosial reinteqrasiyası istiqamətində həyata keçirilən tədbirlər dövlətin bu məsələyə nə qədər həssas yanaşdığını göstərir.

Xüsusi ilə vurğulamaq lazımdır ki, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə insan hüquqlarının qorunması dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyən olunub. Bu istiqamətdə aidiyyəti dövlət qurumlarının koordinasiyalı fəaliyyəti nəticəsində insan alverinə qarşı mübarizə mexanizmləri daha da gücləndirilib.

Bildiyiniz kimi, insan alveri ilə mübarizədə aparılan genişmiqyaslı maarifləndirmə kampaniyaları da xüsusi əhəmiyyət daşıyır. Çünki bu bəlaya qarşı mübarizə yalnız hüquq mühafizə orqanlarının işi deyil, bütövlükdə, cəmiyyətin birgə məsuliyyətidir.

Təəssüf ki, insan alveri və insan istismarı halları dünya miqyasında olduğu kimi, ölkəmizdə də müəyyən formada mövcuddur və yeni çağırışlarla özünü göstərir. Müasir texnologiyaların inkişafı, sosial şəbəkələrin geniş yayılması bu sahədə yeni risklər formalaşdırır.

Bu baxımdan, hesab edirəm ki, sosial şəbəkələrə, xüsusi ilə “TikTok” platformasına nəzarət daha da gücləndirilməlidir. Əfsuslar olsun ki, bəzi hallarda ayrı-ayrı şəxslər tərəfindən bu platformada əxlaqsızlığın təbliği, insanların mənəvi dəyərlərinə zidd davranışların nümayiş etdirilməsi və gənclərin yanlış istiqamətləndirilməsi kimi hallara rast gəlinir. Xüsusi ilə

azyaşlıların və yeniyetmələrin bu cür zərərli paylaşımların təsiri altına düşməsi ciddi narahatlıq doğurur.

Doğrudur, aidiyyəti dövlət qurumları tərəfindən bu istiqamətdə nəzarət tədbirləri həyata keçirilir, monitorinqlər aparılır, qanunsuz fəaliyyətlə məşğul olan şəxslər məsuliyyətə cəlb olunur. Lakin hesab edirəm ki, sosial şəbəkələrə nəzarət daha da gücləndirilməli, cəmiyyətin mənəvi təhlükəsizliyinə təhdid yaradan hallara qarşı daha prinsipial mövqe nümayiş etdirilməlidir.

**Şahin Seyidzadə.** Azərbaycan tarixində elə liderlər var ki, onların fəaliyyəti bir dövrü deyil, bütöv bir epoxanı əhatə edir. Heydər Əliyev belə liderlərdəndir. Onun xalqına olan sevgisi, qətiyyətli siyasi iradəsi və uzaqgörənliyi nəticəsində bu gün biz müstəqil, güclü və nüfuzlu bir dövlətin vətəndaşlarıyıq.

Xüsusi ilə vurğulamaq istərdim ki, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıtdığı 1993-cü il Azərbaycan üçün dönüş nöqtəsi oldu. Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə sabitlik bərqərar olundu, hüquqi dövlət quruculuğuna start verildi, iqtisadi islahatlar həyata keçirildi. Bugünkü inkişafın, müstəqilliyin qorunub saxlanmasının əsasında məhz o dövrdə atılmış düşünülmüş və ardıcıl addımlar dayanır.

Ulu Öndərin həyata keçirdiyi neft strategiyası, regional və beynəlxalq əməkdaşlıqlar sahəsindəki uğurlu təşəbbüsləri ölkəmizi dünyanın enerji xəritəsində strateji mövqeyə çıxardı. “Əsrin müqaviləsi” ilə Azərbaycan təkcə sərvət əldə etmədi, biz öz suverenliyimizi iqtisadi müstəqilliklə möhkəmləndirdik. Bu strateji baxış bu gün də Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir və yeni reallıqlar fonunda ölkəmizin qüdrətini daha da artırır.

Heydər Əliyev Azərbaycan xalqının milli dövlətçilik ənənələrinin bərpası və inkişafı naminə misilsiz xidmətlər göstərmişdir. O, istər sovet dövründə Azərbaycanın rəhbəri kimi, istərsə də müstəqillik illərində ölkə Prezidenti olaraq hər zaman xalqın rifahını, dövlətin möhkəmlənməsini, ölkənin müasir inkişaf yoluna çıxmasını ən əsas vəzifəsi kimi görmüşdür.

Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin əsasını xalqına arxalanmaq, milli maraqları hər şeydən üstün tutmaq və gələcəyə möhkəm zəmin hazırlamaq prinsipləri təşkil edirdi. "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri onun millətinə olan sonsuz sevgisini, vətənə bağlılığını aydın şəkildə ifadə edir. Əminliklə deyə bilərik ki, Heydər Əliyevin siyasi xətti bu gün də dövlətin inkişafına istiqamət verir. Onun qoyduğu təməl prinsiplər — qanunun aliliyi, vətəndaşa xidmət, milli maraqlara sadiqlik bu gün əsas bələdçidir.

Bu gün artıq müstəqil, suveren və qalib Azərbaycan reallığı vardır. 2020-ci ildə müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunması Heydər Əliyev siyasətinin davamlılığının və uğurunun ən bariz sübutudur.

Bizlər bu siyasətin davam etdirilməsi, hüquqi dövlətin möhkəmləndirilməsi, vətəndaş rifahının yüksəldilməsi və gənc nəslin vətənpərvər ruhda yetişdirilməsi üçün var gücümüzlə çalışmalıyıq. Bu, həm mənəvi borcumuzdur, həm də Ulu Öndərin ruhu qarşısında məsuliyyətimizdir.

Allah Ulu Öndər Heydər Əliyevə rəhmət eləsin! Onun adı Azərbaycan tarixinə əbədi həkk olunmuşdur və qəlbimizdə daim yaşayacaqdır.

Bayrağımız uca, dövlətimiz möhkəm, xalqımız bir olsun!

**Tənzilə Rüstəmxanlı.** Prezident İlham Əliyevin işğaldan azad olunmuş bölgələrə hər səfəri tarixi hadisədir. Hər rayonun spesifik xüsusiyyətləri, orada aparılan abadlıq-quruculuq işləri və 44 günlük Vətən müharibəsində həmin rayonda keçirilmiş döyüş əməliyyatları bu səfərləri məzmunca bir-birindən fərqləndirir. Bu səfərlər zamanı xüsusi diqqətçəkən məqam isə dövlət başçısının doğma yurd-yuvalarına qayıdan insanlarla söhbəti və onların qarşısında etdiyi çıxışda yer alan mühüm mesajlardır.

Zəngilan şəhərində keçirilən görüşdə Azərbaycan Prezidentinin Vətən müharibəsi şəhidi Samir Sarıyevin atasına qarşı jesti nə qədər humanist və kövrək idisə, qalib komandan kimi çıxışında yer alan məqamlar, konkret ünvanlara dövlətimizin mövqeyini ifadə edən fikirlər bir o qədər sərt və qətiyyətli idi. Dövlət başçısı görüşdə çıxışı zamanı həm regiondakı mövcud geosiyasi vəziyyətə, həm də Azərbaycan–Ermənistan münasibətlərinə toxunaraq mühüm mesajlar verib.

Prezident hər dəfə bu cür görüş və tədbirlərdə çox haqlı olaraq tez-tez tarixə ekskursiya edir, bir çox mühüm məqamları xatırladır, yaddaşı zəif olanların yaddaşını təzələyir. Görünən odur ki, buna ciddi ehtiyac var. Çünki zaman keçdikcə, vaxtı ilə Azərbaycana təzyiq edən, ölkəmizi mövcud işğal faktı ilə barışmağa çağıran, reallıqları qəbul etdirməyə çalışan tərəflər bu gün də müxtəlif platformalarda yenidən aktivləşirlər. Onları hər dəfə yerində oturtmaq üçün Azərbaycan Prezidenti sərrast ifadələrlə, tarixi faktlara istinad etməklə məsələlərə bir daha aydınlıq gətirir. Azərbaycan dəfələrlə bəyan edib ki, regiona xarici hərbi-siyasi müdaxilə sülhə deyil, qarşıdurmaya xidmət edir.

Azərbaycan müharibə istəmir, lakin öz təhlükəsizliyini təmin etmək üçün bütün imkanlara malikdir. Ermənistan və onun havadarları

anlamalıdırlar ki, revanşist qüvvələrin hakimiyyətə gəlməsi ilk növbədə erməni xalqının özü üçün faciəyə çevriləcək. Cənab Prezident məsələlərə ətraflı münasibət bildirməklə bir daha onlara xatırlatdı ki, öz yerlərini bilsinlər. Yalandan guya Ermənistana və erməni xalqına dəstək nümayiş etdirməklə nəyəsə nail olmaq mümkün deyil. Bu regionda həyata keçiriləcək bütün layihələr birmənalı şəkildə Azərbaycanın razılığı və iştirakı ilə mümkündür. Bundan kənarda heç bir variant yoxdur. Biz torpaqlarımızı işğaldan azad etməklə yanaşı, eyni zamanda, genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçiririk. İnsanlarımızın geri qayıdışını təmin edirik. Biz sivil qaydada öz dövlətimizi gücləndirir və regionda sülhə, sabitliyə xidmət edən siyasət yürüdürük.

Azərbaycan müharibəni bitirib və regionda davamlı sülhün tərəfdarıdır. Dövlət başçısının dediyi kimi, əgər Azərbaycan istəməsəydi, bölgədə sülhdən danışmaq mümkün olmazdı. Bu gün bəzi xarici dairələr, xüsusi ilə Fransa Prezidenti Emmanuel Makron populist bəyanatlarla Ermənistanı müdafiə etməyə çalışır. Halbuki 2020-ci ildə Ermənistan ağır məğlubiyyətə uğrayanda həmin dairələr heç nə edə bilmədilər. Bu gün sərhəddə yerləşdirilən dırnaqarası Avropa müşahidəçiləri də vəziyyəti sabitləşdirmək deyil, əksinə, gərginliyi artırmaq məqsədi daşıyır. “Binokl diplomatiyası” qəbuledilməzdir.

Ermənistan və onun havadarları anlamalıdırlar ki, Azərbaycana qarşı istənilən təxribat çox sərt şəkildə cavablandırılacaq. Prezident İlham Əliyevin Zəngilan sakinləri ilə görüşündə səsləndirdiyi fikirlər bir daha göstərdi ki, Azərbaycan artıq yeni tarixi mərhələyə qədəm qoyub.

Dövlətimizin gücü, xalqımızın birliyi və Prezident İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində ölkəmiz regionun əsas siyasi, iqtisadi və

hərbi güc mərkəzinə çevrilib. Bu gün azad edilmiş torpaqlarda aparılan quruculuq işləri Azərbaycanın gələcəyinin daha güclü, daha təhlükəsiz və daha firavan olacağının ən parlaq göstəricisidir.

***

Bu gün biz Milli Koordinatorun 2025-ci il üzrə məlumatını dinləyərək, cəmiyyətimizin ən ağrılı və transmilli xarakter daşıyan problemlərindən biri olan insan alverinə qarşı aparılan mübarizənin nəticələrini müzakirə edirik. Təqdim olunan hesabatdan görünür ki, ötən il ərzində bu cinayətlərin qarşısının alınması, qurbanların reabilitasiyası və hüquq mühafizə orqanlarının vacib tədbirləri istiqamətində ciddi işlər görülmüşdür.

Məlumdur ki, insan alveri təkcə fərdi deyil, həm də milli təhlükəsizlik və insan ləyaqəti məsələsidir. Hesabatda qeyd olunan rəqəmlər göstərir ki, xüsusi ilə internet və sosial media platformaları vasitəsi ilə insanların aldadılaraq istismara məruz qalması halları yeni çağırışlar yaradır. Bu baxımdan bir neçə məqamı xüsusi vurğulamaq istərdim:

1. Maarifləndirmənin gücləndirilməsi. İnsan alveri ilə mübarizə təkcə cəza tədbirlərindən ibarət olmamalıdır. Biz regionlarda, xüsusi ilə gənclər və risk qrupuna daxil olan şəxslər arasında məlumatlılıq səviyyəsini artırmalıyıq.

2. Qurbanların sosial vəziyyəti. İnsan alverindən zərər çəkmiş şəxslərin cəmiyyətə yenidən adaptasiyası, onlara psixoloji və hüquqi yardımın göstərilməsi sahəsində sığınacaqların fəaliyyətinin genişləndirilməsi təqdirəlayiqdir. Lakin bu şəxslərin daimi işlə təminatı üçün dövlət–özəl tərəfdaşlığı mexanizmlərini daha da inkişaf etdirməliyik.

3. Beynəlxalq əməkdaşlıq. İnsan alveri sərhəd tanımayan cinayətdir. Milli Koordinatorun hesabatında beynəlxalq tərəfdaşlarla birgə keçirilən

əməliyyatların artması, Azərbaycanın bu sahədə qlobal reytinqlərdə mövqeyinin qorunması müsbət göstəricidir.

Nəticə olaraq, hesabatda əks olunan fəaliyyəti qənaətbəxş hesab edirəm. Dövlətimizin siyasi iradəsi və qanunvericilik bazamız bu bəla ilə effektiv mübarizə aparmağa tam imkan verir. Lakin biz millət vəkilləri olaraq da seçicilərimizlə görüşlərdə bu mövzunu diqqətdə saxlamalı, vətəndaşlarımızı daha sayıq olmağa çağırmalıyıq.

İnsan alverinə qarşı mübarizədə apardıqları qətiyyətli fəaliyyətə görə daxili işlər naziri Vilayət Eyvazova və kollektivinə təşəkkürümü bildirirəm. Görülən davamlı tədbirlər nəticəsində Azərbaycanda qeydə alınan ümumi cinayətlərin içərisində insan alveri cəmi 0,6 faiz təşkil edir. Bu göstərici aparılan işin sistemli və effektiv olduğunu bir daha təsdiq edir.

Eyni zamanda, bu sahədə həyata keçirilən profilaktik tədbirlər və maarifləndirmə işləri cəmiyyətin təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verir.

Milli Koordinatorun təqdim etdiyi məlumatı nəzərə almağı və dəstəkləməyi təklif edirəm.

**Ülviyyə Həmzəyeva.** Zamanı aşan liderlik irsi. Tarixin yaddaşında elə şəxsiyyətlər var ki, onların adı yalnız yaşadıqları dövrlə məhdudlaşmır. Onlar zamanın sərhədlərini aşır, xalqın taleyində istiqamətverici qüvvəyə, dövlətin varlığında sarsılmaz dayağa çevrilirlər. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev məhz belə şəxsiyyətlərdəndir. Onun ömür yolu bir insanın bioqrafiyası deyil, bütöv bir xalqın dirçəliş salnaməsidir.

Ulu Öndər Heydər Əliyevin adı Azərbaycan dövlətçiliyinin ən çətin, ən məsuliyyətli və ən şərəfli səhifələri ilə bağlıdır. O, xalqın inamının sarsıldığı, dövlətçiliyin təhlükə qarşısında qaldığı bir zamanda tarixin ağır yükünü öz

çiyinlərinə götürdü. 1993-cü ilin iyununda onun yenidən siyasi hakimiyyətə qayıdışı təkcə hakimiyyət dəyişikliyi deyildi, bu, Azərbaycanın dağılmaq təhlükəsindən xilas olaraq sabitliyə, dövlətçiliyə və gələcəyə qayıdışı idi.

Heydər Əliyev Azərbaycanı xaosdan nizama, ümidsizlikdən inama, parçalanma təhlükəsindən milli birliyə apardı. Onun qətiyyəti, siyasi müdrikliyi və dövlətçilik təcrübəsi sayəsində ölkədə ictimai-siyasi sabitlik bərpa olundu, dövlət institutları möhkəmləndi, müstəqil Azərbaycanın inkişaf yolu müəyyənləşdi. Bu yol, sadəcə, siyasi kurs deyildi, bu, xalqın sabaha inamını yenidən dirçəldən böyük bir dövlətçilik məktəbi idi.

Ulu Öndərin "Mən həyatımın qalan hissəsini də xalqıma bağışlayıram" sözləri onun bütün fəaliyyətinin mənəvi mahiyyətini ifadə edirdi. O, hakimiyyəti vəzifə kimi deyil, xalq qarşısında tarixi məsuliyyət kimi qəbul edirdi. Heydər Əliyev üçün Azərbaycan, sadəcə, coğrafi məkan deyildi, Azərbaycan onun qəlbinin döyüntüsü, ömrünün mənası, siyasi irsinin əbədiyyət ünvanı idi.

Bu gün müstəqil, güclü və qalib Azərbaycan məhz həmin möhkəm təməllər üzərində ucalır. Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən Heydər Əliyev siyasi kursu ölkəmizi yeni tarixi zirvələrə yüksəltdi. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası bu siyasətin ən möhtəşəm bəhrələrindən biri kimi tarixə yazıldı. Qarabağ Zəfəri Ulu Öndərin illərlə böyük inamla dediyi həqiqətin — Azərbaycanın haqq yolunun sonda mütləq qalib gələcəyinin təsdiqi oldu.

Bu gün Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünü qeyd edərkən biz yalnız böyük bir dövlət xadimini xatırlamırıq. Biz müstəqil Azərbaycanın banisini, milli qürurumuzun memarını, xalqını gələcəyə aparan tarixi şəxsiyyəti ehtiramla anırıq. Onun ideyaları yaşayır, onun

siyasi irsi dövlətimizin gücündə, xalqımızın birliyində, Azərbaycanın gündən-günə artan nüfuzunda öz parlaq ifadəsini tapır.

Nə qədər Azərbaycan var, nə qədər bu xalq öz dövlətinə, bayrağına və müstəqilliyinə sahib çıxır, Heydər Əliyev adı da yaşayacaq. Çünki Heydər Əliyev yalnız tarixdə qalan lider deyil, Azərbaycanın bu günündə və sabahında yaşayan əbədi dövlətçilik ruhudur.

**Ülvi Quliyev.** Keçən həftə Ermənistanda "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısı keçirildi. Tədbir bir çox amillər baxımından diqqət çəkdi. Nəzərə alsaq ki, Azərbaycan–Ermənistan münasibətləri 1987-ci ildən indiyədək qlobal siyasətin aparıcı müzakirə mövzularından biri olub və əksər hallarda ondan Cənubi Qafqaza siyasi təsir mexanizmi kimi istifadə edilib, baş tutan toplantı ölkəmiz üçün həm də bu baxış bucağından əhəmiyyətlidir.

Tədbirin Ermənistanda keçirilməsinə baxmayaraq, əksər Avropa liderlərinin və Avropa İttifaqının yüksəksəviyyəli rəsmilərinin çıxışlarında dönə-dönə Azərbaycana və Azərbaycan Prezidentinə istinad edilməsi bir daha göstərir ki, avropalıların Cənubi Qafqaza dair baxış və hədəflərinin mərkəzində, onların arzu və istəklərindən asılı olmayaraq, yenə də müstəqil Azərbaycan dayanır. Bir çox ekspertlər bu tədbiri gələn ay Ermənistanda keçiriləcək parlament seçkilərində Paşinyan hökumətinə siyasi dəstəyin açıq ifadəsi kimi qiymətləndirsələr də, Zirvə toplantısı daha dərin siyasi məqsədləri hədəfləyir. Son onilliklər ərzində ilk dəfə olaraq ABŞ–Aİ münasibətlərində açıq fikir ayrılığının üzə çıxdığı, Rusiya–Ukrayna müharibəsinin və Yaxın Şərqdə gərginliyin davam etdiyi şəraitdə bu toplantı, əslində, Avropanın geosiyasi hədəflərinin konturlarını daha çox üzə çıxarır.

Biz bu tədbiri, ilk növbədə, ölkəmizin maraqları baxımından təhlil etməliyik. Avropalı liderlərin bir çoxu bəyan etsə də ki, onlar Azərbaycan və Ermənistan arasında sülh prosesini dəstəkləyirlər, Avropa Parlamentinin və AŞPA-nın son beş ildə Azərbaycana qarşı qəbul etdiyi əsassız qətnamələr həmin bəyanatların səmimiliyinə yalnız kölgə salır. Avropa Parlamentinin 30 aprel tarixli sayca 14-cü qətnaməsində ölkəmizə qarşı irəli sürülən növbəti qərəzli iddialar Azərbaycanın məqsədli şəkildə hədəf seçildiyini təsdiq edir. Bu müddəaların hər biri mövcud reallığı təhrif etməklə yanaşı, Azərbaycan Prezidentinin siyasi iradəsi və təşəbbüsü ilə başlanılan sülh prosesini də görməzdən gəlir, iki ölkə arasında qurulmaqda olan etimad mühitinə yalnız zərbə vurur.

Bu cür Avropa təsisatlarında sağlam məntiqin "ipucu"nun itirilməsinə ən çox o dəlalət edir ki, onlar etnik və dini zəmində bölücülüyü, təhlükəli qarşıdurmanı təşviq edən cahil, dünyəvi dəyərlərlə yanaşı, beynəlxalq hüquqa da zidd olan utancverici arqumentləri açıq şəkildə dilə gətirməkdən artıq çəkinmirlər. Necə ola bilər ki, başqa coğrafiyalarda, o cümlədən Ukraynada separatçıların nəinki həbsini, hətta fiziki cəhətdən məhvini təqdir edənlər Azərbaycana gəldikdə məhkum olunmuş erməni separatçılarını utanmadan "müharibə əsiri", "siyasi məhbus" və hətta "girov" adlandırırlar? Yaxud hansı sağlam məntiqlə izah oluna bilər ki, belələri Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə guya dəstək verdiklərini bəyan etdikləri halda, qətnamələrində artıq mövcud olmayan toponimlərə, o cümlədən keçmiş "Dağlıq Qarabağ" ifadəsinə yer verirlər? Bu, təkcə hüquqi nihilizm məsələsi deyil, həm də növbəti dəfə ən bəsit siyasi riyakarlıq nümunəsidir!

Prezident İlham Əliyev “Avropa Siyasi Birliyi”nin Zirvə toplantısına videobağlantı formatında qoşularaq bu cür təhlükəli siyasi riyakarlığın və ayrı-seçkiliyin yolverilməz olduğunu, onun Azərbaycan tərəfindən heç vaxt qəbul edilməyəcəyini beynəlxalq ictimaiyyətin diqqətinə növbəti dəfə açıq mətnlə çatdırdı: “İkinci Qarabağ müharibəsi bitdikdən cəmi altı ay sonra – 2021-ci ilin mayından 2026-cı ilin aprelin 30-na qədər Avropa Parlamenti Azərbaycanla bağlı təhqir və yalanlarla dolu 14 qətnamə qəbul edib. Sadəcə, təsəvvür edin: beş il ərzində 14 qətnamə aludəçilikdir”. Səbəb isə odur ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib, separatçılığa son qoyub və müharibə cinayətkarlarını ədalət mühakiməsinə cəlb edib.

Bu bəyanat yalan və böhtan, şantaj və çirkin qarayaxma aludəçilərinə həm də onun xəbərdarlığıdır ki, Azərbaycanın beynəlxalq hüquq normaları əsasında Cənubi Qafqazda yaratdığı reallığı nəzərə almadan və ona hörmət etmədən, kimlərinsə bu coğrafiyada dayanıqlı maraqları barədə düşünməsi sadəlövhlükdən başqa bir şey deyil. Heç bir qərəzli qətnamə və ya pafoslu bəyanat mövcud reallığı dəyişdirə bilməyəcək! Eyni zamanda, heç kim xülyalara qapılaraq düşünməsin ki, Prezident İlham Əliyevin növbəti bəyanatının söykəndiyi geosiyasi reallığı da poza biləcək: “Sülh sahəsində digər nailiyyət bağlantılardır. “Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu” Azərbaycanı öz eksklavı Naxçıvanla birləşdirəcək və bununla yanaşı, o, Orta Dəhlizin bir hissəsinə çevriləcək”.

*******

Ötən gün İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloninin Azərbaycana səfəri beynəlxalq medianın və siyasi ekspertlərin diqqət mərkəzindədir. Enerji təhlükəsizliyi ilə bağlı məsələlərin əksər

Avropa ölkələri üçün bir nömrəli vəzifəyə çevrildiyini nəzərə alsaq, geosiyasi turbulentliyin yüksəldiyi və oturuşmuş hərbi-siyasi alyanslarda ənənəvi müttəfiqlər arasında münasibətlərin sərinləşdiyi bir dövrdə bu səfərə göstərilən diqqət təbii və anlaşılandır.

Baş nazir Ciorcia Meloninin Ermənistanda keçirilən “Avropa Siyasi Birliyi”nin 8-ci Zirvə toplantısında iştirakdan dərhal sonra ölkəmizə səfər etməsi də aparıcı beyin mərkəzlərinin diqqətindən yayınmır. Heç şübhəsiz ki, bu səfər dövlətlərarası münasibətlərin daha irəli aparılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan və İtaliya arasında siyasi əlaqələr 2014-cü və 2020-ci illərdə imzalanmış strateji tərəfdaşlıq haqqında bəyannamələrə söykənir. Eyni zamanda, İtaliya ölkəmizin əsas ticarət tərəfdaşıdır və Azərbaycan İtaliyanın neft-qaz təchizatında ikinci yerdə qərarlaşır. Ötən il ölkəmizin ixrac etdiyi 25 milyard kubmetr təbii qazın 9,5 milyardı İtaliyanın payına düşür. Təkcə bu fakt göstərir ki, Cənub Qaz Dəhlizi və onun ayrılmaz tərkib hissəsi olan TAP boru kəməri Avropanın enerji təhlükəsizliyində bu gün xüsusi rol oynayır. Enerji daşımalarında yaranan çətinliklər, o cümlədən Hörmüz boğazında davam edən qarşıdurma şəraitində Azərbaycanın siyasi-iqtisadi dayanıqlığı Avropadakı tərəfdaşlarımız üçün müstəsna əhəmiyyət kəsb edir.

Bununla yanaşı, Azərbaycan–İtaliya əlaqələri yalnız enerji əməkdaşlığı ilə məhdudlaşmır, çünki müasir dövrdə siyasi əlaqələr iqtisadi münasibətləri daha çox təsirləndirir. Baş nazir Ciorcia Meloni mayın 4-də Bakıda mətbuata verdiyi bəyanatında həmin məqamı xüsusi qeyd etdi: “Bu gün ölkələrimiz arasında münasibətlərə gəldikdə, bu, siyasi baxımdan mənim üçün əhəmiyyətlidir. Çünki İtaliyanın Baş nazirinin Azərbaycana

rəsmi səfərindən 13 il ötür. Düşünürəm ki, yaranmış bu qədər uzunmüddətli boşluğu doldurmalı idik".

Aydındır ki, hazırkı mürəkkəb geosiyasi şəraitdə dəhliz və bağlantıların əhəmiyyəti enerji təchizatı qədər prioritet sahədir və tranzit təhlükəsizliyi nəinki Avropanın, bütövlükdə, dünya iqtisadiyyatının funksionallığına birbaşa təsir edir. O da danılmaz həqiqətdir ki, Azərbaycan ərazi bütövlüyünü tam və mütləq ölçüdə bərpa etdikdən sonra təkcə Cənubi Qafqazda deyil, daha geniş coğrafiyada – Avrasiya məkanında strateji mərkəzlərdən birinə çevrilib. Bu, son iki əsrlik tariximizdə əldə olunan bənzərsiz strateji nailiyyətdir və həmin reallıq Avropa liderlərinin diqqətindən yayınmır. Baş nazir Ciorcia Meloninin Bakıdan verdiyi növbəti mesaj elə həmin geosiyasi və geoiqtisadi gerçəkliyi əks etdirir: "Bilirik ki, enerji və bağlantılar eyni medalın iki üzüdür. İstərdik ki, Azərbaycan Avropa ilə Asiya arasında fundamental qovşaq rolunu möhkəmləndirsin. İtaliya bu baxımdan Avropa bazarına imtiyazlı giriş qapısı rolunu hər zaman oynamağa hazırdır".

Azərbaycana verilən bu yüksək dəyərin və edilən təklifin arxasında təkcə coğrafi üstünlüyümüz dayanmır. İtaliya Baş nazirinin mətbuata bəyanatından da göründüyü kimi, bu, ilk növbədə, siyasi və iqtisadi öhdəliklərinə hər zaman sadiq olan Azərbaycanın etibarlı tərəfdaş statusu ilə bağlıdır. Müasir dövrün təhlükəli çağırışları fonunda iqtisadi resurslarını siyasi kapitala çevirə bilmiş aktorların sayı dünyada elə də çox deyil. Beynəlxalq hüququn ayaqlar altına atıldığı və beynəlxalq münasibətlər sistemində qarşılıqlı etimad mühitinin ciddi şəkildə zədələndiyi bir dövrdə çox az ölkə etibarlı tərəfdaş statusunu qoruya bilir. Prezident İlham Əliyevin İtaliya Baş nazirinin iştirakı ilə mətbuata bəyanatında səsləndirdiyi bu

açıqlama da elə həmin siyasi gerçəkliyə söykənir: “Sizin bu gün Azərbaycanda olmağınız bir daha Azərbaycan–İtaliya əlaqələrinin nə qədər dərin məzmunlu olmasından xəbər verir. Hər kəs bilir ki, Siz bu gün Ermənistanda idiniz. Ermənistanda öz proqramınızı bitirib Azərbaycana gəlmək bizim üçün xüsusi məna daşıyır, çox böyük rəmzi məna daşıyır, eyni zamanda, Azərbaycana göstərilən hörmətin və xoş münasibətin bariz təzahürüdür”.

Bu diplomatik mesajın arxasında dayanan həqiqətləri dost İtaliya ilə yanaşı, artıq bir çox Avropa liderləri də görür və onunla hesablaşır. Son bir ayda Avropanın beş dövlət liderinin Azərbaycana ardıcıl səfərləri də elə həmin siyasi gerçəkliyin əyani etirafıdır.

***

Ulu Öndər Heydər Əliyev kimi şəxsiyyətlərin qiymətini tarix özü verir. Zaman ötdükcə Heydər Əliyev şəxsiyyətinin miqyasını daha çox anlayırsan. Anlayırsan ki, həyatın mənasını xalqa və dövlətə xidmətdə görən Heydər Əliyev kimi böyük şəxsiyyətlərin ömür yolu heç vaxt özlərinə məxsus olmur.

Həyat yolunun qayəsi ilə bağlı fikirləri bir çoxumuz vaxtı ilə Ulu Öndərin özündən eşitmişik. Gənclər, yetişməkdə olan nəsil isə bunu o dövrün videoarxivindən görür, kitablardan oxuyur. Heydər Əliyev belə deyirdi: “Demişəm və indi də deyirəm: həyatımın bundan sonrakı hissəsini xalqa bağışlamışam. Mən həyatımın mənasını xalqıma xidmətdə görürəm. Azərbaycan mənim həyatımın mənasıdır”.

Ona görə də nə Qorbaçov və aqanbekyanların, nə də onların əlaltılarının təhlükəli təqib və təzyiq kampaniyası Ulu Öndəri bu yoldan döndərə bilmədi. Heydər Əliyev əyilməz iradəsi ilə naqis və alçaq planları

iflasa uğratdı. Ulu Öndər ibrətamiz nəsihətlərindən birində deyirdi: "Böyük siyasəti kiçik hisslərə, xırda mənfəətlərə bağlamaq olmaz". Heydər Əliyev öz həyat yolu ilə sübut etdi ki, kimliyindən asılı olmayaraq, bu cür cılız zehniyyət daşıyıcıları böyük şəxsiyyətlər qarşısında həmişə məğlubiyyətə məhkumdur.

Ümummilli Lider Heydər Əliyev hər kəsdən yaxşı bilirdi ki, seçdiyi yol dövlət müstəqilliyimizin qorunması və ərazi bütövlüyümüzün bərpası ilə bağlı olduğu üçün bir çox həmkarlarından və müasirlərindən fərqli olaraq, bu yol ondan şəxsi fədakarlıq tələb edəcək, böyük qüvvələrin ağlasığmaz təzyiqi ilə üzləşməli olacaq. Bunları bilə-bilə Ulu Öndər 1993-cü ilin iyununda torpaqları işğal olunmuş, qardaş qırğını ilə üz-üzə dayanan o zamankı Azərbaycanın ağır ictimai-siyasi və hərbi mirasının məsuliyyətini öz çiyinlərinə götürdü. Bu tarixi qərarın təməlində sonsuz ümid və inam dayanırdı: Heydər Əliyev şəxsiyyətinə, onun böyük idarəçilik təcrübəsinə, siyasi nüfuz və müdrikliyinə bütöv bir xalqın sarsılmaz inamı.

Hətta sonradan həyatına edilən sui-qəsd cəhdləri, terror həmlələri də Ulu Öndəri xalqımıza və dövlətimizə fədakar xidmət amalından döndərə bilmədi. Heydər Əliyev kimi tarixi şəxsiyyətlər heç vaxt təsadüfi fikir söyləmirlər. Ulu Öndərin həyat yolu kimi, kəlamları da xalqımızın və müstəqil Azərbaycanın gələcəyinə, bu gününə işıq salırdı. Ulu Öndər deyirdi ki, "Tarix həmişə hər şeyi öz yerinə qoyur". İlahi və tarixi ədalətin təcəllisidir ki, Azərbaycanın dövlət müstəqilliyinin xilas salnaməsində Heydər Əliyev imzası, tarixi qələbəmizin altında isə Ulu Öndərin fiziki və siyasi varisi Prezident İlham Əliyevin müzəffər imzası dayanır!

Cənab Prezident iki il əvvəl Milli Məclisdə keçirilən andiçmə mərasimində Azərbaycan xalqı ilə yanaşı, bütün türksoylu millətlərə "Bizim

ailəmiz türk dünyasıdır" kimi tarixi ismarıc göndərdi. Prezident İlham Əliyev bu unudulmaz mesajı ilə həm də onu bəyan etdi ki, Azərbaycan Ümummilli Lider Heydər Əliyevin türk dünyasının birliyi ilə bağlı seçiminə bundan sonra da sadiq qalacaq. Qardaş Türkiyənin sabiq Baş naziri mərhum Bülənt Ecevit Ulu Öndərin tarixi xidmətlərini vaxtı ilə bu cür dəyərləndirmişdi: "Qüdrətli öndərsiz bir millət heç nəyə nail ola bilməz. Heydər Əlirza oğlu Atatürk qədər qüdrətli bir türkdür. Heydər Əlirza oğlu min ildən bir yetişən dahilərdəndir".

Allah rəhmət eləsin, ruhu şad olsun.

**Vüqar Rəhimzadə.** Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Ümummilli Lider Heydər Əliyev xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətləri ilə bütün dünya azərbaycanlılarının yaddaşında xilaskar dövlət xadimi kimi əbədi olaraq yaşayacaq. Bu gün Ulu Öndərin şah əsəri olan müasir müstəqil Azərbaycan qalibiyyəti ilə dünyaya səs salıb. Hər bir reallığın arxasında güc, prinsipiallıq, əzm, iradə, böyük səylər dayanır. 1991-ci ildən 1993-cü ilin iyun ayına qədərki dövr Azərbaycanın dövlətçilik salnaməsində fəlakət illəri kimi xarakterizə edilir. Belə bir vəziyyətdən çıxış yolunu axtaran Azərbaycan xalqı xilasını yalnız Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışında gördü. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma aradan qaldırıldı, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Ümummilli Lider Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində 1993–2003-cü illərdə yaradılan möhkəm təməl

Azərbaycanın bugünkü uğurlarını şərtləndirdi. Azərbaycanın bugünkü uğurları Heydər Əliyev siyasətinin təntənəsidir. Ulu Öndər Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi, siyasi sınaqlarından uğurla çıxaran və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşduran qüdrətli şəxsiyyətdir. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan onun həyat amalının təntənəsidir.

Azərbaycanın hər bir uğurunun əsasında iqtisadi müstəqilliyimizin təmin edilməsi dayanır. Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu neft strategiyası bu gün Azərbaycana davamlı uğurlar qazandırır. Ulu Öndər iqtisadiyyatın inkişafında neft amilinə böyük önəm verməklə Azərbaycanın bugünkü inkişafının əsasını qoydu. Hazırda iqtisadiyyatın şaxələndirilməsi siyasəti uğurla davam etdirilir. Ümummilli Lider Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində ölkəmizin malik olduğu təbii resurslarından səmərəli istifadə etməsi, enerji diplomatiyasını uğurla həyata keçirməsi bu sahədə biri-birindən mühüm addımların atılmasını təmin edir. Bu gün Azərbaycan regional inkişafın aparıcı qüvvəsinə, dünya birliyinin fəal üzvünə, dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevrilib. Azərbaycanın iştirakı olmadan bölgədə hansısa iqtisadi və siyasi layihənin həyata keçirilməsi mümkünsüzdür.

Bu gün bu fikir böyük qürur hissi ilə qeyd olunur ki, Ulu Öndər Azərbaycanı müstəqilliyini itirmək təhlükəsindən xilas etdisə, Prezident İlham Əliyev torpaqlarımızın xilaskarı, ərazi bütövlüyümüzü bərpa edib, yenilməz xalq adını özümüzə qaytaran lider kimi adını tarixə qızıl hərflərlə yazdırdı. Ümummilli Lider Heydər Əliyevin vaxtı ilə işğal altında olan ərazilərimiz haqqında söylədiyi “Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər

bir azərbaycanlı üçün bu, iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da belə əzizdir. Heç vaxt biz Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İstisuyu. Biz onlarsız yaşaya bilmərik" fikirlərinin davamı olaraq Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyev Şuşa şəhərinin 2020-ci il noyabrın 8-də işğaldan azad edildiyi gün xalqımıza bu müraciəti etdi: "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Hazırda Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi üçün genişmiqyaslı işlər aparılır. Qarşıda qalib Azərbaycanı daha möhtəşəm uğurlar gözləyir. Heydər Əliyev yolu Azərbaycanın uğurlarının, zəfərlərinin əsasıdır.

*******

Azərbaycanda insan alverinə qarşı mübarizə dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Bu sahədə həyata keçirilən tədbirlər, hüquqi mexanizmlərin təkmilləşdirilməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi ölkəmizdə insan alveri ilə mübarizənin daha sistemli şəkildə aparılmasına şərait yaradır. İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun 2025-ci ilə dair hesabatı da bu istiqamətdə görülən işlərin nəticələrini və qarşıda duran əsas vəzifələri əks etdirən mühüm sənəddir.

Azərbaycanda insan alverinə qarşı mübarizə istiqamətində effektiv hüquqi və institusional mexanizmlər formalaşdırılıb. Dövlət tərəfindən qəbul edilən qanunvericilik aktları, milli fəaliyyət planları və xüsusi proqramlar bu sahədə mübarizənin sistemli şəkildə aparılmasına şərait yaradır. İnsan alveri ilə məşğul olan cinayətkar qrupların hüquq mühafizə orqanları tərəfindən aşkarlanması və məsuliyyətə cəlb olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu sahədə maarifləndirmə tədbirləri də xüsusi əhəmiyyət daşıyır. İnsan alverinin təhlükələri barədə məlumatlandırma risklərin azalmasına kömək edir. Xüsusi ilə gənclər və qadınlar arasında bu istiqamətdə aparılan təbliğat işləri mühüm nəticələr verir.

İnternet və sosial şəbəkələr vasitəsi ilə yayılan saxta iş elanları və qeyri-qanuni miqrasiya təklifləri barədə ictimaiyyətin məlumatlı olması vacibdir. Azərbaycan insan alverinə qarşı mübarizə sahəsində dövlət qurumları arasında əlaqələndirilmiş fəaliyyət modelini prioritet istiqamətlərdən biri kimi müəyyən edib. Bu istiqamətdə hüquq mühafizə orqanları, sosial müdafiə qurumları, təhsil və səhiyyə müəssisələri, miqrasiya xidmətləri və digər aidiyyəti dövlət strukturları birgə uğurlu fəaliyyət göstərirlər. Dövlət qurumları arasında koordinasiyanın güclü olması bu sosial bəla ilə effektiv mübarizə aparılmasını təmin edən əsas amillərdən biridir. İnsan alveri qurbanlarının müdafiəsi və reinteqrasiyası məsələsində də koordinasiya xüsusi əhəmiyyət kəsb edir. İnsan alverindən zərər çəkmiş şəxslərə hüquqi yardımın göstərilməsi, onlara psixoloji dəstəyin verilməsi, tibbi xidmətlərin təşkili və sosial adaptasiya proqramlarının həyata keçirilməsi sahəsində müxtəlif dövlət qurumlarının uğurlu birgə fəaliyyətini xüsusi qeyd etmək vacibdir. Bu istiqamətdə

əlaqələndirilmiş fəaliyyət qurbanların cəmiyyətə daha sürətli inteqrasiyasına kömək edir.

İnsan alverinə qarşı mübarizədə beynəlxalq əməkdaşlıq da mühüm rol oynayır. Çünki bu cinayət növü əksər hallarda bir neçə ölkəni əhatə edən transmilli şəbəkələr vasitəsi ilə həyata keçirilir. Bu səbəbdən dövlətlər arasında məlumat mübadiləsi, birgə əməliyyatlar və hüquqi əməkdaşlıq mexanizmləri xüsusi əhəmiyyət kəsb edir.

Son vaxtlar dünyada süni intellekt əsaslı cinayətlər də artıb. Bu baxımdan qlobal tendensiyalar mütləq nəzərə alınmalıdır. Ona görə də insan alverinə qarşı mübarizədə yalnız ənənəvi üsullarla kifayətlənmək olmaz. Rəqəmsal mühitdə monitorinqin gücləndirilməsi, sosial şəbəkələr üzərində nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, beynəlxalq məlumat mübadiləsinin sürətləndirilməsi və süni intellekt alətlərinin tətbiqi artıq zəruri tələbə çevrilib.

Azərbaycanda insan alverinə qarşı mübarizə sahəsində həyata keçirilən milli fəaliyyət planları dövlət qurumları arasında koordinasiyanın daha da gücləndirilməsinə yönəlib. Bu çərçivədə birgə əməliyyatlar, məlumat bazalarının inteqrasiyası və vahid fəaliyyət mexanizmlərinin tətbiqi xüsusi diqqət mərkəzində saxlanılır. Birgə fəaliyyət və sistemli yanaşma bu ağır cinayət növünün qarşısının daha effektiv şəkildə alınmasına və qurbanların müdafiəsinin gücləndirilməsinə mühüm töhfə verir.

İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatında da qeyd edildiyi kimi, ötən il xarici ölkələrdə 46 Azərbaycan vətəndaşı insan alverinin qurbanı olub. 2025-ci ildə zərərçəkmişlərin hər birinə 700 manat məbləğində birdəfəlik müavinət ödənilib. Onların hamısı

Daxili İşlər Nazirliyinin müvafiq sığınacağına yerləşdirilərək tibbi, sosial, psixoloji, hüquqi yardımlarla və zəruri geyimlə təmin olunublar. Daha 16 qurban peşə kurslarına yönəldilib, 9 qurbanın işlə, 6-nın şəxsiyyət vəsiqəsi ilə təmin edilməsində, 1 qurbanın tibb müəssisəsində müalicə və 11 qurbanın ünvanlı sosial yardım almasında, 23 qurbanın isə ailələrinə qayıtmasında köməklik edilib. Milli Koordinatorun məlumatına görə, 2025-ci ildə şəxsiyyət vəsiqəsi olmayan 9 uşağa doğum haqqında şəhadətnamə verilib. Həmin uşaqlara məhkəmə qərarları əsasında doğum haqqında şəhadətnamələr verilərək müvafiq məlumatlar dövlət reyestrinə daxil edilib. Bu sahədə həyata keçirilən uğurlu mübarizə tədbirləri, dövlət orqanlarının effektiv koordinasiyalı fəaliyyəti nəticəsində Azərbaycanda insan alveri cinayətlərinin dinamikasında azalma müşahidə olunur.

Azərbaycanda milli və mənəvi dəyərlərin hər zaman üstün tutulması, ailə institutunun möhkəmliyi, ictimai məsuliyyət, dövlət tərəfindən hüquqi, iqtisadi, sosial, təhsil və təhlükəsizlik sahələrində həyata keçirilən kompleks tədbirlər insan alverinə qarşı mübarizədə mühüm sosial dayaq rolunu oynayır və təsadüfi deyil ki, insan alveri cinayətləri ölkəmizdə qeydə alınan cinayətlərin heç bir faizini belə təşkil etmir.

Ümumilikdə, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun 2025-ci ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı Azərbaycanda bu sahədə ardıcıl, uğurlu və effektiv fəaliyyət həyata keçirildiyini təsdiqləyir. Görülən tədbirlər insan alverinin qarşısının alınması, qurbanların müdafiəsi və cəmiyyətin təhlükəsizliyinin təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır.